AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

OZAN DÜNYASI

№1(16)
2014

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

Ozan dünyası **№1(16), 2014**

Millətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.

Zəlimxan Yaqub
Xalq şairi

Baş redaktor: **Musa NƏBİOĞLU**

REDAKSİYA HEYƏTİ:

Zəlimxan Yaqub (məsləhətçi)
Məhərrəm Qasımlı (məsləhətçi)
Həsən Mirzə
Nizami Cəfərov
Muxtar İmanov
Qəzənfər Paşayev
Qənirə Paşayeva
İsmayıl Məmmədli
Elxan Məmmədli
İlyas Tapdıq
Məmməd Aslan
Seyfəddin Qəniyev
Ədalət Nəsibov
İsfəndiyar Rüstəmov
Seyfəddin Altaylı (Türkiyə)
Nizaməddin Onk (Almaniya)
Çingiz Mehdioğlu (İran)
Nazim İrfan Nəsrəddinoğlu (Türkiyə)
Osman Əhmədoğlu (Gürcüstan)

Rəssam: ***Ömər Qoçulu***
Əməkdar memar, memarlıq namizədi

Jurnal 26 noyabr 2008-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi: 2756
Jurnalın iki ayda bir dəfə olmaqla ildə 6 nömrəsi işıq üzü görür.

Ünvan: Bakı, Zərifə Əliyeva küç. 53
Əlaqə telefonları:
(+ 994 12) 493 86 61
(+994 50) 345 36 52
musa58@bk.ru

HÜSEYN ARİF - 90

Zəlimxan YAQUB
Xalq şairi

SƏFƏR DAVAM EDİR

Vaqifdən, Vidadidən, Alıdan, Ələsgərdən, Səməd Vurğundan, Osman Sarıvəllidən keçib gələn, şifahi xalq ədəbiyyatından mayalanan, yazılı ədəbiyyatımızdan qidalanan, Azərbaycanın görkəmli şəxsiyyətlərindən ilham alan, dağları zirvə-zivə, düzləri ətək-ətək, yamacı, yastananı, yalı, gədiyi qarış-qarış tanıyan, cığırı, yolu, izi, çəhlimi, yoxuşu-enişi, mamırı, qayanı, daşı danışdıran, zirvədə buz üstə ölən, dağ belinə ağı deyən, təbiətin ceyranını, cüyürünü, maralını, qartalını öz dillərində dindirən, meşələr sultanı meşəbəyini əbədiləşdirən, palıddan, söyüddən, çinardan, dəmirqaradan, göyrüşdən, vələsdən, zoğaldan ürəklə danışan, Azərbaycana simfoniya yazan, Ceyrançölü, Göyçəni, Naxçıvanı, Borçalını, Aveyi, Xırıdağı, Xuluflunu, Kürü, Arazı, Təbrizi, Bakını, Qazağı, Qarabağı, Durnalını, Mingəçeviri, Ağstafanı, bütün Azərbaycanı şeirə, şeiriyyətə gətirən, oğlu Arifin ölümüylə sevinc şairindən kədər şairinə çevrilən, içəridən tək-lənən, arxasının dağı gedən, Arif gedəndən sonra dünyası boş qalan, ağlaya-ağlaya dözən, dözə-dözə ağlayan, təbiəti loğman kimi düşünən, torpaq eşqi ilə yaşayan, bulaqlara nəğmə qoşan, bənövşələrə şeir oxuyan, bir ovuc torpağa dönən, otaqların küncünə çəkilməyən, düzlər keçib dağlar aşan, qocaldıqca cavanlaşan, aşıb-daşan bir şairi var bu dünyanın.

Bu dünyanın şairi, xalqın şairi, elin şairi! “Alim kimdi – kitaba bax, şair kimdi – xalqdan soruş” deyən Hüseyn Arif dünyanın ən böyük sevgi şairlərindən biridir. Sevən, sevilən, sevdirən, gözəlləri gözündən oxuyan,

"Tül bədənə tül nə gərək, tüldə soyuq dəyər sənə" deyib baxışlarıyla gözəlliyi qoruyan, "Üzündə göz izi var, sənə kim baxdı yarım" deyən Sarı Aşıq kimi üzləri ürəklərdən, ürəkləri üzlərdən oxuyan, "Yüzünüz bir şair yaratmadınız, biriniz yüz şair bada verdiniz" deyib gözəlləri poetik bir dillə tərənnüm edən bir ustaddır, ozandır, aşiqdir.

Hüseyn Arifin dili sazdan, bayatıdan, qoşmadan, oxşamadan, layladan, nağıldan, dastandan gəlir. Bu dil zərifdir, incədir, kövrəkdir, həzindir.

Hüseyn Arifin dili otun cücərməsi, çiçəyin açması, suyun şırıltısı, bulağın zümzüməsi, yarpağın titrəməsi, qayanın duruşu qədər təbiidir. Əsl dil öz şirinliyini, öz mayasını sazın laylasından, laylanın sehrindən, səsin avaz-baxarından, sözün gücündən, şimşəklərin çaxmsından, buludların toqquşmasından, damlaların pıçıltısından, yağışın şeiriyyətindən alan canlı dildir. Əsl dil torpaq kimi nəfəs alır, işlək olur, dincəlir, dincə qoyulur, hissi, duyğunu, düşüncəni gözəlləşdirir. Deyim tərzini, ifadə tərzini kamilləşdirir, insanın ürəyindən keçən nə varsa, hamısını şirinləşdirir, cilalayır.

"Səfərdəyəm, səfərimi vurmamışam başa hələ, Arzularım, əməllərim toxunmayıb daşa hələ". Bu dil həmişə səfərdədir, yoldadır, hərəkətdədir. Bu dilin özünün kökü var, gövdəsi, budaqları, çiçəkləri, meyvələri var. Bu dil atanın, ananın, körpə uşağın, qoca qarının, müdrik kişinin, aranın, yaylağın, dağın, binənin dilidir. Danışır və dünyanı şirin bir dillə danışdırır.

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyilmi?
Çıxanda gəzməyə çölün, çəmənin,
Üzünə gülməsi şeir deyilmi?

– deyən şair üçün yer də, göy də, kainat da, təbiət də, varlıq da, var olan hər şey də şeirdir, şeiriyyətdir. Bu şeiriyyət tükənməzdir, dağlar qədər uludur, dənizlər qədər nəhayətsizdir, düzlər qədər genişdir, üfüqlər qədər işıqlıdır. Bu dil Hüseyn Arif dilidir. Diri və duru, saf və təmiz, halal və müdrik, turşməzə və şirin, gerçəyin, həqiqitin, doğrunun özü, əsl Hüseyn Arif dili.

Bu dildə danışır körpə öz beşiyiynən, ana öz balasıynan, xalq öz övladlarıynan, millət öz bayrağıynan, dövlət öz himniynən, bulaq öz suyuynan, çəmən öz çiçəyiynən, meşə öz ağacıynan, təbiət öz rəngiynən:

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım.
İçək sularından buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım.

Təkcə bu bənd haqqında çox geniş söhbət açmaq olar. Bu şeir təbiətin himni, yerlərin, göylərin ahəngidir. Çəmənin xalça kimi yerə sərilməsini, çeşnisini, çeşidini, rəngini, boyasını, toxunmasını, ilmələrini, naxışların göz oxşayan zümzüməsini, buz bulaqlardan su içmək üçün dolçanın lil-para çevrilməsini ancaq şair gözü ilə görmək, şair ürəyiylə duymaq olar. Bunun üçün təbiəti gözəl bilməli, duymalısan. Hüseyn Arif və təbiət ayrılmazdı, bölünməzdi, bütövdü, tamdı. Orda bəstə də var, bəstəkar da var, saz da, qaval da, tar da var, nəğmə də var, nəğməkar da var, qartal da var, güzgü kimi parıldayan göllər də var, insanı qoynuna alan yorğan da var, çiçəklərin dərmanı da var, bütövlükdə təbiətin möcüzəsi və təbiətə şair heyrəti, Hüseyn Arif baxışı var! Elə bir baxış ki, onu şair görə bilər. Təbiəti bütün incəlikləri ilə duya bilən şair!

Nə qədər maşına uysa da insan,
Təkcə asfalt yolu tutub qalmasın.
Bizə uzaqları yaxınlaşdıran,
Bizi yaxınlardan uzaq salmasın.

Nə qədər gözəl deyilib, təbiətə münasibət açıqlanıb. Müasirlik təbii dünyanı, şərəfli keçmişi, işıqlı dünəni ayaq altına alıb tapdalamamalıdır. Onu göz üstündə saxlamlıdır. Təbiət özünü düşünən kimi, biz də onun taleyini düşünməliyik. Ağrısını-acısını, şadlığını-sevincini duymalıyıq. Onu insan kimi dərk etməliyik.

Bir ovuc torpaqdan dönən deyiləm,
Bir ovuc torpağa dönənə kimi –

deyib təbiətin varlığını düşünməliyik.

Hüseyn Arif ruhu ərlərdən, ərənlərdən, qaçaqlardan, qoçaqlardan, mərdlərdən, Qaçaq Kərəmlərdən, İsrafil Ağalardan, ulu babası İsgəndər kişidən, ulu nənəsi Zal qızı Gülnazdan gəlir. Hüseyn Arifin ruhu Qurbanidən, Abbasdan, Xəstə Qasımdan, Qaracaoğlandan, Alıdan, Ələsgərdən gəlir. Bu ruh hər yerdə onun köməyinə gəlir, qolundan tutur, xəyalına qanad, ilhamına axar verir, dünyasını böyüdür, "Ayaq getdi, əl gətirdi, diş yedi, baxmaqdan savayı gözə nə qaldı" deyən Alıdan gəlir, "Qazdır məzarımı çeşmə başında, Sal sinəm üstündən yol, incimərəm" deyən Ələsgərdən gəlir, "Yaxşı gündə, yaman gündə var olsun, qədir bilən əhlihaldan danışaq" deyən Vurğundan gəlir. Bu ruh həmişə təzə, təravətli, rəngarəngdir. Bu ruh da, bu təravət də, bu rəngarənglik də kökdən, süddən, sümükdən, yaddaşdan, keçmişdən gəlir.

"Həqiqi sənətdən söhbət düşəndə, səni düşünürəm, yaxşı ki, varsan" – ölməz rəsaam Səttar Bəhlulzadəyə həsr elədiyi şeirin son beyti elə onun özünə aiddir. Təbiətə münasibətdə Səttar Bəhlulzadə kimdirsə, Hüseyn Arif poeziyası da odur. Səttar Bəhlulzadə, Hüseyn Arif "ana təbiətin əkiz oğlu" kimi yaşayıb, yaradıb, eyni ruhun daşıyıcıları olublar. Hüseyn Arifin gəzən, uçan, dünyanı dolaşan, dağı arana, aranı dağa daşıyan, ruhu səhərin bir əsim mehindən, çəmənin bir damla şehindən, yağışın bir damla suyundan, qarın muncuq kimi dənələrindən, bir ovuc torpaqdan, bir əlçim buluddan elə bir müdrik abidə yaradıb ki, o, təbiət qədər uzun bir ömür yaşayacaq!

Ayları, illəri salsam da yola,
Yaşadım qəlbimin öz arzusuyla.
Bir zərrə şəfəqdə, bir damla suyla,
Bir ovuc torpaqda bir çəmən ollam.

- deyən şair əbədi yaşayacaq! Çünki arzunun da, şəfəqin də, suyun da, torpağın da, çəmənin də ömrü əbədidir.

Hüseyn Arif sevgisi insana məhəbbətlə məhdudlaşmır. Onun sevgisi insana, təbiətə, yerə, göyə, varlığa, vətənə, vətənin müqəddəsliyinə, dünyaya, ölümə, həyata, həsrətə, vüsala bağlı sevgidir.

Çiçəklər incəlik, güllər zəriflik,
Sünbüllər bərəkət gətirir bizə.
Dərələr dərinlik, düzlər genişlik,
Zirvələr əzəmət gətirir bizə.
Gedəni təbiət aparır gedir,
Gələni təbiət gətirir bizə.

Çiçəklərə incəliyi, güllərə zərifliyi, sünbüllərə bərəkəti, dərələrə dərinliyi, düzlərə genişliyi verən təbiət Hüseyn Arifə də bir dünya məhəbbət vermişdir.

Dedim: – Telin nə gözəldir!
– Yox-yox, ona dəymə, – dedi.
Dedim: – Nə vaxt gəlim sizə,
– Qapımızı döymə, – dedi.

Hüseyn Arifin yazdığı, Səid Rüstəmovun bəstələdiyi və Gülağa Məmmədovun çox böyük həvəslə oxuduğu bu gəraylı dillər əzbəridir. Nə üçün? Çünki gəncliyin və gənclərin sevdiyi bu mövzu şair tərəfindən çox böyük ustalıq, sadəlik və müdrikliklə qələmə alınıb. Ürəyin diqtəsi ilə dünyaya gəlib. Xalqın mənəvi sərvətinə çevrilib. Xalq mahnısı kimi məşhurlaşıb.

"Can alan gözəlin özü can verir,
Çəkilib o hüsnü, o camal yatır"

– deyən şair dünya gözəli olan bir mələyin Əzrayıla can verməsini elə böyük ürək yanğısı ilə, can ağrısı ilə təsvir edir ki, o ağrıları sən öz canında, öz qanında, öz varlığında hiss edirsən.

Şeirimizdə, poeziyamızda "Oynadı" rədifli çox böyük ustalıqla yazılmış qoşmalar var. Misal üçün bir nümunə gətirək:

Kərəm deyər, karvan yola düzüldü,
Ala gözlər xumarlandı, süzüldü.

Əsli qıya baxdı, canım üzüldü,
Bağrımın başında tellər oynadı.

Kərəmin yana-yana dediyi bu şeirdən sonra Hüseyn Arif adlı bir oğul gəlir dünyaya, həmin rədif üstündə olduqca müasir və klassik bir şeir nümunəsi yaradır:

Yaz gəldi, əridi dağ döşündə qar,
Qoşuldu çaylara, sellər oynadı.
Açdı pəncərəni səhər-səhər yaz,
Yel vurdu başına, tellər oynadı.
Oğlan qıza baxdı, qız bağa keçdi,
Kölgələr gah sağa, gah sola keçdi,
Baxışlar süzüldü, əllər oynadı.

Bu şeir sevginin, məhəbbətin, sevənin, sevilənin, oğlanın, qızın, iki dünyanın birləşməsinin poetik şəkli, bədii nidasıdır. Bundan gözəl necə demək olar iki aləmin birliyindən yaranan möcüzəni. Budur sənətkarlıq, budur şairlik, budur sözü ustad kimi demək.

"Əriyər dağların qarı, əriməz sinənin qarı, başı buluddan yuxarı, dərya onun nə vecinə". Bu şeirdə dağların qarına bənzəyən sinənin ağlığı, başı buluddan yuxarı duran gözəlin dəryanı vecinə almaması, gözəlin ərki, nazı, işvəsi, qəmzəsi necə böyük ustalıqla qələmə alınıb, İlahi!

Zamanın köhləni yeyindən yeyin,
Başımın üstündən illər ötüşdü.
Heyif, ləzgi qızı, sənin gəncliyin,
Hüseynin qocalan vaxtına düşdü.

Bu əsər müdrik bir kişinin gözəl bir ləzgi qızı haqqında dediyi ürək sözləridir. O sözlər ki, insanı içəridən yandırıb-yaxır, ürəyi ocaq kimi qovurur, köz kimi eşələyir.

Dedilər qar gəlir, qayıt bu yoldan,
Əsdi yel, yağdı qar, mən inanmadım.
Dedilər toyudur bu axşam çağı,
Çaldı saz, dindi tar, mən inanmadım.
Günahkar sən oldun, çünki dünyada,
Heç kəsə sonradan mən inanmadım.

Şair burda gözəllərin vəfasızlığından sarsılır, arzuları puç olur, dilək-ləri çiçək kimi solur. Bir gözəli günahkar bilir, bütün gözəlləri qınayır. Saz ötür, tar dinir, şair yenə də inanmır ki, belə vəfasızlıq olsun.

Haranı bəyənib seçəsi olsam,
Oraya, ey sənəm, sən mənimlə get.
Bir gün bu dünyadan köçəsi olsam,
Tək onda demərəm sən mənimlə get.

Hüseyn Arifin dillər əzbəri olan, gəncliyin çox sevdiyi bu şeiri xalq mahnıları qədər şöhrət tapıb, şairin yaradıcılığına bir ölməzlik gətirib.

Bağ saralıb, çəmən solub,
Yan dərələr çənlə dolub.
Hüseynə olan olub,
Özünə heyifim gəldi.

Şair, gözəlləri abırda, ismətdə, həyada, ləyaqətdə, əxlaqda bütöv gör-mək istəyir. Dilindən yalan çıxanları görəndə canı sıxılır, qəlbi darıxır, dərələrə çən dolur, düzləri çiskin başına götürür. Çünki şair gözəllərin, zərifliyin kobud əllərə düşməsinə dözə bilmir. Sevənin qarşısına sevilən çıxanda elə bil buludların arasından Ay çıxır, üfüqdən Günəş boylanır, ulduz ulduzu çağırır, çiçək çiçəklə öpüşür, dalğalar danışır, ləpələr pıçıl-dayır, təbiət başdan-başa sevincə bürünür. Bu fikirlər şairin diliylə belə ifadə olunur:

B*ilmirəm gündüzdümü?*
Yoxuşdumu, düzdümü?
Şölə çəkib alışan,
Günəşdimi, gözdümü?
Qarşıma sən çıxanda.

"Biri sənsən, biri mən" adlı balaca bir şeirdə iki ömrün işıqlı və kövrək anları təsvir olunur:

İki körpə su içir,
Bir körpənin gözündən –
Biri sənsən, biri mən.

...İki bəxtəvər qoca,
Əyləşib söhbət edir,
Ömrün ilk günlərindən –
Biri sənsən, biri mən.

Ömrün körpəliyi, uşaqlığı, toyu, nişanı, ata-ana olmaq sevinci, qocalığı çox sadə və şirin bir dillə nağıl olunur, elə bil bir nağıla, dastana, həzin bir bayatıya qulaq asırsan. Hüseyn Arifin ruhunda, təbiətində, varlığında olan kövrəklik bu şeirdə özünü daha qabarıq göstərir.

"Xatırla məni" şairin ən çox oxunan şeirlərindəndir. Gələndə ilk bahar məni xatırla, güləndə ruzigar məni xatırla. Dinəndə dalğalar məni xatırla, məni yada sal, xatirə kimi əzizlə, məni unutma! Şair heç vaxt unudulmur, ona görə ki, şeiri, nəğməsi, sazı, sözü xalqdan gəlir, el bulağından su içir.

Şairin hansı sevgi şeirini istəyirsən təhlil elə, ağlın, ürəyin süzgəcindən keçir, orda bir müdriklik və sadəlik, həzinlik və kövrəklik görəcəksən, ona görə ki, Hüseyn Arifin təbiəti belədir.

"Biri mən, biri kim" şeiri bir məqamın üç çağlayan dünyasından – mizrabdan, pərdədən, simdən, bir məqamda üç ağlayan duyğudan, məndən, səndən, qartaldan, palıddan, dağdan, Günəşdən danışır, axırda bütün hadisələr insanla tamamlanır. Məlum olur ki, bütün bəlaları, ağrıları çəkən insandır.

Hüseyn Arifin sevgi dünyası Məcnundan, Leylidən, Əslidən, Kərəmdən, Tahirdən, Zöhrədən, Qəribdən, Şahsənəmdən, Dilqəmdən, Telli xanımdan, Koroğludan, Nigardan keçir, Zal qızı Gülnazda ümumiləşir, bütöv bir sevgi obrazı halına gəlir. Onun sevgi dünyasında zərifliyin, kövrəkliyin, həssaslığın, incəliyin, yuxalığın tərənnümü və təsviri var. Bu təsvirdə və tərənnümdə qartalın qıyı, bülbülün cəhcəhi, kəkliyin yerişi, arının vızıltısı, kəpənəyin uçuşu, durnanın qanadlarının çırpıntısı, cüyürün mələməsi, dağ kəlinin taleyi, bütün canlıların hərəkəti və gözəlliyi var. Hüseyn Arif qədər təbiətin dilini bilən, onu daş-daş, qaya-qaya, çiçək-çiçək oxuyan, döşləri cığır-cığır tanıyan, meşələri tala-tala əzbər bilən şair çətin tapılar. Onun üçün bir süzgün baxış da, bir ala göz də, bir incə bel də, gözün keşiyini çəkən kirpik də, qara saçların ağarması da, insanda və təbiətdə nə varsa, hamısı şeirdi, şeiriyyətdi. Hüseyn Arif nədən yazır yazsın, onun baş qəhrəmanı təbiətdir. Hüsnündən, gözəlliyindən, tərənnümnüdən doymadığı ana təbiət! Təbiət və insan sevgisi! Onun yaradıcılığında insan təbiətdi, təbiət insan.

Qalxanda fərəhindən,
Toy-bayram edir insan.
Sinədə qəm sazını,
Çalıb inlədir insan.

Gah açıb gülə dönür,
Gah yanıb külə dönür.
Gah sakit gölə dönür,
Bilmirsən nədir insan.

Dincəlməyir bir an da,
Yay dağda, qış aranda.
Həyatı anlayanda,
Həyatdan gedir insan.

Üçcə bəndlik bu şeirdə bir dünya var, insan dünyası. İnsanın mahiyyəti, toyu-yası, sevinci-kədəri, açıb gülə dönən, yanıb külə dönən, sakit gölə dönən, həyatı anlayanda həyatdan köçüb gedən insanın mürəkkəb xarakteri, iç aləminin ziddiyətləri böyük sənətkarlıqla açılır.

Babək QURBANOV
Gazıantep Universiteti (Türkiyə)
Fəlsəfə elmləri doktoru, professor.
kurbanov@gantep.edu.tr

TARİXİ-ESTETİK BAXIMDAN AŞIQ MUSİQİSİ

Özət: Türk soylu xalqların həyatında bir çox sənət növləri kimi, musiqi də tarixi inkişaf prosesində əhəmiyyətli bir yer tutmuşdur. Bu xalqların folklor yaradıcılığına diqqət etsək bir daha görə bilərik ki, musiqi sənəti hər zaman xalqın yanında olmuş, onun sevincini-kədərini, mərdliyini, cəsurluğunu, hazırcavablığını, azadlıq uğrunda mübarizələrini, estetik və etik ideallarını ifadə etmişdir. Söylədiklərimizi sübut edən yüzlərlə, minlərlə sənədlər, arxeoloji məlumatlar, folklor nümunələri, bu sırada şifahi və yazılı ədəbiyyat nümunələri göstərmək mümkündür. Əsrlərdən gələn ozan-aşıq sənətinə müraciət etdiyimiz zaman bu söylədiklərimizin etibarlılığına olan inancımız bir daha da artmaqdadır. Ozan-aşıq havalarının, mahnılarının günümüzə çatmış və klassikləşmiş bir çox nümunəsi onların yüksək bədii-estetik dəyərini ən bariz şəkildə sübut edir. Aşıq sənətinin poetik və musiqi janr (növ) rəngarəngliyi, eyni zamanda ideya-məzmun və mövzu baxımından son dərəcə zəngin olması heç şübhəsiz, bu ovsunlayıcı sənətin min illərə təməllənən uzun bir tarixi yol qət etməsini göstərir. Forma, kompozisiya, lad-məqam və ideya-məzmun baxımından mükəmməl bir zirvəyə çatmış aşıq havaları heç şübhəsiz, birdən birə, bədahətən (irticalen) belə bir estetik səviyyəyə çatmamışdır. Təbii ki, ozan-aşıq sənətinin bu nümunələrinin meydana gəlməsində onun zəngin tarixi genetik köklərinin olması fikri heç bir şübhə doğurmamalıdır. Aşıq mahnılarının bizə çatmış nümunələrinin bu qədər az olmasının ən əsas səbəbi isə onların zamanında nota alınmaması, not yazısı vasitəsiylə "maddiləşdirilməməsidir". Müxtəlif ictimai, tarixi, sosial-mədəni səbəblərdən dolayı, həmçinin eyni zamanda müharibələr, köçlər, ticarət əlaqələri, müxtəlif dini inanclar (şamanizm, sufizm və s.), digər xalqların basqıları və s. ilə əlaqədar olaraq yüzlərcə-minlərcə xalq mahnılarımız (bunu folklor yaradıcılığının digər sahələri haqqında da söyləmək mümkündür) itib-batmış, yalnız xalqın yaddaşında qalmış, nəsillərdən nəsillərə ötürülməsi yolu ilə günümüzə qədər gəlib çatmış, bir daha müasir mənəvi mədəniyyətimizin ayrılmaz parçasına çevrilmişdir. Aşıq havalarının əski Türk soylu xalqların mədəni həyatında son dərəcə əhəmiyyətli rol oynadığını bir daha xatırlatmaq istəyirik. Aşıq havalarının xalqın xeyirində,

şərində, bayramlarında, müxtəlif mərasimlərində, xüsusilə də toylarında, mövsüm mərasimlərində (məsələn; Novruz bayramında və s.) önəmli rol oynamasına aid saysız-hesabsız yazılara, məqalələrə, monoqrafiyalara rast gəlmək mümkündür. Bir daha xatırladaq ki, aşıq sənəti və ifaçılığı bu zamanlar daha çox kütləvi xarakter daşımasını, daha çox insan birliyinə, xalq kütlələrinə xitab etməkdə olduğunu söyləyə bilərik. Lakin aşıq havalarının heç də hamısı öz ideya-məzmununa görə kütləvilik xarakteri daşımamaqdadır. Daha doğrusu, bu qəbildən olan havalar heç də hər zaman xalq kütləsinin ümumiləşdirilmiş istəyini, birlik, bərabərlik, ədalət, azadlıq kimi cəmiyyətin demək olar ki, bütün sosial zümrələri üçün önəmli ola bilən vətənpərvərlik, vətənsevərlik ideyalarını ifadə etmək məqsədinə qulluq etməmişdir. Aşıq havaları insanlarımızın bu qeyd etdiyimiz arzu və istəklərini, mənəvi-estetik ideyalarını ifadə etməklə birlikdə, onların fərdi hiss və həyəcanlarının müxtəlif tərəflərini, ruh hallarını ifadə edə bilən gözəl nümunələrini də görmək mümkündür. Sevgi, hörmət, mərifət, yaşlıya-uşağa-qadına hörmət, təbiət gözəlliklərinə heyranlıq, təbiətdə, insanlarda, cəmiyyət içərisində, eyni zamanda insan davranışlarında gözəlliyi görmək, dərk etmək, onun əhəmiyyətini anlamaq kimi ülvi hissləri ifadə edən yüzlərcə nümunələr də tapmaq mümkündür.

* * *

Türk soylu xalqların həyatında bir çox sənət növləri kimi, musiqi də tarixi inkişaf prosesində əhəmiyyətli bir yer tutmuşdur. Bu xalqların folklor yaradıcılığına diqqət etsək, bir daha görə bilərik ki, musiqi sənəti hər zaman xalqın yanında olmuş, onun sevincini-kədərini, mərdliyini, cəsurluğunu, hazırcavablığını, azadlıq uğrunda mübarizələrini, estetik və etik ideallarını ifadə etmişdir. Söylədiklərimizi sübut edən yüzlərcə, minlərcə sənədlər, arxeoloji məlumatlar, folklor nümunələri, bu sırada şifahi və yazılı ədəbiyyat nümunələri göstərmək mümkündür. Əsrlərdən gələn ozan-aşıq sənətinə müraciət etdiyimiz zaman bu söylədiklərimizin etibarlılığına olan inancımız bir daha da artmaqdadır. Ozan-aşıq havalarının, mahnılarının günümüzə çatmış və klassikləşmiş bir çox nümunəsi onların yüksək bədii-estetik dəyərini ən real bir şəkildə sübut edir. Aşıq sənətinin poetik və musiqi janr (növ) rəngarəngliyi, eyni zamanda ideya-məzmun və mövzu baxımından son dərəcə zəngin olması heç şübhəsiz, bu ovsunlayıcı sənətin min illərə təməllənən uzun bir tarixi yol qət etməsini göstərir. Forma, kompozisiya, lad-məqam və ideya-məzmun baxımından mükəmməl bir zirvəyə çatmış aşıq havaları heç şübhəsiz, birdən-birə, bədahətən belə bir yüksək estetik səviyyəyə çatmamışdır. Təbii ki, ozan-aşıq sənətinin bu nümunələrinin meydana gəlməsində onun zəngin tarixi genetik köklərinin olması fikri heç bir şübhə doğurmamalıdır. Aşıq mahnılarının bizə çatmış nümunələrinin tarixilik baxımından nisbətən az olmasının ən əsas

səbəbi isə onların zamanında nota alınmaması, not yazısı vasitəsilə "maddiləşdirilməməsidir". Müxtəlif ictimai, tarixi, sosial-mədəni, son zamanlar isə ideoloji səbəblərdən dolayı, həmçinin eyni zamanda müharibələr, köçlər, ticarət əlaqələri, müxtəlif dini inanclar (şamanizm, sufizm və s.), digər xalqların basqıları və s. ilə əlaqədar olaraq yüzlərcə-minlərcə xalq mahnılarımız (bunu folklor yaradıcılığının digər sahələri haqqında da söyləmək mümkündür) itib-batmış, yalnız xalqın yaddaşında qalmış, nəsillərdən-nəsillərə ötürülməsi yolu ilə günümüzə qədər gəlib çatmış, bir daha müasir mənəvi mədəniyyətimizin ayrılmaz parçasına çevrilmişdir. Aşıq havalarının əski Türk soylu xalqların mədəni həyatında son dərəcə əhəmiyyətli rol oynadığını bir daha xatırlatmaq istəyirik. Aşıq havalarının xalqın xeyirində, şərində, bayramlarında, müxtəlif mərasimlərində, xüsusilə də toylarında, mövsüm mərasimlərində (məsələn; Novruz bayramında və s.) önəmli rol oynamasına aid saysız-hesabsız yazılara, məqalələrə, monoqrafiyalara rast gəlmək mümkündür. Bir daha xatırladaq ki, aşıq sənəti və ifaçılığın bu zamanlar daha çox kütləvi xarakter daşımasını, daha çox insan birliyinə, xalq kütlələrinə xitab etməkdə olduğunu söyləyə bilərik. Lakin aşıq havalarının heç də hamısı öz ideya-məzmununa görə kütləvi xarakter daşımamaqdadır. Daha doğrusu, bu qəbildən olan havalar heç də hər zaman xalq kütləsinin ümumiləşdirilmiş istəyini, birlik, bərabərlik, ədalət, azadlıq kimi, cəmiyyətin demək olar ki, bütün sosial zümrələri üçün önəmli ola bilən vətənpərvərlik, vətənsevərlik ideyalarını ifadə etməyi qarşısına məqsəd qoymamışdır. Aşıq havaları insanlarımızın bu qeyd etdiyimiz arzu və istəklərini, mənəvi-estetik ideallarını ifadə etməklə birlikdə, onların fərdi hiss və həyəcanlarının müxtəlif tərəflərini, ruh hallarını ifadə edə bilən gözəl nümunələrini də görmək mümkündür. Sevgi, hörmət, mərifət, yaşlıya, uşağa, qadına hörmət, təbiət gözəlliklərinə heyranlıq, təbiətdə, insanlarda, cəmiyyət içərisində, eyni zamanda insan davranışlarında gözəlliyi görmək, dərk etmək, onun əhəmiyyətini anlamaq kimi ülvi hissləri ifadə edən yüzlərcə nümunə tapmaq mümkündür. Lakin bu baxımdan onları müşayiət edən aşıq havalarının əlimizə çatan örnəklərinin saylarının yuxarıda da ifadə etdiyimiz kimi, az olduğunu da söyləyə bilərik. Bununla birlikdə, ixtiyarımızda olan bu klassikləşmiş aşıq melodiyaları (mütəxəssislər onların sayını 120-ə qədər çıxardırlar) belə aşıq ruhunda, daha doğrusu, aşıq şeir formalarında söylənmiş (yazılmış) şeirlərin ifası zamanı aşıqlar tərəfindən müvəffəqiyyətlə istifadə olunur. Mütəxəssislər bəzən belə bir yaradıcılıq sintezinin səbəbini daha çox şeirlərin metro-ritm xüsusiyyətləri, mətnin fonetik xüsusiyyətləri, eyni zamanda musiqinin, aşıq havalarının ritm, tempo, ifadətəsvir vasitələri, intonasiya xüsusiyyətləri və s. kimi texniki-estetik tərəfləri ilə gerçəkləşə bilməsinə inanırlar. Bu haqlı fikirlərlə birlikdə (irəlidə bu problemlər üzərində dayanacağıq), eyni zamanda bu mahnıların, daha doğrusu, aşıq melodiyalarının emosional məzmununu da

unutmamaq lazımdır. Yəni mətnin ideya-məzmunu, onun realist istiqaməti bu baxımdan ona uyğun ola bilən bir aşıq havasına müraciət edilməsini lazımlı edir deyə düşünürük. Məsələn, "Yanıq Kərəmi" kimi məşhur və qəm-kədərlə dolu bir melodiya texniki (zahiri) baxımdan ona uyğun gələ bilən, lakin başqa bir ruh halını (qəhrəmanlıq, cəsarət, vətənpərvərlik və s.) ifadə etməkdə olan mətnlə bədii əlaqəsinin gerçəkləşdirilməsi, heç şübhəsiz, istənilən estetik nəticəni verə bilməməkdədir. Aşıq havalarının emosional məzmununu gözəl hiss edən ustad aşıqlar, təsadüfi deyil ki, bu mahnıdan monumental dastan yaradıcılığında, daha doğrusu, onların ifası zamanı yaradıcılıqla istifadə edə bilirlər. Məsələn, dastan qəhrəmanlarının ruh halını, sevgisini, mübarizəsini, gələcəyə olan inamını, estetik və mənəvi ideallarını, insana xas bu söylədiyimiz fenomenləri ifadə etməkdən ötrü, eyni zamanda insana xas bu söylədiyimiz fenomenləri əks etdirməkdən ötrü aşıqlar adətən onlara emosional baxımdan, ruhən yaxın olan aşıq havalarına müraciət etmək məcburiyyətində qalırlar. Dastan yaradıcılığına, onun klassik aşıqlar tərəindən icra olunmasına diqqət etsək, bu yaradıcılıq üsulunun nə qədər də faydalı olduğunu, eyni zamanda, ozan-aşıq yaradıcılığında bir daha ortaya çıxarmış oluruq. Onlarla xalq dastanlarımızın günümüzə qədər gəlib çatmaması, onların yalnız adlarının, izlərinin, hətta natamam variantlarının olduğu faktı bilinənlər arasındadır. Bu baxımdan aşıq melodiyaları ilə əlaqədar dastanlarımızın bir bütün olaraq (yəni epik xarakterli, burada mətn ilə birlikdə melodiyaların istifadə edilməsini də nəzərə almaq şərtiylə) yazıya köçürülməsi, yazıda "maddiləşməsi", hal-hazırda son dərəcə böyük əhəmiyyət kəsb edir. Tanınmış müzikoloq Prof. Dr. Nazim Hidayətoğlunun "Aşıq Qərib" adlı kitabı xüsusi bir əhəmiyyət kəsb edir. Zənnimizcə, Nazim bəyin bu zəhmətini dastanlarımızın bir bütün halında ələ alınmasında ilk və müvəffəqiyyətli addımlardan saymaq mümkündür. İrəlidə bu istiqamətdəki fəaliyyətlərin davamının gəlməsini ümid etmək mümkündür. Dastanlarımızın belə bir üsulla qələmə alınma problemi əslində zəhmətli və çətin bir işdir. Belə ki, bu qəbildən olan işlərdə poetik qabiliyyət və yaddaş ilə birlikdə professional musiqi bilgiləri də böyük əhəmiyyət kəsb edir. Haqqında söz açdığımız dastanın qələmə alınmasında Nazim bəy bu iki əhəmiyyətli istiqaməti, yəni ədəbi mətnlə musiqinin notalarla ifadəsini yüksək bir professionallıqla həyata keçirə bilmişdir. Dastanı ustad aşıq Aslan Kosalıdan qələmə alan və bundan ötrü Gürcüstan Respublikasının Qarayazı bölgəsinin Kosalı kəndinə gələn müəllif, dastanı söyləndiyi kimi qələmə almış, aşıq tərəfindən oxunan havaların notalarla ifadəsini (quruluşunu, kompozisiyasını) gerçəkləşdirə bilmişdir. Dastanda Aşıq Aslan Kosalının söylədiyinə uyğun olaraq dastan quruluşuna, onun

kompozisiya xüsusiyyətlərinə, eyni zamanda asıq danışma (dastan söyləmə) üslubuna riayət edən Nazim bəy, aşığın ifasındakı melodiyaları səsləndikləri kimi (bütün nüansları ilə birlikdə) və piano müşayiətində nota ala bilmişdir[1].

Dastanda istifadə edilən melodiyalar yuxarıda da söylədiyimiz kimi, dastanın əsas ideya-məzmununa, süjetinin gedişinə, qəhrəmanların nıüxtəlif ruh hallarına, emosional vəziyyətlərinə uyğun olaraq istifadə edilir. Məsələn, "Kərəm köçdü" havası aşıq dastan mətninin o hissəsində oxunur ki, burada Aşıq Qərib, sevgilisi Şahsənəm ilə məcburi olaraq yeddi illiyinə vidalaşır və Şahsənəm bunun səbəbini anasına bildirir. Yəni atasının Qərib ilə olan sevgisinə razı olmamasından dolayı, Qəribdən qırx kisə qızıl istədiyini, eyni zamanda Qəribin onları tapmaq üçün yola düşdüyünü bildirir. Bu vəziyyətdə Şahsənəmin ayrılıqdan, hicrandan doğan dərin kədər, həsrət hissləri musiqi vasitəsi ilə xüsusilə emosional bir tərzdə ifadəsini tapmış olur. Aşıq, haqlı olaraq bu ruh halını ifadə etmək məqsədiylə bu səhnəyə uyğun olan "Kərəm köçdü" yanğılı aşıq havasını çalıb-oxuyur. Əslində bu musiqi parçası ilə Şahsənəmin ayrılıqdan doğan keçirdiyi duyğuları əks etdirməklə birlikdə, dinləyicilərin də bu həyəcanları, hissləri yaşamasını təmin edir. Unutmamaq lazımdır ki, hər bir dastanın bəzən bir çox variantları belə mövcud ola bilər. Məsələn, sözünü etdiyimiz dastanın təxminən doqquz variantı vardır və bunun bu variantlarının meydana gəlməsində bir çox sənətkar aşığın bilavasitə yaradıcılıq fəaliyyətinin olması heç bir şübhə doğurmur. Buna görə də eyni dastanın aşıqlar tərəfindən ifası zamana, məkana, aşığın fərdi qabiliyyətinə, estetik dünyagörüşünə və s. bağlı olaraq onların dastanlara olan qatqılarından da söhbət açmalı oluruq. Bu fikri dastanın musiqi müşayiətinə də aid etmək mümkündür. Yəni aşıq repertuarının genişliyi və ya darlığı dastan söyləyərkən aşıqların təsvir və ifadə imkanlarını ya genişləndirir, ya da daraldır. "Aşıq Qərib" kimi digər dastanlarımızda da melodiya, burada musiqi ilə ədəbiyyatın (daha dar mənada mətnin, şeirin) dialektik əlaqəsinin əhəmiyyətli olması ilə birlikdə, eyni zamanda mürəkkəb və çox az tədqiq olunması fikrini ortaya çıxarmaqdadır. Heç şübhəsiz, eyni aşıq havasında və ya melodiyasında, həmçinin bir dastanın müxtəlif ustad aşıqlar tərəfindən ifa edildiyində belə bəzi fərqliliklərə, dəyişikliklərə rast gələ bilirik. Bunu yuxarıda sıraladığımız səbəblərlə birlikdə bir də aşıq sənətinin əslində improvizasiya xarakterli olması ilə də izah etmək mümkündür. Hər bir aşığın bu və ya digər dərəcədə həmin qabiliyyətə sahib olması, yəni şeir bəstələməklə birlikdə musiqiçilik və bəstəkarlıq qabiliyyətinə də sahib olması gerçəkliyi eyni zamanda bu sənətin əhəmiyyətli xüsusiyyətlərindən sayılmaqdadır. Təsadüfi deyil ki, belə bir qabiliyyətə görə bəzən aşıqların ustad aşıq olub-olmaması, bu sənətin incəliklərinə sahib olub-olmaması kimi fikirlər ortaya çıxa bilir. Aşıqların ifaçılıq, bədahətən şeir söyləmə məharəti xalq arasında uzun illərdən bəri sevilən, rəğbət görən,

[1] Nazim Hikmətoğlu. Aşıq Qərib, Trabzon, 1999.

aşıqlar divanı kimi adlandırılan və əsasən aşıqları bir araya gətirə bilən, onların ustalıqlarının, ifaçılıq məharətlərinin irikişafına xidmət edən bir aşıq növünü də unutmamaq lazımdır. Bu qəbildən olan "aşıqlar divanı" bütün Türk dünyasında özünü göstərməkdədir. Xatırladaq ki, hal-hazırda aşıqlar divanının ən qədim dövrlərdən başlayaraq sosial-mədəni həyatımızda oynadığı rol, onun dəyişdirici funksiyası, xalq arasında bəyənilməsinin səbəbi ilə əlaqədar problemlər folklorşünas alimlərimizin marağına səbəb olmaqdadır. Məsələn, bu sahədə həm Azərbaycanda, həm də Türkiyədə bir çox araşdırmaların aparılmasını söyləmək mümkündür. Son zamanlarda Türkiyədə ozan-aşıq sənəti, eyni zamanda aşıqlar divanı ilə əlaqədar əhəmiyyətli fəaliyyəti ilə diqqət çəkən folklorşünas alim Nazim İrfan Tanrıkulunun müsbət səylərini xüsusi olaraq qeyd etmək lazımdır. Onun "Aşıqlar Divanı" adlı əsərini son zamanlarda Türkiyədə meydana gəlmiş və aşıq sənətini işıqlandıran ən qiymətli əsərlərdən saymaq mümkündür. Əsərdə yazar zənnimizcə indiyə qədər görülməmiş bir üsuldan istifadə etməyi qarşısına bir məqsəd olaraq qoyur. Daha doğrusu, burada əsas diqqəti, aşıqlar divanı və deyişmələrə istiqamətləndirir. Aşıq sənəti üçün son dərəcə mühüm olan bu sahənin xüsusiyyətlərini kitabdan, aşıq ədəbiyyatından, mütəxəssislərin fikirlərindən aldığı məlumatlara görə deyil; aşıqların reallaşdırdıqları canlı aşıq məclislərindəki deyişmələrin olduğu kimi qələmə alınması yolu ilə şərhə çalışması və oxucuların ixtiyarına verilməsini əsas götürür. Həqiqətən də müxtəlif aşıq məktəblərində, təcrübə və səviyyəyə sahib aşıqların bir-biriləri ilə olan deyişmələrində onların bu sənətə nə dərəcədə yaxından sahib olduqlarını görmək mümkündür. Aşıqların bədahətən bir-biriləri ilə deyişməsi, eyni aşıq şeir formasında, eyni zamanda, eyni bir aşıq havası üstündə söyləyib oxuması bu xalq sənətkarlarının həqiqətən böyük fitri istedadından xəbər verir. Kitabda müəllif, hal-hazırda Türkiyədə ad-san sahibi olan aşıqların müxtəlif zamanlarda bir-birləri ilə olan deyişmələrini, burada söylədikləri sözlərdə heç bir dəyişiklik və əlavə olmadan və həqiqətdə olduğu kimi təqdim etmişdir. Əslində, bu cür deyişmələri təsvir edən, reallaşdıran və bu son dərəcə əhəmiyyətli proseslərdə bilavasitə şəxsən iştirak edən Nazim Tanrıkulu müasir deyişmə üslubunun bir çox xüsusiyyətlərinə sahib ola bilməsini aydın bir şəkildə hiss edirik. Canlı olaraq bu deyişmələr olduğu kimi reallaşdırılmasını qələmə alan müəllif, paralel olaraq bu prosesə qatılmış, aşıqlar haqqında da məlumatlar vermiş, aşıqlıq sənəti haqqında qayğılarını da şərh etməyə cəhd göstərmişdir. Kitabda göstərildiyi kimi, deyişmə Nazim Tanrıkulunun da iştirakı ilə əsasən üç aşıq tərəfindən reallaşdırılır. Deyişmə bir ümumi mövzu ətrafında cərəyan edir və çox vaxt kiçik teatr səhnəsini xatırladır. Burada aşıqlar bütün qabiliyyətlərini ortaya qoymağa, aşıqlıq sənətinin ənənələrinə, əxlaqi-etik

qanunauyğunluqlarına riayət etməyə çalışırdılar. Kitabda Türk aşıqlarının əksəriyyətinin xoş nəfəsini eşitmək mümkündür. Deyişmələrdə iştirak edən yaşlı və gənc, tanınmış və hələ o qədər də şöhrət sahibi olmamış bir çox aşıqların yaradıcılıq dəst-xətti, xüsusilə də deyişmə mədəniyyəti ilə yaxından tanış olmaq mümkün olur. Kitabda yer almış "deyişmələr" aşıq poetik yaradıcılığının nə qədər zəngin şeir formalarına (burada müxtəlif aşıq şeir formalarından, bu sırada dodaqdəyməz, diltərpənməz, təcnis, cığalı təcnis və s.) sahib olması ilə birlikdə müasir aşıqların keçmiş bədii-estetik prinsipləri unutmamalarını, onlardan yaradıcılıqla istifadə edə bilmələrini, müasir mövzuları əski şeir formalarında icra edə bildiklərini sübut etmiş olur. Nümunə olaraq Taşlıova, Günay Yıldız və Tanrıkulunun deyişməsindən iki bəndi oxuculanmızla paylaşmağı lazım görürük[2].

Taşlıova:

Bu dünyada ağlım çatmaz
Dönüşündə bir hikmət var.
Gecələri qaranlığın,
Yanrışında bir hikmət var.

Günay Yıldız:

Günəş çıxınca ulduzun
Sönüşündə bir hikmət var.
Göydən damla-damla yağ
Enişində bir hikmət var.

Tanrıkulu:

Bülbüllərin bağçalara
Konuşunda bir hikmət var.
Dünya dayanmaz oxunda,
Dönüşündə bir hikmət var.

Unutmamaq lazmıdır ki, bu cümlələr bədahətən bir iki dəqiqə içərisində deyilmiş cümlələrdir. Sözlərin məntiqi ardıcıllığı, şeirin qafiyəsi uyğun olaraq istifadə edilməsi, eyni zamanda onların birinci bəndindəki ideya-mövzuya xidmət etmələri, həmçinin bədiilik və sənətkarlıq baxımından da lazım olan səviyyədə olması insanı heyran qoyur. Bu qəbildən olan deyişmələr, (kitabda ideya-emosi-

[2] Nazim İrfan Tanrıkulu. Aşıqlar Divani. İstanbul, 2000.

onal baxımdan zəngin nümunələri görmək mümkündür) təsadüfi deyil ki, geniş dinləyici kütləsinin də dərin marağını çəkir, saatlarca onların diqqətini özündə saxlaya bilir. Əslində improvizasiya qabiliyyətinə əsaslanan bu ifa üsulu, eyni zamanda yaradıcı insan fikirinin əhəmiyyətli xüsusiyyətlərindən birinin sirrlərinin öyrənilməsi işində də müsbət rol oynaya bilər. Bu qəbildən olan bədii-estetik qayda-qanunlara, ifa proseslerinə, hətta sazın köklənməsi kimi xüsusiyyətlərə nə dərəcədə riayət etmələrini, bu ənənələri necə inkişaf etdirmələrini göstərməklə birlikdə, çağımızda belə xalq sənətkarlarının dünyagörüşünü, sosial-mədəni səviyyəsini, ictimai-ideoloji baxışlarını, həyatda ortaya çıxan mürəkkəb hadisələrdən nə səviyyədə baş çıxara bilmələrini də ifadə etmiş olur. Kitabda yer almış "lüğət" hissəsində müəllif aşıq yaradıcılığında istifadə edilən bir çox sözləri, deyimləri xalq dilindəki mənaları ilə birlikdə izah etməyə çalışır. Bu bölümdə eyni zamanda ümumiyyətlə aşıq yaradıcılığına xas olan bir çox sözlərin ortaq məna daşıdıqlarını da hiss etmiş oluruq. Hətta yazar müasir Türk aşıqlarının istifadə etdikləri bir çox söz və məsəllərin türkcəyə çevirilməsini belə əhəmiyyətli sayır. Bizim üçün tamamilə aydın olan bu sözlərin (məsələn; "qabağında qul olar", "ona-buna tay eylədin") Türk oxucuları və dinləyicisi üçün başa düşülməsini asanlaşdırmaqdan ötrü onların izahını da verir. Bu cür müqayisələr və anlayışların (zaman keçdikcə bunların bəziləri öz köhnə fonetik və məna xüsusiyyətlərini belə itirmişdir) zənginliyinə dəlalət etməklə birlikdə aşıq yaradıcılığının əsrlərdən bəri yaranmış və ortaq dəyərlər halına gəlmiş bir çox sözlərin, terminlərin (eyni zamanda aşıqlar divanında səslənən musiqinin, daha doğrusu, musiqi müşayiəti ilə əlaqədar nümunələrin də nota köçürülməsini əhəmiyyətli edir. Ümumiyyətlə, musiqinin aşıq yaradıcılığında tutduğu əhəmiyyətli yeri tək aşıq havaları, melodiyaları ilə məhdudlaşdırmaq doğru olmazdı. Aşıq ədəbiyyatında, xüsusilə də dastan yaradıcılığında musiqinin, onun insan mənəviyyatında, xalqın sosial mədəni həyatında oynadığı əhəmiyyətli rolu hiss etmək çətinlik təşkil etmir. Məsələn, "Dədə Qorqud", "Koroğlu", "Aşıq Qərib", "Əsli və Kərəm", "Tahir və Zöhrə" kimi dastanlarda əsas qəhrəmanların saz çalıb oxuması, çox vaxt da musiqi vasitəsilə öz daxili dünyasını, dərin duyğularını, istək-arzularını ifadə etməsi kimi hadisələr bir daha yuxarıda söylədiklərimizi sübut edir. Bəzən musiqi dastanlarımızda əbədilik, ölməzlik, ölümü belə yenəbilmə simvolu kimi də bir məna daşıya bilir. "Dədə Qorqud" dastanının bir çox variantlarında bu xüsusiyyəti hiss edə bilərik. Yəni "Dədə Qorqud"u əbədiləşdirən, ruhunu yaşadan, onun qopuzunun cismani ölümdən sonra belə səslənməsi, xalqını maarifləndirməsi, doğru yola çağırmasıdır. "Koroğlu" dastanında da qəhrəmanın ən mürəkkəb məqamlarda belə saza müraciət etməsi, bir xalq qəhrəmanı olmaqla birlikdə eyni zamanda bir xalq aşığı olması kimi bir həqiqətin də təsadüf olmadığını göstərir. Heç şübhəsiz, əsasən xalqın qəhrəmanlıq və gözəllik ideallarının ifadəsi olan dastan, hər nə qədər onun tarixi həqiqətlərə təməllənməsi belə (məlumdur ki, Koroğlunun tarixi

bir şəxsiyyət olub-olmaması kimi bir problem günümüzə qədər folklorşünas tədqiqatçıların diqqət mərkəzindən düşmür) əslində xalqın azadlıq, müstəqillik uğrundakı istəkləri ilə birlikdə onun mənəvi-estetik ideallarını da ifadə edir. Yəni Koroğlu bir xalq qəhrəmanı olmaqla birlikdə gözəlliyi, yüksək mənəviyyatı və sənəti təmsil edən bir obraz kimi qarşımızda canlanmaqdadır. Məşhur rus bəstəkarı R.Qliyer özünün "Şahsənəm" operasında təxminən otuzdan çox Azərbaycan xalq mahnılarını yaradıcılıqla istifadə etmişdir. "Leyli və Məcnun", "Şah İsmayıl" kimi onlarca digər dastanlarımızda xalq musiqi nümunələrinin yer aldığı həqiqətləri bir daha yuxarıda söylədiklərimiz fikirlər də sübut etməkdədir. Bu dastanların mətnləri, onların müxtəlif variantları və kompozisiya quruluşu ilə əlaqədar araşdırmaların gerçəkləşdirilməsi ilə birlikdə buradakı musiqinin yeri və mətnlə olan dialektik vəhdətinin də araşdırılmasına hal-hazırda böyük ehtiyac duyulmaqdadır. Unutmamaq lazımdır ki, aşıq ədəbiyyatı və musiqisi mənəvi-estetik xəzinəmiz olmaqla birlikdə, professional sənət, bu sırada professional (çoxsəsli) musiqi sənəti üçün də tükənməz bir yaradıcılıq qaynağıdır. Təsadüfi deyil ki, böyük sənətkarlar haqlı olaraq tez-tez bu qaynağa müraciət edir, bir daha onun sərhədsiz potensial-estetik imkanlarını ortaya çıxara bilirlər. M.İ.Qlinka, Ü.Hacıbəyli, R.Qliyer, C.Hacıyev, Adnan Saygun (onun "Koroğlu" operasını unutmamaq lazımdır), F.Əmirov, A.Məlikov, A.Əlizadə ("Aşıqsayağı" əsərini bir daha xatırlatmaqda fayda var, aşıq terminlərinin[3], deyimlərinin də mövcud olmasını göstərir) kimi bu cür qiymətli araşdırmaların heç şübhəsiz, aşıq sənətinin geniş potensial-estetik xüsusiyyətlərinin izahında, bu sırada eyni zamanda aşıq musiqisi, onun mətnlə olan əlaqəsi və vəhdətini anlamağa, daha dərindən araşdırmağa yönəlik imkanları təmin edə bilər. Unutmamaq lazımdır ki, bu cür aşıq divanlarında səsləndirilən havaların, melodiyaların musiqi dili, lad-məqam, intonasiya xüsusiyyətləri, ritm-mətn xüsusiyyətləri, heç şübhəsiz, burada səsləndirilən mətn, şeir ilə də birbaşa əlaqəlidir. Burada bir daha (deyişmədə) iştirak edən aşığın poetik qabiliyyəti ilə birlikdə onun aşıq musiqisinə, onun bədii dilinə nə dərəcədə sahib olması, ondan necə istifadə edə bilmə qabiliyyətini də eşitmək mümkündür. Yəni, mətnin sözlərini oxuyan aşıq musiqinin avazla oxunuşunu, detone edib-etməməsini də eşitmək imkanı doğurmuş olur. Bu xüsusiyyətlər də bir daha dastanlarımızda və ya ümumiyyətlə aşıq yaradıcılığında aşıq havaları və melodiyalarının nota alınması zərurəti ilə birlikdə bu kimi bəstəkarlarımızın yaradıcılığında aşıq poetik yaradıcılığı və musiqisinə olan yaradıcı münasibətin şahidi oluruq. Ozan-aşıq yaradıcılığının əhəmiyyətli bir yönü də onun tariximizi, məskunlaşdığımız əraziləri, xalqımızın azadlıq və müstəqillik uğrunda verdiyi mübarizələri əks etdirməsidir. Xatırladaq ki, bu mövzu ilə əlaqədar də maraqlı araşdırmalar aparılmışdır. Lakin bu dastanların, xüsusilə də tarixi dastanların Türk soylu xalq-

[3] Bax: Е.Елдарова. Музыкально-поэтический терминологический словарь Азербайджанских ашугов. AzEA-nın nəşriyyatı, 1968.

ların digər dünya xalqlarının yaradıcılığı və xüsusilə də epos (dastan) yaradıcılığı ilə olan mədəni əlaqələri, bənzərlikləri baxımından da əhəmiyyətli qaynaq olması faktı hər keçən gün ortaya çıxarılmaqdadır. Təbii ki, dastanların, aşıq havalarının, atalar sözlərinin, mifoloji mətnlərin, bayatıların, nağılların və s. qarşılıqlı bir şəkildə araşdırılması üsulu bu baxımdan müasir mərhələdə xüsusilə aktuallıq qazanmaqdadır. Artıq bu istiqamətdə araşdırmalarda belə ozan-aşıq sənətinin, ümumiyyətlə Türk soylu xalqların tarixi, mədəni dəyərlərin, sərhədlərinin düşündüyümüzdən çox-çox geniş olması və onun eyni zamanda qədim bir keçmişə sahib olmasını isbatlaya bilməkdədir. Məsələn bu gün Türk dünyasında xüsusilə də aşıq yaradıcılığında intişar tapmış bayatılar Orta Şərq bölgəsində belə, daha doğrusu, İraqda Kərkük türkləri arasında geniş bir şəkildə yayılması fikrini açıq bir şəkildə söyləyə bilərik. Uzun müddət İraqda işləmiş Prof. Dr. Qəzənfər Paşayevin araşdırmaları sayəsində İraqda yaşayan Kərkük Türkləri ilə bayatı yaradıcıları arasında o qədər də böyük fərqliliklərin olmadığı ortaya çıxarılmışdır[4]. Xatırladaq ki, yazarın müraciət etdiyi nümunələri asanlıqla Anadolu türklərinin mani yaradıcılığında da tapmaq mümkündür. Əlbəttə bu bənzərlikləri (dil, ifadə forması, inşa, ideya-məzmunu, tarixi hadisələr, müxtəlif ruh halları və s.) xalq yaradıcılığının digər sahələrində də tapmaq mümkündür. Bu baxımdan bir daha identik araşdırmaları xatırlatmaq lazımdır. Məsələn, folklorçu alim Prof. Dr. Əli Kaflkasyalının İran-Türk aşıq mühiti ilə əlaqədar etdiyi araşdırmalarda bir daha bu sənətin İranda da təzahür etməsinin, onun ortaq və spesifik istiqamətlərinin ortaya çıxarılmasının professional və inandırıcı bir şəkildə oxuculara çatdırılmışdır[5]. Bu yolda ciddi addım atanlardan biri də Prof. Dr. İlqar İmamverdiyevdir. Onun İranda aşıq sənəti və musiqisinin geniş intişar tapması ilə əlaqədar araşdırmaları, aşıq sənətinin bu ölkənin bir çox bölgələrində də (xüsusilə də Azərbaycan türklərinin yaşadıqları yerlərdə) son dərəcə məşhur və sevilən bir sənət növü olduğunu sübut edir[6]. Bununla birlikdə, ozan-aşıq sənətinin əskilərə təməllənən nümunələrinin burada da yer almış hadisə və rəvayətlərin dil, din, psixoloji xüsusiyyətlər, ümumiyyətlə estetik mədəni dəyərlər baxımından fərqli görünə bilən xalqların mifologiyaları, eposları, nağılları və s. ilə münasibətləri baxımından da bənzərliklərin olması faktı araşdırmalar nəticəsində ortaya çıxmış olur. Bu baxımdan "Kitabi-Dədə Qorqud" dastanı həm yerli, həm də xarici elm adamlarının diqqətini cəlb edir[7]. Bu dastanda Türk soylu xalqların tarixi keçmişi, sosial həyat tərzi, humanizm və ədalət naminə apardıqları mübarizələr, gözəllik və ülvülük haqqındakı təsəvvürləri, onların əxlaqi-etik prinsipləri, bu sırada bəşəri universal dəyərləri özündə ehtiva edən

[4] Qəzənfər Paşayev. Bu sevda öləncədi. Oskar, Bakı, 2001.
[5] Kafkasiyalı A. İran Türk aşıqları və milli kimlik. Erzurum, 2007.
[6] İmamverdiyev İ. Azərbaycan və İran Türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri. "Nafta-press", Bakı, 2008.
[7] Abdulla K., C.Lyuis, Vilhelm Grim, Laura Melikof-Sayar, Orhan Şaik Gökay və b.

xalqın bu bədii şüur məhsulu hal-hazırda da öz dəyərini itirməmiş, bütün mədəni millətlərin dərin marağına səbəb olmaqdadır. "Dədə Qorqud dastanı"nın C.Lyuis tərəfindən ingilis dilinə tərcümə olunması, fikirimizi bir daha sübut edir. Yazar tərcümədəki giriş hissəsində ingilis oxucusunu dastanın yaranma tarixi, Türk soylu xalqlar arasında onun yayğınlığının ictimai-tarixi səbəbləri, əsərin bədii dil xüsusiyyətləri, bədii-ifadə vasitələrinin spesifikliyi, eyni zamanda dünya ədəbiyyatı nümunələri ilə olan süjet bənzərlikləri və s. haqqında geniş məlumatlar verir. Məsələn müəllif "Basatın Təpəgözü öldürməsi nağılı" ilə (yeddinci nağıl) "Odisey" əsərinin doqquzuncu fəslində təsvir olunmuş siklop əhvalatları arasında bənzərliklər tapmağa çalışır. Yenə C.Lyuis burada yazır ki, Homer tərəfindən meydana gətirilmiş hekayənin "Kitabi-Dədə Qorqud"dan necə bir yol tapmış olması çox maraqlıdır. O, konkret nümunələrə müraciət edir və yazır ki, "Homer hekayətinin xalq variantının naşirləri Meri və Ridl, eyni zamanda bu günlərə kimi Vilhelm Qrim də belə hesab edirlər ki, sikloplar haqqında olan əfsanələr öz başlanğıcını heç də "Odisey"dən almayıb və onların hamısında bir ümumi mənbə vardır. Ehtimal ki, Homer bu mövzunu vaxtilə Kiçik Asiyanın qərbində ağızdan-ağıza söylənən hekayətlərdən almışdır. Təxminən iki min il ərzində söylənilən bu hekayətlər ilk dəfə Asiyanın şərqində Türkdilli xalqların nümayəndəsi "Kitabi-Dədə Qorqud" əsərinin naməlum müəllifi tərəfindən mənimsənilmişdir[8]. Bu qəbildən olan bənzərliklərin mövcud olmasını digər alimlərimiz də vurğulamağa çalışırlar. Xüsusilə də əski yunan ədəbiyyatı və mədəni bənzərlikləri son zamanlarda alimlərimizin diqqətini daha çox çəkir. Məsələn Prof. Dr. Mürsəl Həkimovun "Aşıq sənətinin Poetikası"[9] adlı monoqrafiyasında Qobustan qayaları üzərindəki petroqliflərdə qurbankəsmə mərasimləri ilə yunanlıların Dionis tanrısının şərəfinə verilən qurban mərasimləri arasındakı bənzərliklə, eyni zamanda "Kosa-Kosa", "Qaravəlli" kimi xalq mərasim teatrlarının zəhmət nəğmələri ilə yunanlıların xalq teatrlarının, zəhmət nəğmələri arasındakı bənzərliklər "Dəli Dumrul" boyunun Evripidin "Alkesta" əsəri ilə olan bənzərlikləri ifadə edilməkdədir. Prof Dr. Əflatun Nemətzadənin sintetik sənət olaraq dram teatrı ilə əlaqədar yazılarında da teatr tarixi və oyunu ilə əlaqədar bir daha qədim xalq oyunlarımızın, onların ənənəvi janrlarının əski Yunan teatr tamaşaları ilə qarşılıqlı əlaqə diqqət mərkəzinə gətirilir. Bu baxımdan Kalmuk xalqının qəhrəmanlıq dastanı "Canqar"[10] ilə dastanlarımız arasındakı bənzərlikləri (toponomik yer adları, adət-ənənələr, at kultu, döyüş alətləri, geyimlər, bayraqlar, əkinçilik mədəniyyəti, musiqi məclis-

[8] Bax: The Book of Dede Korkud. Translated, with an Introduction and Notes? By Yeoffrey Lewis? Penguin Boks, 1974. Azerbaydjan za rubejom. Elm, Baku, 1975, № 4, s. 41.
[9] Mürsəl Həkimov. Aşıq sənətinin Poetikası. Seda nəşriyyatı, Bakı, 2004.
[10] Babek Kurbanov. Kalmuklar ve Kahramanlık Destanı Cangar. Türkeli, 25 Haziran, 2, 9 Temmuz 1997.

ləri, ortaq sözlər, bölümlərdəki, boylardakı ümumi məzmun və s.) saxlamaq mümkündür deyə düşünürük. Eyni sözləri rusların məşhur "İqor polku (alay) haqqında Dastan"ı haqqında da söyləmək mümkündür. Bu qəbildən olan analoji örnəklər heç də tək mövzu, ideya-məzmun, eyni zamanda yuxarıda zikr etdiyimiz digər ortaq fenomenlərlə kifayətlənmək fikrində deyilik. Bu yaxın və bəzən coğrafi baxımdan bir-birlərindən uzaqda yaşayan xalqların "səs mədəniyyəti" sahəsində də saysız-hesabsız bənzərliklər tapmaq mümkündür. Bu baxımdan tanınmış musiqi nəzəriyyəçisi və estetikçi Haluk Tarcanın prinsipial xarakter daşıyan "Atəş Kültü" məqaləsinə müraciət edək. "Müasir musiqinin böyük bir hissəsi, mənşəyini, Orta Asiya və Avrasiyada məskunlaşmış millətlərin xalq mahnıları və onların ritmik özəlliklərindən alır. Bu Asiya qaynağından rus bəstəkarları da böyük ölçüdə faydalanmışlar: Rus operalarında daxili ariyaların çoxu, Kazax xalq musiqisindən alınmaqdadır. Borodinin "Knyaz İqor" operası, Çaykovskinin "Dama de Pique" (Qaratoxmaq qadın) operası və digərlərini də örnək gətirmək mümkündür. Fransız tədqiqatçısı və yazarı Romen Rollanın yazdığı kimi, rus romantik musiqisinin qaynaqlarından biri Asiya Türk xalq musiqisidir. Sanıram bir dəfə daha yazmışdım, Çaykoskinin "Qu quşu gölü" baleti bir Qırğız nağılıdır. "Bu cür nümunələrin sayını artırmaq da mümkündür, lakin burada məqsəd bir dəfə daha Türk soylu xalqların mədəniyyət və qarşılıqlı təsir xəritəsinin nə qədər geniş olduğunu sərgiləməkdir. Zənn edirik ki, Türk soylu xalqların xalq yaradıcılığının, xüsusilə də ozan-aşıq sənəti və ənənələrinin yaxın xalqların mənəvi-estetik mədəniyyətlərinin bir-biri ilə qarşılıqlı əlaqəsi, musiqi sənətinə olan inkar edilməz təsiri, bu mədəniyyətlərlə olan münasibətləri ilə bağlı problemlər onların ciddi tədqiqinə diqqət yetirilməsi də getdikcə daha böyük əhəmiyyət kəsb edir. Məsələn, bu baxımdan aşıq sənətinin Qafqaz və onun sərhədlərindən çox uzaqlardakı əks-sədasının, estetik-təsir gücünün böyük olduğunu göstərən lazımlı məlumatlar, konkret faktlar da az deyil. Azərbaycan musiqisinin Gürcüstanda, Ermənistanda, Dağıstanda, eyni zamanda Orta Asiya respublikalarında geniş bir ölçüdə yayılması, sevilməsi tez-tez səslənməsi və bəzən hətta ona mənsub nümunələrin öz mədəniyyətlərinə aid olmalarını, öz milli mədəniyyətlərinin məhsulu olaraq qəbul etmələrini göstərən hadisələrin də şahidi oluruq. Bəzi musiqi alətlərimizin, məsələn Sadıqcan tərəfindən mükəmməlləşdirilmiş və "Azərbaycan tarı"[11] kimi qəbul görmüş bir alətin yuxarıda adı çəkilən bölgələrdə səsləndirilməsi, eyni zamanda Azərbaycan kamançasının, nağara, qoşa nağara, dəf kimi zərb alətlərinin[12] bu xalqların musiqi həyatında tutduğu yeri və əhəmiyyəti söylədiklərimizi isbatlamaqdadır. Xatırladaq ki, bu təsiri etiraf etməkdən çəkinməyən bir çox tədqiqatçı alimlərin fikirlərinə rast gələ bilərik. Qafqaz xalqları mədəniyyətləri əsnasında bu mövzunu araşdıran tanınmış folklorçu Zeynəlabidin Makasın nü-

[11] Abdulkasimov V. Azerbaycan Tarı. Ankara, 1998.
[12] Quliyev O. Azərbaycan xalq çalğı alətləri orkestri. İşıq, Bakı, 1980.

mayiş etdirdiyi bir çox nümunə bu baxımdan maraq doğurur. O, yazır ki: "Gürcü əsilli E.Tağaişvili, çar dövründə Ahıska türklərinin yaşadıqları bölgəyə etdikləri səfər əsnasında bölgədə yaşayan gürcü və ermənilərlə etdikləri söhbətlərdə əlaqəli olaraq gündəliyində bu təəccüblü məlumatlara yer verir: "Bu bölgədə gürcü və erməni dilini səhvsiz danışan gürcü və ermənıyə rast gələ bilmədik. Amma kiçikdən böyüyə hər kəs evlərində belə çox gözəl Tatarca (Türkçə) danışırdı. Hətta yol yoldaşım gürcü əsilli Mark belə yol boyunca Türkçə mahnılar söylədi. Səbəbini soruşduqda gürcü dilini bilmədiyini söylədi. Çiharuli kəndi olan Alantada hər kəs Türkçə danışırdı. Çiharula, Koteliya, Bavra, Hoqumo və Kartımı kəndlərində də vəziyyət bundan fərqli deyildi". Əsərin digər bir yerində yazar lazımlı sənədlərə həm Azəri-Türk alimlərinin, həm də xarici, bu sırada erməni, gürcü və s. elm adamlarının fikirlərinə əsaslanaraq haqlı olaraq yazır ki, on yeddinci əsrdən etibarən Azəri aşıq ədəbiyyatının təsir sahəsinə girən erməni aşıqları bu sənəti mənimsəyib müxtəlif yerlərdə yarırəsmi aşıq məktəbləri meydana gətirdilər[13]. Bu kimi gerçəkliklər bir daha tarixi, mənəvi-estetik dəyərlərimizə, həmçinin ozan aşıq sənətinə sahib çıxmağımızın, onun aktual, nəzəri məsələlərinin araşdırılmasına, təbliğinə yönəlmiş çoxyönlü fəaliyyətimizin daha geniş çapda aparılmasının nə qədər mühüm olmasını göstərir.

QAYNAQLAR:

Nazim Hidayətoğlu. Aşıq Qərib, Trabzon, 1999

Nazim İrfan Tanrıkulu. Aşıqlar Divanı, İstanbul, 2000

Bax: Е.Елдарова. Музыкально-поетический терминологический словарь Азербайджанский ашугов. AZEA-nın nəşriyyatı, Bakı, 1968

Qəzənfər Paşayev. Bu sevda ölüncədi. Oskar, Bakı, 2001

Kafkasyalı A. İran Türk aşıqları və milli kimlik. Erzurum, 2007

İmamverdiyev İ. Azərbaycan və iran Türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri, "Nafta-press", Bakı, 2008.

Abdulla K., C.Lyunis, Vilhelm Grim, Laura Melikof-Sayar, Orhan Şaik Gökay və b.

Bax: The Book of Dede Korkud, Translated, üith an İntroduction and Notes, by Yeoffrey Leüis, Penguin Boks, 1974.

Азербайджан за рубежом. Elm, Bakı, 1975, №4, sə.41.

Mürsel hekimov. Aşıq sənətinin poetikası. Seda neşriyyatı, Bakı, 2004.

Babek Kurbanov. Kalmuklar ve Kahramanlıklar Destanı Cangar. Türkeli, 25 Haziran, 2, 9, Temmuz, 1997.

Abdulkasimov V. Azərbaycan tari, Ankara, 1998.

Quliyev O. Azərbaycan halq çalğı alətləri orkestri, İşıq, Bakı, 1980.

Zeynalabidin Nakas. Türk dünyasından maallar. Kitabevi, istanbul, 2000

[13] Zeynelabidin Makas. Türk dünyasından masallar. Kitbaevi, İstanbul, 2000.

Babek Gurbanov

THE HİSTORİCAL AUSTETİCAL ASHUG MUSİC

Music is important in turkic people's life as teh all kind of art in the historical proses. Many kind of ozan-ahug songs proved the artistic-aesthetic value of song which are have come up today.

The many-colouredness of ashug art at the same time the üealth of the ashug-ozan art üith maintenance is showed that ashug art has come a long historical way.

Key words: turkish people's, Azerbaijan music, history, folk-lore.

Бабек Курбанов

ИСТОРИЧЕСКАЯ ЭСТЕТИЧЕСКАЯ АШЫГСКАЯ МУЗЫКА

В жизни туркских народов, музыка, как и другие виды искусства, в процессе исторического развития заняла особое место. Наша вера в истинность этих выражений растет, каждый, когда мы обращаемся к озано-ашыгскому искусству, дошедшего до нас через века. Дошедшие до наших дней озано-ашыгские мелодии, песни, и их высокая художественно-эстетическая ценность классических образцов доказывают это. Разно-образность поэтических и музыкальных жанров (видов) ашыгского искусства, одновременна идейное содержание с точки зрение темы, будучи очень богатым, несомненно показывает прохождение длинной исторической дороги.

Ключевые слова: турские народы, азербайджанская музыка, история, фольклор.

Füzuli BAYAT
AMEA Folklor İnstitutu,
Filologiya üzrə elmlər doktoru
fuzulibayat@yahoo.com

AŞIQLIQ SƏNƏTİNİN ÖTÜRÜLMƏSİNDƏ USTA-ŞAGİRD ƏNƏNƏSİNİN FUNKSİONAL ROLU

Özət: XVI yüzildən başlayaraq qrumsallaşan aşıqlıq sənətinin yüzillər boyu yaşadılmasında, bir sonrakı nəslə ötürülməsində usta-şagird ənənənəsinin sosial-mədəni, tarixi-coğrafi funksiyası əsas rol oynamışdır. Hər nə qədər özlərini badə içib vergi almış, haqq aşıqları adlandırsalar da, bu sənətin öyrənilməsində və öyrədilməsində usta-şagird ənənəsi həlledici olmuşdur. İlk dəfə saz şairləri haqqında geniş araşdırma aparan F.Köprülü usta-şagird münasibətinə toxunmuş, aşıqlığın yaşadılmasında onun mühüm rolunu qeyd etmişdir. Ustad aşıqlar uzun illər şagird olmanın kriteriyalarını işləyib hazırlamışlar ki, bu, bir növ şagirdliyə qəbul şərtləri kimi də başa düşülə bilər. Bunlar şagird olmaq istəyənin a) səsini (nəfəsini), b) dilini, c) barmağını (çalmağını) yoxladığı kimi, d) hafizəsinin də sınaqdan keçirilməsidir.

Usta-şagird ənənəsini müəyyənləşdirən bu kriteriyalar, ölçü-mizanlar aşıq yaradıcılığında sənət şəcərəsinin formalaşmasını və sonrakı dinamikasını şərtləndirən çox önəmli faktorlardır. Məhz bu sənət ölçülərini əsas götürən ustad aşıqlar hər çalıb oxuyanı şagirdliyə qəbul etməmişlər. Digər tərəfdən, bəzən şagirdin öz funksiyasını axıradək yerinə yetirmədiyi, qeyd olunan sənət kriteriyalarından kənara çıxması halları da mövcud olmuşdur.

Açar sözlər: aşıqlıq sənəti, usta-şagird münasibəti, ənənə, saz şairləri.

1. Giriş

XVI yüzildən qrumsallaşmağa başlayan aşıqlıq sənətinin yüzillər boyu yaşadılmasında, bir sonrakı nəslə ötürülməsində usta-şagird ənənənəsinin sosial-mədəni, tarixi-coğrafi funksiyası əsas rol oynamışdır. Hər nə qədər özlərini badə içib vergi almış, haqq aşıqları adlandırsalar da, bu sənətin öyrənilməsində və öyrədilməsində, yaşadılmasında və zənginləşməsində usta-şagird ənənəsi həlledici olmuşdur. Milli-mədəni yaddaşın, ədəbi-estetik təfəkkürün tarixi-genetik kökə bağlı atributlarının qoruyucusu və daşıyıcısı olan aşıqlar bütün folklorik, ədəbi, qismən irfani dəyərlər fonunda bir söyləyici, bir yaradıcıdır. Aşıq bütün bu dəyərlərin har-

moniyasını özünün sazı və sözü ilə, daxili məzmunu ilə yaşatmaq, qurulmuş ənənəni davam etdirmək üçün şagirdə ehtiyac duyur. Aşıqlıq orta çağın mədəni tələbləri çərçivəsində ortaya çıxdı, onu gələcək nəsillərə ötürmək üçün usta-şagird münasibətində varlığını qorudu. İlk dəfə saz şairləri haqqında geniş araşdırma aparan F.Köprülü usta-şagird münasibətinə toxunmuş, aşıqlığın yaşadılmasında onun mühüm rolunu qeyd etmişdir. Ustad aşıqlar uzun illər şagird olmanın kriteriyalarını işləyib hazırlamışlar ki, bu, bir növ şagirdliyə qəbul şərtləri kimi də başa düşülə bilər. Bunlar şagird olmaq istəyənin

a) səsini (nəfəsini),
b) dilini,
c) barmağını (çalmağını) yoxladığı kimi,
d) hafizəsinin də smaqdan keçirilməsidir.

Usta-şagird ənənəsini müəyyənləşdirən bu kriteriyalar, ölçü-mizanlar aşıq yaradıcılığında sənət şəcərəsinin formalaşmasını və sonrakı dinamikasını şərtləndirən çox önəmli faktorlardır. Məhz bu sənət ölçülərini əsas götürən ustad aşıqlar hər çalıb oxuyanı şagirdliyə qəbul etməmişlər. Digər tərəfdən, bəzən şagirdin öz funksiyasını axıradək yerinə yetirmədiyi, qeyd olunan sənət kriteriyalarından kənara çıxdığı hallar da mövcud olmuşdur. O halda usta şagirddən imtina etmiş, ona bu sənəti davam etdirə bilməyəciyini söyləmişdir. Beləliklə, yarandığı gündən elektronik çağa qədər uzun bir yol keçmiş aşıqlıq usta-şagird ənənəsi daxilində mövcudluğunu qorumuşdur. Ancaq ozanlıqdan və aşıqlığın yaranmasından başlayaraq bu günə qədər usta-şagird ənənəsi çərçivəsində mövcud olan, yaşayan, varlığını qoruyan aşıqlıq sənəti elektronik bir çağın başlaması ilə əvvəlki məna və funksiyasını itirmiş, böyük dəyişikliyə uğramışdır. Təbii ki, usta-şagird əlaqəsi, ənənəsi də əvvəlki dövrlərdə olduğu kimi qalmamışdır. Hətta bir çox halda bu ənənə geri plana itilmişdir. Bunun başlıca səbəbi Azərbaycanda kommunist rejiminin aşıqlara da təbliğat aparatının bir parçası kimi baxması, müstəqillikdən sonra da saz çalmağı, oxumağı öyrədən məktəblərin açılmasıdır. Türkiyədə isə texnoloji çağın hakim olması ilə aşıqlardan çoxu bu sənəti ya özləri, ya da konservatoriyalarda öyrənirlər.

2. Şagirdliyin kriteriyaları və usta-şagird münasibətində qarşılıqlı tələblər

Aşıqlıq sənətində önəmli olan əsas cəhət aşığın ustadı ilə anıldığı kimi, ustad aşığın da yetişdirdiyi şagirdləri ilə xatırlanmasıdır. Aşıqlıq sənətinə başlamanın bacarıq və istəkdən sonra şagird olmaq üçün haradan

başlaması, nələrə diqqət etməsi lazım olduğunu bilməsidir. Hər şeydən öncə şagird onu aşıqlıq sənətinə hazırlaya biləcək ustad bir aşıq seçməklə işə başlamış olur. Təbii ki, bu seçim ya şagirdin özü tərəfindən, ya da onun atası, qardaşı və ya hər hansı bir qohumu tərəfindən edilir.

O halda səsi, musiqi duyumu olan şagird şöhrəti hər yerə yayılmış, aşıqlıqda ad çıxarmış, sevilən bir aşığı özünə ustad kimi qəbul edir və ona müraciət edir. Hər halda ustad aşığın şagirdə yaxın bölgədə yaşaması da aranan şərtlər arasındadır. Ustad aşıq da yeni gələnə bəzi suallar verir, onun oturuşunu, duruşunu, danışığını müşahidə edir, bir sözlə, ədəbli olub-olmadığını yoxlayır. Ədəb şagirddə aranan öncəlikli keyfiyyətlər arasındadır. Təbii ki, bundan sonra şagirdin sadə, təvazökar olması, qürurlanmaması gəlir. Ustad daha sonra yuxarıda zikr etdiyimiz kriteriyalar baxımından şagirdi imtahana çəkir. Ədəb yoxsa, sadəlik, təvazökarlıq çatmırsa, saz çalmaq, oxumaq, simlərə yatımlı barmaqlar, musiqi duyumu bir işə yaramaz. Əslində bütün məsləklərdə aranan başlıca keyfiyyət ədəbdir. Aşıqlıq da ədəblə başlar, ədəblə bitər. Ona görə də aşıqlığın olmazsa olmaz şərtlərindən biri də ədəbdir. Bunu Posoflu Aşık Zülali də dilə gətirmişdir:

Ustasından öğüt istersen, gönül,
Var otur yanında kal ağır ağır.
Herkesin ağzından akmaz şeker, bal,
Düşün de edebin al ağır ağır. (Tanrıkulu 1998)

Aşıqlıq sənətini, saz mədəniyyətini nəsildən-nəslə ötürən və bir çox qaydaları, kriteriyaları, prinsipləri olan aşqılıq ənənəsini formalaşdıran ən önəmli ünsürlərdən biri usta-şagird əlaqəsidir. Aşıqlıq sənətində əsaslı yeri olan usta-şagird münasibəti keçmişdən bugünə qədər yaşayıb yaratmış ustad aşıqların sənətini, bilgisini, təcrübəsini sonrakılara ötürməsini təmin edən körpüdür. Məhz usta-şagird ənənəsi nəticəsində müxtəlif aşıq mühitləri, məktəbləri və qolları yaranmışdır ki, bu da sənətin çeşidliliyini təmin etmədə önəmli rol oynamışdır. Hər halda məlum olanı budur ki, aşıq sənətinin ən ümdə xüsusiyyətlərindən biri ustad aşıqların sənətlərini yaşatmaq üçün şagird hazırlamalarıdır. Bu, yuxarıda da dediyimiz kimi, aşıq mühitlərinin yaranmasını şərtləndirdiyi kimi, aşıq məktəblərinin və ya aşıq qollarının formalaşmasını da şərtləndirir. Məktəb və ya aşıq qollarının yaranmasına səbəb olan usta-şagird münasibəti aşıqlıq sənətinin yaşadılması baxımından çox önəmlidir. Bunu vaxtı ilə F.Köprülü də qeyd edərək göstərmişdir ki, usta-şagird ənənəsinin Türkiyədəki ən önəmli mərkəzlərindən biri bu gün belə aşıqlıq sənətinin canlı olduğu Qars

bölgəsidir. Burada hələ də usta-şagird münasibəti bütün tərəfləri ilə davam etdirilir. (Köprülü 1989: 173-178)

Sənəti davam etdirmək üçün usta-şagird münasibəti aşıqlıq sənətinin ən mühüm məsələsi kimi vacib problemlərdən biridir. Yuxarıda da toxunduğumuz kimi, usta-şagird münasibəti aşıqlığın ilk vaxtlarında, XVII-XVIII və aşıq sənətinin yüksəliş dövrü olan XIX yüzillərdə daha sistemli və ənənəvi olmuşdursa, bu ənənə zaman keçdikcə dəyişmiş, əvvəlki şəklindən bir xeyli uzaqlaşmışdır. Usta-şagird münasibəti baxımından hər bölgənin dil, mədəniyyət və zövqü ilə aşıqlıq ənənəsi və sənəti yaranmışdır. Ona görə də usta-şagird ənənəsində başlıca məsələ ustad aşığın şagirdinə hər şeyi tamlığı ilə öyrətməsidir. Şagirdliyə qəbuldan sonra o, ustad aşığın yanında aşıqlıq sənətinin sirlərini öyrənir. Öyrətmə ustad aşığın şagirdi öz yanında gəzdirməsiylə, öyrənmə isə müşahidə yoluyla davam edir. Aşıq sazla bütünləşmiş sənətkardır, ona görə də şagirdə ilk öncə sazın pərdələrini, havalarını öyrədir, şeirlər əzbərlədir, məclis aparmağı, sözə necə başlayıb, necə qurtarmağı, dastan danışmağı, toyu, məclisi necə ələ almağın sirlərini öyrədir. "Şagird ustadına ən azı 4-5 il qulluq edir və aşıq ədəbiyyatında ən çox işlənən şeir şəkillərini öyrənir." (Həkimov 2004: 517) Bunlar, əsasən qoşma, gəraylı, qarşılaşma, təcnis, dodaqdəyməz, qıfılbənd, dedim-dedi tərzli şeirlərdir.

XX yüzilin 30-40-cı illərinə qədər ustad aşıq şagirdinə aşıq sənətinin bütün sirlərini, eləcə də klassik aşıq sənətini, klassik aşıq havalarını, dastanları öyrədərmiş. Hətta özü danışdığı dastanı, ustadnaməni, qaravəllini, aşıq rəvayətlərini şagirdinə sanki borc kimi, əmanət olaraq verdiyini bildirərək sonradan geri istəyərmiş. Ustad aşıq şagirdə həm ədəb-ərkanı, davranış qaydalarını, həm də sənətin sirlərini öyrədirdi. Bu proses ustadın şagirdini sınağa çəkməsi ilə nəticələnirdi. Son 50-60 ildə usta-şagird ənənəsi əvvəlki formasını, məzmununu dəyişdiyinə, kriteriyalar, tələblər zəiflədiyinə görə şagirdi sınağa çəkmək də unudulmuşdur.

Usta-şagird münasibəti sadəcə aşıqlarda deyil, hətta xarratlıqda, sazbəndlikdə, qalayçılıqda, dəmirçilikdə, papaqçılıqda, çəkməçilikdə, dulusçuluqda və s. kimi bir çox peşə sahələrində də olmuşdur. Buna bir növ sənətin davamlılığı, sələf-xələf məsələsi kimi baxmaq lazımdır. Ancaq aşıqlıq sənətinin təməl qanunlarından biri olan usta-şagird ənənəsi digər sənət növlərinin bu tip varislik ötürməsindən fərqlənir. Burada bir neçə bacarıq – saz çalmaq, mahnı bəstələmək, oxumaq, aktyorluq, əzbərçilik qabiliyyəti və s. birlikdə tələb edilir. Buna baxmayaraq, XX yüzilin əvvəllərində hələ də usta-şagird ənənəsi qorunmaqda, ustad aşığa xidmət göstərmək mərifət sayılmaqda idi. Belə ki, Göyçə aşıq mühitinin görkəmli saz ustası Aşıq Növrəs İman ustadlığın önəmi haqqında belə yazırdı:

Mərifət lazımdır əzəl binadan,
Öyüd-nəsihət gərək ata-babadan.
Yüz il cəhd etsən də qalarsan nadan,
Xidmətin olmasa kamil ustada.

(Növrəs İman 2004: 37)

Usta-şagird ənənəsi bu sənətə gələnlərə yola bələdçi ilə çıxmağın yolu başa vurmaqda başlıca şərt olduğunu xatırladır. Çıldırlı Aşıq Şenlik də ustadın önəmindən bəhs edərkən belə demişdir: ''Ustasından dərs almayan pirsizdir.'' Bu isə Türkiyədə məşhur olan ələvi-bəktaşi zümrəsinin bir atalar sözünü yada salır: "Piri olmayanın piri şeytan olar." Necə ki, Aşıq Ələsgər də ustad yanında dərs almağı aşıqlığın qaydası adlandırırdı:

Ələsgərəm, hələ azdı kamalım,
Qayda budur, bir ustaddan dərs alım.

Şagirdin qarşısında tələblər qoyulduğu kimi, ustadın da yerinə yetirməli olduğu vəzifələri vardır. O, şagirdə bildiklərinin hamısını öyrətməli, onu kamil sənətkar kimi yetişdirməli, şagirdlə yaxşı rəftar etməli, ona ölənə qədər atalıq qayğısı göstərməlidir. Aşıqlıq sənətində az da olsa bəzi aşıqların bir deyil, bir neçə ustadının olması bir tərəfdən müasir dövrdə şagirdlərin nisbətən sərbəstliyi ilə bağlıdırsa, digər tərəfdən ustadın özünün şagirdin tələblərini yerinə yetirə bilməməsidir. Bəzən də ustad aşıqlar öz şagirdlərini bir müddətdən sonra başqa bir aşığın yanına göndərirlər.

3. Şagirdlikdən ustalığa

Hər şagird ki, ustad yanında aşıqlıq sənətini öyrənmək üçün qalır, bacarığına, istedadına görə yetişir, icraçı, sonunda yaradıcı aşıq olur. Ancaq ustad yanından çıxmış hər aşıq da ustad ola bilmir. Buna baxmayaraq ənənə aşıq olmağın başlıca şərti olaraq ustad yanında dərs almağı tələb edir. Burada şagirdin tələsməməsi, ustadının hər hərəkətini, sözünü, manerasını, saz çalmaq texnikasını, məclis aparmaq bacarığını götürməsi, mənimsəməsi, bir sözlə səbir göstərməsi şərtdir. Şagirdliyin olmazsa olmazlarından biri də səbirdir. Səbir sonda şagirdi istədiyinə çatdırır. Təbii ki, istəyə çatmaq istedadın qədərinə görə bəlirlənir ki, bu, artıq nə ustanın, nə də şagirdin işidir, bu, Allahın (cc) hər kəsə bəxş etdiyi lütfdür.

Nəhayət, çəkilən zəhmət, qazanılan ədəb, göstərilən səbir şagirdin ustadından xeyir-dua və çox vaxt da təxəllüs alması ilə sona çatır. Şagird ustad aşıqdan aldığı xeyir-dua ilə müstəqil aşıqlığa başlayır, ustadı ilə getdiyi yerlərə təkbaşına getməli, məclisləri təkbaşına idarə etməli olur. Aşıqlıq sənətində şagird bütün ömrü boyu ustadının hörmətini saxlamalı, ona kəm baxmamalıdır. Aşıq rəvayətlərindən məşhur olanına görə: "Aşıq Alı Ələsgəri tam yetirib hazırladıqdan sonra bir toy məclisində onunla deyişir, el içində hörmətini qaldırıb şöhrətləndirmək məqsədilə məğlub olmuş bir aşıq kimi, öz sazını da ona təhvil vermək istəyir. Ələsgər isə onun bu xeyirxah hərəkətinə razılaşmayaraq

Bir şagird ki, ustadına кəm baxa,
Onun gözlərinə ağ damar, damar

təcnisini söyləyir" (Aşıq Ələsgər 1988: 4)

Hər məclis bir ritualdır, şagird isə bu ritualdan keçmiş, profan dünyanın insanından qutsal aləmin varlığına çevrilmiş sənətkardır. Aşıqlıq ritualından keçən şagirdə ustad xalq arasında özünü necə aparmağı, ədəb-ərkanı, böyük-kiçik yeri bilməyi, namuslu olmağı, məclis keçirəcəyi bölgənin adət-ənənəsinə bələd olmağı da öyrədir. Hər halda aşıqlığın ədəb-ərkan konsepsiyasını Aşıq Ələsgər qədər dəqiq tərif edən ikinci bir sənətkar tapmaq mümkün deyildir:

Aşıq olub diyar-diyar gəzənin,
Əvvəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

(Aşıq Ələsgər 1988: 43)

Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Qaracaoğlan, Aşıq Valeh, Aşıq Əmrah, Şəmkirli Aşıq Hüseyn, Aşıq Şenlik, Aşıq Ələsgər, Aşıq Əsəd, Aşıq Şəmşir, Mirzə Bilal, Hüseyn Cavan, Mikayıl Azaflı kimi ustad aşıqlar usta-şagird mərhələsindən keçib sonradan ustad olmuş sənətkarlardır. Bu aşıqların hər birinin neçə-neçə şagirdi olmuş, aşıqlıq ənənəsini şagirdləri vasitəsi ilə günümüzə qədər daşımışlardır. Ustad

aşıqlar Türkiyədə aşıqlıq qolu adlanan məktəblərini qurmuşlar. O baxımdan bütöv şərqi Anadoluda və Ağbabada butalı aşıq kimi şöhrətlənmiş Aşıq Şenliyin və Aşıq Sümmaninin aşıqlıq ənənəsi geniş bir sahədə davam etmişdir. Göyçə aşıqlıq qolu öncə Ağ Aşığın, sonra da Aşıq Ələsgərin təsiri altında formalaşmışdır. Qarabağ Aşıq Valehin, Şirvan Aşıq Bilalın, Kəlbəcər Aşıq Şəmşirin aşıqlıq qolunu davam etdirir.

Aşıq sənətinin, təkrar da olsa demək lazımdır ki, birinci şərti və tərkib hissəsi usta-şagird ənənəsidir. Ancaq aşıqlıq bir yoldur və hər aşıq bütün yaşamı boyunca ustadından aldığı bilgi və təcrübəni həm özünü, həm də sənətini inkişaf etdirməkdə istifadə edir. Bu inkişaf nəticəsində təbii ki, ənənədən yetişmiş aşıqlar ortaya çıxır. Aşıqlıq sənəti, onun qayda-qanunları, ənənəsi yarandığı tarixi zamandan bugünə qədər yalnız ağızdan-ağıza sözlü yolla ötürülmüşdür. Usta-şagird ənənəsi kimi aşıqlıq sənəti haqqında da təbii ki, ilk məlumatı Fuad Köprülü vermişdir. Onun fikirlərinə görə, "Əsnaf təşkilatlarında olduğu kimi, aşıqlıq qurumunda da şagirdlikdən başlayaraq aşıq oluncaya qədər keçirilməsi vacib olan bir çox dərəcələr vardır. Xüsusilə tanınmış böyük aşıqların ətrafında saz şairliyinə maraqlı, istedadlı bir çox gənc şagird yığılır, ustaddan yazacaqları şeirlərində işlədəcəkləri təxəllüs alırlar, aşıq olmaq üçün zəruri olan ədəbi və sənət tərbiyəsini gördükdən sonra aşıq fasıllarına girməyə başlarlar, ölkənin içində uzun səyahətlərə çıxarlar, nəhayət aşıq olurlar." F.Köprülü sonra aşıqların dövlət nəzarətində olduğu haqqında da məlumat vermişdir. "Şəhər və qəsəbələrdə, müxtəlif ictimai təbəqələrə məxsus ayrı-ayrı qəhvəxanalar, meyxanalar kimi ümumi yerlər vardı. Bəzi böyük qəhvəxanalarda çalğı və köçəklər də olurdu. Bu qəhvəxanalardan bəziləri, xüsusilə aşıqların toplantı yerləri idi. Onlar müəyyən mövsümlərdə buralarda toplanır, saz çalıb şeirlər oxuyurlardı. Böyüklərin və zənginlərin evlərində, saraylarında da çökürçülərə təsadüf edilirdi. Hökumətin nəzarəti altında sabit bir təşkilata malik olan bu aşıqlar bayramlar kimi keçici toplantı yerlərində qurulan qəhvəxanalarda olur, ölkənin hər tərəfini dolaşır, təkkələrdə, xüsusən də bəktaşi təkkələrində, böyüklərin, zənginlərin saraylarında qonaq qalırlardı." (Köprülü 1962: 26-27) deməklə XVI-XVIII yüzildən başlayaraq aşıqlıq sənətinin dövlətin nəzarəti altında, geniş sahələrə yayıldığını xüsusi olaraq vurğulamışdır.

Pertev Naili Boratav isə aşıqların da daxil olduğu və xalq şairi adlandırdığı zümrəni yetişdikləri mühitlərə görə dörd qismə bölmüşdür: 1) Təsəvvüf mövzularını işləyən, təriqət və zümrə fikirlərini təmsil edən şairlər. 2) Qəsəbə və şəhər mühitində yetişmiş şairlər. 3) Kənd şairləri. 4) Elat şairləri. (Boratav 2000: 20-21) Bu dörd zümrəyə daxil olan xalq şair-

ləri içərisində usta-şagird münasibəti ənənə formasını yalnız saz şairlərində qoruya bilmişdir.

Bütün bunlardan aşağıdakı nəticəyə gəlmək olar. Aşıqlıq ənənəsində sazlı (teldən), sazsız (dildən) irticalən qələmlə (yazaraq) və ya bir neçə özəlliyi birdən daşıyan ənənəyə bağlı şeir deyənlərə aşıq, bu şeir formasına aşıqlıq-aşıqlama, aşıqları idarə edən qanunlar sisteminə də aşıqlıq ənənəsi deyilir. (Sakaoğlu 1986: 247-251)

4. Son söz

Əsasən oğuz türkləri arasında XVI yüzildən başlayıb XVII-XVIII əsrlərdə davam edən, XIX yüzildə isə zirvə nöqtəsinə ulaşan aşıqlıq sənəti ənənə kimi 1) təxəllüs alma, 2) badə içmə, 3) saz çalma və s. kimi tərkib hissələri ilə bərabər 4) usta-şagird münasibəti fonunda qurulmuş, inkişaf etmişdir. Beşyüzillik tarixinin müxtəlif dönəmlərində ideoloji, siyasi çalxantılara məruz qalmış aşıqlıq sənətini XXI və daha sonrakı yüzillərdə yaşatmağın şərtlərindən biri və birincisi usta-şagird münasibətinin qorunması, davam etdirilməsidir. Milli kimliyin, milli mədəniyyətin bəlkə də ən həssas sərvəti olan aşıqlıq bizi dünyaya çıxaran canlı və qiymətli qeyri-maddi irsimizdir. Bu, elə bir sənətdir ki, onun icraçısı həm şair, həm şeirə bəstə qoşan bəstəkar, həm qoşduğu bəstəni çalan, həm də onu oxuyandır. Bu özəlliklərindən ötrüdür ki, bütün dövrlərdə aşıqlar toplumun keçmişini bilən, gələcəyini öncədən görən, geniş dünyagörüşə malik bilgi və təcrübə sahibi sənətkarlar olmuşlar. Zamanla, xüsusən də XX yüzildə məddahlığa, ideoloji rupora çevrilsələr də, əsl aşıqlar keçmişdən qalan mirası yaşada, usta-şagird ənənəsi ilə gələcəyə ötürə bilmişlər.

QAYNAQLAR:

AŞIQ ƏLƏSGƏR, (1988) Şeirləri, Yazıçı, Bakı

BORATAV P.N., (2000) İzahlı Halk Şiiri Antolojisi, İstanbul.

HƏKIMOV M., (2004) Aşıq sənətinin pqetikası, Səda, Bakı.

KÖPRÜLÜ F., (1989) Edebiyat Araştırmaları, Cild I, Ötüken, İstanbul.

KÖPRÜLÜ F., (1962) Türk Saz Şairleri, Ankara.

NÖVRƏS İMAN, (2004) Seçilmiş əsərləri. Səda, Bakı.

SAKAOĞLU S., (1986) "Ozan, Aşık, Saz Şairi ve Halk Şairi Kavramları Üzerine" III. Milletlerarası Türk Folklor Kongresi Bildirileri I. Genel Konular, Ankara.

TANRIKULU İ., (1998) Aşıkİar Divanı, İstanbul

Fuzuli Bayat

THE FUNCTIONAL ROLE OF MASTER-STUDENT TRADITION IN THE PASSING ASHUG ART CREATIVITY

Summary: Ashug art, forming from the XVI centuries played an important role in the keeping of ashug art, passing social-cultural, historic-geographical function of master-ashug to the further gentries. Though they called themselves true ashugs the master-ashug tradition played a great role in learning and teaching of this art. F.Kopruluzadeh who held a great investigation about saz poets for the first time touched upon the master-ashug relations and mentioned its importance in the ashug forming. For long ages master ashugs has worked and prepared criteries of being student and this can be understand as a condition of attending to the studentship. Here includes: a) voice (breath) b) language c) finger (playing) ability d) memory testing.

The criteries that define master-ashug tradition are main factors that deals with forming and further dynamic of ashug tradition. The master-ashugs that considered importance of this art measures didn't admit to the studentship. From the other side there are cases that student doesn't fulfil his function and being aside from mentioned ashug art criteries.

Key words: ashug art, master-student relations, tradition, saz poets

Фузули Баят

ПЕРЕДАЧА ТРАДИЦИЙ МАСТЕРА-УЧЕНИКА И ЕЕ ФУНКЦИОНАЛЬНАЯ РОЛЬ В АШУГСКОМ ТВОРЧЕСТВЕ

Резюме: Начиная с 16 века увековечивание организации ашыгского творчества была основой передачи традиции мастера-ученика в социально-культурной и историко-географической функции. Как

бы не называли себя правдивые ашыги, которые выпивали и вознаграждались, определяющую роль в учении и в изучении этого творчества сыграла традиция мастера-ученика. Ф.Кепрюлю первый глубоко исследовал творчество мастеров слова, здесь он затронул отношение мастера и ученика, отметил его важную роль в увековечивании ашыгского слова. Мастера ашыги долго изучали и вывели основные критерии ученика ашыга, который может представляться как своего рода условием приема в ученики. Желание быть учеником должен придерживаться следующих условий и должен иметь: а) голос (дыхание), б) язык, в) пальцы (для игры), г) пройти тест на память.

Эти высшесказанные критерии являются основными факторами в формировании творчества ашыга-наставника, а затем и в динамике развития этих факторов. Мастера ашуги опеираясь именно на эти критерии, не всех певцов принимали в ученики. Но с другой стороны, ученики не до конца выполняли свои функции, были случаи выхода их за пределы известных критерий.

Ключевые слова: ашыгское творчество, отношение мастера-ученика, традиции, ашыгское слово.

X.B.BƏŞİRLİ
AMEA N.Gəncəvi adına
Ədəbiyyat Muzeyi,
Filologiya elmləri doktoru.
bashirli58@mail.ru

SAZIM ŞİRİNLƏŞİR SÖZÜMƏ QARŞI...

Dərya Məhəmməd

Açar sözlər: Aşıq poeziyası, janr, ustad, ənənə, üslub, Dərya Məhəmməd.

Aşıq sənəti – aşıq yaradıcılığı ilə bağlı hiss olunacaq dərəcədə əldə olunan uğurlar, yeni layihələr, kitab, jurnal nəşrləri, bu sənətlə, onun tarixi, mərhələləri, görkəmli nümayəndələri, məktəbləri haqqında elmi məqalələrin yazılması, dissertasiyaların müdafiə edilməsi, gənclərin daha sistemli, məqsədli şəkildə ali, orta məktəblərdə təhsil alması... əslində, bu sahə ilə məşğul olanların və birbaşa aşıqların məsuliyyətini, deyərdim ki, birə-beş artırır və artırmalıdır. Dövlət səviyyəsində aşıq sənətinə verilən qiymət, qayğı gündəlik fəaliyyətin bir parçasına çevrilib.

Aşıq sənətinin dəyərini, milliyini, günümüzdə, tariximizdə, ənənəmizdə və soy yaddaşımızdakı yerini, rolunu epitet, təşbih məzmunlu "statusdan xilas" edib məhz, elə dəyər, tarix, bir xalqın yaddaşı, mədəniyyət faktı kimi təqdimi istiqamətində köklənməliyik. Aşıq yaradıcılığına, hər yönü ilə görünən mütəşəkkil, elmi bazaya söykənən koordinasiyadan baxılmalıdır. Aşıq sənətinin bir elm – kökü olan, tarixi olan, məktəbləri olan, danılmaz ustadları olan, məxsusi rəqsləri olan, məxsusi havaları, məxsusi söz mətnləri olan – kimi kulturoloji məqam, türk xalqlarının bədii, ədəbi düşüncəsinin faktı kimi tanıdılmasının, öyrədilməsinin, təqdiminin saatı çatıb. Aşıq sənəti, Qobustan qayaları, Qız qalası, muğamlarımız, Azıx mağarası, Üzeyir bəyin musiqisi... timsalı xalqımızın həmişəyaşayacaq kimliklərindəndir, bu abidələrin elə ən ilkinlərindəndir...

Aşıq sənəti irili-xırdalı, sakit-coşqun, dənizləri, çayları, gölləri ilə bir yerdə okeandır. Təqdim etdiyimiz yazıda bu okeana özəl yaradıcılığı ilə yeni axar qatan sənət dəryalarından biri, Dərya Məhəmməddən söz açmaq istədik.

"O, az tanınan, az təbliğ olunan, az xatırlanan aşıqdır", bu sözlər aşığın qızı, fəlsəfə doktoru, dosent Gülarə Qocayevaya məxsusdur. Gülarə xanım söylədi ki, "atam, o qədər sadə, təvazökar, şöhrət dalınca qaçmayan, özünü təbliğ etməyi ağlına sığışdıra bilməyən, ailəcanlı, bilikli bir insan idi". Gülarə xanım, elə mərhum atası misallı, utancaqlıqla, çəkingənliklə, umu-küsü – ilə əlavə etdi ki, bu, əsas vermir ki, bizim günlərdə Dərya Məhəmməd xatırlanmasın, əsərləri kölgədə qalsın, anılmasın...

Aşıq Məhəmməd, Dərya adını qazanana qədər, ağır, məşəqqətli ömür sürmüşdür, qazaxlı Rəhim kişinin ailəsində erməni-türk hadisələrinin gərgin dönəmlərində – 1905-ci ildə doğulmuşdur. Əsərlərinin birində:

"Məhəmmədəm, Şıxlıdanam mən özüm,
Yaman deyil, yaxşılara var sözüm", – söyləmişdir.

Aşığın atası 1918-1919-cu illərdə yenidən alovlanan erməni-türk qırğınlarında amansızcasına qətlə yetirilib. Böyük bir ailənin dolanışığı, cavabdehliyi 14-15 yaşlarından gənc Məhəmmədin çiyninə düşür... Amma gəncin elmə, ürfana, işığa can atmasına heç nə mane ola bilmir. Dini, islamın qayda-qanunlarını, Kitabını gözəl bilən, savadlı, gözüaçıq kənd mollası Molla Bilaldan öyrənir. Həmkəndlisi Osman Sarıvəlli ilə birlikdə şəriət dərslərini alır, dini biliklərə yiyələnir. Öyrənmək, dünyanı tanımaq istəyi və içində qaynayan istedadı onu Qori Müəllimlər Seminariyasına yönəldir, tələbə yoldaşları – Səməd Vurğun da daxil – Azərbaycan mədəniyyətinin, ədəbiyyatının sonrakı yaradıcıları və daşıyıcıları olur. Seminariyadakı ab-hava, təhsil, yeni mədəniyyətlərlə tanışlıq, heç şübhəsiz, aşıq Məhəmmədin gələcək taleyini, sənətini, həyatını müəyyənləşdirir...

1928-ci ildən Məhəmməd aşıqlığa başlayır, həmkəndlisi aşıq Səməddən aşıqlığın sirlərini öyrənir. Deyilənə görə, aşıq Səmədin Məhəmmədin üzərində zəhməti böyük olmuşdur. Amma Məhəmməd, aşıq Sadıq Sultanovun yanında şəyirdlik etmişdir. Gəncin istedadı, aşıq havalarını gözəl mənimsəyib çalması, bədahətən söz demək bacarığı, ədəb-ərkanı aşıq Sadıq Sultanovun diqqətini çəkmiş və onu yanına dəvət etmişdir. Az keçmir Məhəmmədin istedadı, tez bir zamanda qazandığı uğur, bacarığı, biliyi, hərtərəfli təhsil görməsi müəlliminin çox xoşuna gəlir və aşıq Sadıq Sultanov gəncə "Dərya" təxəllüsünü verir.

Dərya Məhəmməd əsasən Gəncə-Qazax, Borçalı ellərinə yığnaqlara, el şənliklərinə sıx-sıx dəvət alır, sevilir, püxtələşir. Məclislərdə görkəmli, sayılıb-seçilən aşıqlarla birlikdə ifalar edir, məclislər aparır. Deyilənə görə, bir sıra görkəmli aşıqlara müəllimlik də edir: Aşıq Kamandar, aşıq Əlyar, aşıq Rəşid, aşıq Yaqub, aşıq Cəlal və b. məhz Dərya Məhəmmədin yetirmələri olmuşdur.

Övladlarının dedikləri və onu tanıyanların şahidliyi də sübut edir ki, Dərya Məhəmməd həm də gözəl dastan söyləyicisi kimi də şöhrətlənmişdir. Unikal hafizəsi, şəyirdliyində qazandığı təcrübə məclislərdə uzun saatlarla dastan söyləməsinə meydan açarmış. Aşığın 40-dan artıq dastan bilməsi qeyd edilir. Övladlarının dediyinə görə, aşığın şəxsi arxivində (əski əlifba ilə yazılmış) yüzlərlə şeirlərinin əlyazmaları saxlanılır, onların çox az qismi çap olunub. Qızı Gülarə xanımın təqdim etdiyi bir neçə şeiri, bu nümunələri qismən də olsa məzmun, şəkil baxımından təhlil etməyə imkan verir.

Qərb – Gəncəbasar aşıq mühitinin yetirməsi olan Dərya Məhəmmədin aldığı dini və dünyəvi biliklər, müəllim yanında şəyirdlik etməsi – ustad görməsi onun yaradıclılığında özünü büruzə verir. Qərb aşıq bölgəsinin zəngin sənət ənənəsi Dərya Məhəmmədin irsində dərin izlər buraxmışdır. Aşığın maraq dairəsi genişdir, üz tutduğu mövzular rəngarəngdir. Aşıq şeirinin bir çox şəkillərində istedadını sınamışdır: qoşma, gəraylı, təcnis, cığalı təcnis, müxəmməs, dodaqqəyməz və s. Aşığın arxivində onun qəzəl janrında yazmış olduğu poetik parçalar da mühafizə edilir. Aşığın müasirləri – ustad aşıqlar Avdı Qaymaqlı, Hüseyn Saraçlı, Əmrah Gülməmmədov, Xındı Məmməd və onlarla digər aşıqlar bu səbəbdən Dərya Məhəmmədlə hesablaşmış, dostluq etmişlər.

Dərya Məhəmmədin az olsa belə, əlimizdəki şeirləri onun istedadından, sənətkarlığından bəhs etməyə material verir. Həmin şeirləri təsnif etsək, onlarda başlıca xətt kimi aşığın həyatdan, dövrandan giley-güzarı, dünyanın faniliyi, ədəb-ərkan, dostluqda sədaqətli olmaq kimi mövzular keçir.

Gəlib gedib neçə-neçə ha canlar,
Əla da var, yaxşı da var, yamanlar.
Özündən artığı əksik sayanlar,
Qalxıb, enib nərdivana düşərlər.

Aşığın ustad yanında dərs alması ilə yanaşı, onun Qori Müəllimlər Seminariyasında dünyəvi elmləri öyrənməsi, həmkəndlisi Quran hafizi Molla Bilaldan şəriətin sirlərinə vaqif olması və yeri gəldikcə bu biliklərdən əsərlərində bəhrələnməsi diqqəti çəkir:

Xudam xəlq eyləyib şiri, aslanı,
Əli kimi pəhlivanı, deyərlər.
Dəryada balıqdan aldı xəracı,
Hökümdə İsgəndər hanı, deyərlər.

Və ya:

Varsa bu dünyada axıra qalan,
Dastan olub dildə bəxtiyar olan,
Sultan Süleymana əlini çalan,
Sənə də əlini çalacaq bir gün.

Sənətkarın qoşmalarında, qeyd etdiyimiz kimi, dünya, onun faniliyi mövzusuna sıx-sıx rast gəlinir. Dərya Məhəmməd həyatın gəldi-gedərliyini orijinal şəkildə, bir qədər də nikbin, "əbədi yola" hazır bir ovqatla belə ifadə edir:

Könül doymaz gəlsə ilham olanda,
Qədirdəndi nəsib təyyam olanda.
Ay Məhəmməd, işin tamam olanda
Bir Mollaynan, bir Qurana düşəcək.

Təbii ki, ağır keçən həyatı, atasını tez itirməsi, yeniyetməliyindən böyük külfətə başçılıq etməsi, ailə yükü onun yaradıcılığından yan keçə bilməzdi. "Vallah, yaşamağa qalmayıb güman", deyən sənətkarın əsərlərinə hopub həmin ruh. Çətin, ağır ömür yollarında ona arxa-dayaq olan Yaxşılıq, Ədalət, Mərifət, dost deyə bildiyi insanlar və bəlkə də əks qütbdə duran və daha ağır gələn həyatın gerçəklikləri, aşığı sanki tərki-silah edir, yazılarına giley-güzar səpir. Aşıq, dünyanın nizamını saxlayan əbədi xeyir-şər mücadiləsində, həyatın daha çox "qara" olmasını, dost dediklərinin "yaman" çıxmasını şeirlərində çox kəsədən etiraf edir. Sənətkar uzun-uzadı "umu-küsülərlə" dolayısı ilə yox, əksinə, birbaşa, sözə əziyyət vermədən, rahat bir dillə, təsvirlə "dünya işləri"ndən oxucunu halı edir:

Sağ sinəmdə şirin sözüm dağ olmuş,
Şəhər könlüm bir virana bağ olmuş,
Yaman üz döndərib, dostum sağ olmuş,
Elə bil ki, sultan keçir, xan keçir.

Aşığın bu səpkili qoşmaları, gəraylıları tez bir zamanda adamı həmin ovqata, hadisəyə bənd edə bilir:

Yığvalın yatması, ayılması var,
Mənimki yatıbdır, ayılmır daha.
Kəlmə var, qanana öz mənası var,
Mərifət hesaba sayılmır daha...

Aşıqdan örnək kimi verdiyimiz poetik misralar (və bu ruhlu qoşmaları) yada istər-istəməz böyük şair, sərkərdə, dövlət xadimi Şah İsmayıl Xətainin "Kərəm eylə" gəraylısını salır.

Dərya Məhəmmədin irsindən nümunələrə dayanaraq, aşığın yaradıcılıq məramı, həyata baxışları, bədii düşüncə çevrəsi, təhsili, istedadının gücü, əsərlərinin dili haqqında bəzi mülahizələrə, qənaətlərə gəlmək mümkündür. Bizdə olan və bir neçəsini təqdim edəcəyimiz şeirlərinin imlasına toxunulmadı. Yeri gəlmişkən qeyd edim ki, Dərya Məhəmmədin irsi bəlli səbəblərdən bir əlifbadan digərlərinə transliterasiya edilərkən bir sıra təhriflərə məruz qalmışdır. Bununla belə, aşığın dili, söz leksikonu zəngindir, sadə olmaqla canlı danışıq dilinə çox yaxındır. Bu irs yaxşı mənada bədii simvollarla – tarixi hadisələr, şəxsiyyətlər, ədəbi keçmiş, klassiklər, dini hadisələr, islam üləmaları və dünya haqqında biliklərilə "yüklüdür". Amma bu detal, aşığın şeir dilini ağırlaşdırmamış, tam əksinə, onun dilini bədiiləşdirmiş, ona "qıvraqlıq" vermişdir. Aşıq, "sadə dillə" ən mürəkkəb mətləbləri – dünya, tarix, əxlaq, dost, "o dünya", "tarixi şəxsiyyətlər" – bədiiləşdirmək gücündədir. Heç şübhəsiz, Dərya Məhəmmədin yazı texnikasının cilasına onun ustad görməsi, dünyəvi-dini elmlərlə tanışlığı, təhsil alması mühüm təsir etmişdir. Digər tərəfdən, aşığın doğulub, formalaşdığı ədəbi aşıq mühiti – apardığı el yığnaqları, böyük ustadlarla təmasda bulunması, dostluq etməsi məhz Məhəmmədi, Dərya Məhəmməd etmişdir:

Cavab versin, kimsə candan keçibsə,

Çox ariflər çox meydandan keçibsə,
Leyli sevib, Məcnun ondan keçibsə,
Məhəmməd keçəcək ay beləsindən...

Aşığın incə lirizmlə tərənnüm etdiyi sevgi duyğulu qoşmalarında, aşiqin məhəbbəti, zərif, intim duyğuları əsla çılpaqlığı ilə şəkillənmir. İstəklisinin naz-qəmzəsi, ona diqqət ayırmaması, göz yetirməməsi örtülü bir şəkildə, pərdəli ifadə olunur. Məhəbbət duyğulu poetik əsərlərində, aşığın bu halı, müşahidələrimizə görə, bir qədər də incə yumorla təqdim olunur.

Dərya Məhəmməd həm ənənəyə sadiqdir, həm də özünəməxsus yaradıcı aşıqdır və məhz özünə xas poetik üslubunda gözələ müraciət edir:

Qul olan könlüm ki, sənə bağlanıb,
Sən onu açmırsan, ay niyə-niyə.
...Gözəlliyin bir solmağı gələcək,
Heç ölçüb biçmirsən ay niyə-niyə.

Gözəlin – el qızının portretini, onun saflığını, gözəlliyini yalnız bircə detalla müqayisə edib, onun haqqında mükəmməl, bütöv mənzərə yaratmaqla, istəyini, dərin hisslərini zərif, əyani söz lövhələrilə cızır:

Mübarək camalın necə gözəldir,
Dağlara saf təzə qar düşən kimi.
Sən mənim yadıma elə düşürsən,
Xəstənin könlünə nar düşən kimi.

Gəncəbasar aşıq mühitinin yetirməsi Dərya Məhəmməd ustad-şəyird məktəbini keçmiş, özünəməxsus dili, dünyagörüşü, təhsili, əsərlərinin məxsusi ruh və koloriti olan aşıqlarımızdandır. O, yaradıcı aşıq olmaqla yanaşı, ifaçı sənətkar kimi də şöhrətlənmişdir. Saz havalarını, dastanlarımızı bilən, məclislərdə söyləyən məharəti ilə bahəm, özü də aşıq şeirinin müxtəlif şəkillərində əsərlər yaratmışdır.

Хатира Баширли

Статья посвящена наследию ашуга Мухаммеда (Дарьи Мухаммеда), выдающегося представителя западной ашугской школы. Он был учеником Садыха Султанова, получил образование в семинарии в Гори. Он знал более 40 дастанов и являлся автором многих стихов в ашугском жанре.

КЛЮЧЕВЫЕ СЛОВА: Ашугская поэзия. Жанр. Мастер. Традиция. Стиль. Дарья Мухаммед.

Khatira Bashirli

The given article touches upon the heritage of ashyg Muhammad (Darya Muhammad) who was the outstanding representative of the Western ashyg school. He was the follower of Sadykh Sultanov, studied in the seminary in Gori. He knew more than 40 dastans and was the author of many poems in ashyg genre.

KEY WORDS: Ashyg poetry. Genre. Master. Tradition. Style. Darya Muhammad.

***

Dərya MƏHƏMMƏD

Ay beləsindən

Gecənin görəsən nə zamanında,
O dağı keçəcək ay, beləsindən.
Ağılsız mən gözəl könlü qınardım,
O necə keçəcək ay beləsindən.

Kim deyər ki, keçən günə gün çatar,
Bəxt insanda gah oyanar, gah yatar.
Az da olsa, ömrün daha da artar,
Günün ki, keçəcək ay beləsindən.

Cavab versin, kimsə candan keçibsə,
Çox ariflər çox meydandan keçibsə,
Leyli sevib, Məcnun ondan keçibsə,
Məhəmməd keçəcək ay beləsindən.

Bir gün

Başa çəkib özün başa düşməyən,
Başında dumanlar olacax bir gün.
Sən demə ki, bu gün dövran mənimdi,
Səni də birinə qatacax bir gün.

Varsa bu dünyada axıra qalan,
Dastan olub dildə bəxtiyar olan,
Sultan Süleymana əlini çalan,
Sənə də əlini çalacax bir gün.

Yola düzəl, könül, uyma hər yana,
Görmədim dünyada bir halalzada.
Ay Məhəmməd, hörmət qazan dünyada,
Əzrayıl canını alacax bir gün.

Çardağımız yatır daha

Bir-birimizi çox istərdik,
Dünya bizi atır daha.
Çəfa çəkdik çan saxladıq,
Ömür başa çatır daha.

Dünya baxmır ağlamağa,
Ana deyil, nə də ata.
Gücü çatmır saxlamağa,
Əzrayıla satır daha.

Dünya nələr daşıyacaq,
Çoxları baş qaşıyacaq.
Ağ otaqlar yaşayacaq,
Çardağımız yatır daha.

Qaralmazmı axan qanın,
Ağrıyanda cismi-canın.
Kənd koxanın, kef dünyanın,
Torpağına qatır daha.

Heyif çox əziyyət, heyif zəhmət,
Kimdir bilən qədir-qiymət.
Deyən varmı, ay Məhəmməd,
Adın itib-batır daha.

Ay niyə-niyə...

Qul olan könlüm ki, sənə bağlanıb,
Sən onu açmırsan, ay niyə-niyə.
Həsrətindən neçə-neçə yaram var,
Arayıb seçmirsən ay niyə-niyə.

Qış dolanıb bahar çağı gələcək,
Kimiyə xoş, kimə yağı gələcək.
Gözəlliyin bir solmağı gələcək,
Heç ölçüb-biçmirsən ay niyə-niyə.

Şirin bir bəndəsən, əsli zatın var,
Məhəmməd yanında çox qiymətin var.
Adamı yandıran bir xəsiyətin var,
Heç ondan keçmirsən ay niyə-niyə.

Adil CƏMİL
AMEA Folklor İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
adilcamil8@rambler.ru

AŞIQ ŞƏMŞİR POEZİYASINDA XALQ GÜLÜŞÜNÜN İZLƏRİ

Özət: Aşıq-ozan təhkiyəsinin bir qatını da xalqdan gələn incə yumor, gülməcə və bəzəmələr təşkil edir, Aşığın el məclislərindəki nitqini bəzəyən, bəzən əsas mətnin önündə, bəzən ortalarında, bəzən də sonda gələn qaravəlli, təkərləmə, gülməcə və bəzəmələr əslində dinləyicini yorulmağa qoymayan düşünülmüş ədəbi fənd, yaxud məxsusi mizanlardan sayılır. Bəzən də bu yumor aşıq-söyləyicinin təhkiyəsindən poetik leksikonuna keçir (bu atribut təbii ki, yaradıcı aşıqlara aiddir - A.C.)

Sinkretik aşıq sənəti "əslində sənətin bir çox növünü – rəqsi, musiqini, deklamasiya xüsusiyyətini, aktyorluq məharətini, dastan söyləmə və deyişmə mədəniyyətini və s. özündə ehtiva edir" (3.7) Deyilən atributlara fövqəl istedadı ilə tam sahib çıxan ustad sənətkarlarımızdan biri Aşıq Şəmşirdir. Aşıq Şəmşirin çoxşaxəli yaradıcılığında diqqəti cəlb edən xüsusiyyətlərdən biri də onun söz palitrasına parlaq rəng qatan incə yumor, xəfif gülüşdür. Təbii ki, bu gülüş xalqın, xalq təfəkkürünün özündən gəlir və qüdrətli saz-söz sənətkarı həmin gülüşü ustalıqla öz poeziyasına "həzm etdirdikdən" sonra xalqa qaytarır.

Açar sözlər: Dədə Şəmşir, aşıq poeziyası, xalq gülüşü

Aşıq Şəmşirin doğulub boya-başa çatdığı Kəlbəcər bölgəsi hazırcavab, baməzə, zarafatçıl insanlarla zəngin idi. Alxaslı Rəfi kişinin, Kərbəlayı Fərəcin, Kalvalı kişinin, Dəli Bavışın, Kilsəli Qafarın və adını çəkmədiyim onlarla, bəlkə də yüzlərlə insanın hazırcavab, yumorlu deyimləri hələ də xalq arasında yaşamaqdadır. Aşıq Şəmşir məhz belə bir mühitdə şəxsiyyət və sənətkar kimi formalaşmışdı.

Həmişə insanların arasında olan, el-obanın yığnaqlı məclislərində sazı, sözü, söhbəti ilə yadda qalan, seçilən və sevilən Dədə Şəmşir bu təmasdan, bu ünsiyyətdən çox şeylər əxz etdiyi üçün onun ədəbi irsinə fərqli aspektlərdən yanaşmaq imkanı genişdir.

Aşıq-şairin müxtəlif biçimli şeirlərində – gəraylı, qoşma, təcnis, divani, deyişmə və hərbə-zorbalarında xalq gülüşünün poetikləşmiş versiyası ilə tez-tez üzləşirik:

Səni qaxdılar başıma,
Tez ağardın, qara saqqal.
İndi bir bax göz yaşıma,
Vurdun mənə yara, saqqal!

...Şəmşir dərdin necə deyir,
Gündüz deyir, gecə deyir.
Kim ki, görür, qoca deyir,
Çəkir məni dara saqqal. (1.344)

İki bəndini diqqətə yönəltdiyimiz bu gəraylıda xəfif bir yumor var. Dialektikanın düsturuna qarşı çıxaraq ağaran saqqalı məzəmmət etməyin özü gülməli bir ovqat yaradır. Ümumiyyətlə, Aşıq Şəmşirin şeirlərində qocalığa ünvanlanmış zarafatyana motivlər çoxdur:

Səni qarı gördüm, bağrım qan oldu –
Mənim saqqalımın çal vədəsində.
Qəlbimə dəydiyin yadıma düşdü,
Çox dedim, könlümü al vədəsində. (1.50)

Yaxud:

Mən dedim: – bilənə deyək bu halı,
Sən dedin: –küyləmə eli, mahalı.
Bu Aşıq Şəmşirin saçı-saqqalı,
Mən dedim: – qaradı, sən dedin: – çaldı. (1.53)

Yaxud:

Sizin bağçalarda, a bağban, dedim:
Yetişməsin turş gavalı, pis üzüm.
Cavanlıqda gözəllərə can dedim,
Qocalıqda nələr gördü pis üzüm. (1.40)

Yaxud:

Təkcə mən deyiləm xətti çal olan,
Baxıram qocalan çoxdu, qocaldım.
Cavanlıq eşqini əlimdən alan
Axır mənə belə baxdı, qocaldım. (1.92)

Sözügedən motivlə bağlı bu nümunələrin sayını kifayət qədər artırmaq da olar. Lakin məqsədimiz yalnız bir istiqaməti təhlilə cəlb etmək yox, ümumən Dədə Şəmşirin yaradıcılığındakı islahedici, bəzən də ifşaedici gülüşün izlərini diqqətə yönəltməkdir.

Yeri gəlmişkən vurğulamaq istəyirik ki, gülüş folklorun bütün janrlarını (yas mərasimləri istisna olmaqla – A.C.) çevrələdiyi üçün aşıq yaradıcılığı da bu keyfiyyətdən kənarda qalmır. Xalq gülüşünün poetikası mövzusunda dəyərli monoqrafiyalar ortaya qoyan filologiya üzrə elmlər doktoru Muxtar Kazımoğlu belə qənaətə gəlir: "...Holavar, sayaçı sözü, bayatı, oxşama, tapmaca, atalar sözü və məsəl, qoşma, gəraylı, lətifə, qaravəlli, nağıl, dastan, əfsanə, rəvayət, xalq dramı və s. poetik şəkil və janrlarda bu və ya digər dərəcədə özünü göstərməklə gülüş folklorun həm lirik, həm epik, həm də dramatik növünü əhatə edir." (4.3.)

İstər klassik, istərsə də müasir aşıq poeziyasında yumoristik, bəzən də satirik planda yazılmış şeir nümunələrinə tez-tez rast gəlirik. Belə qoşquları Tufarqanlı Abbasın, Aşıq Hüseyn Şəmkirlinin, Xəstə Qasımın, Aşıq Ələsgərin yaradıcılığında izləmək çətin deyil. Aşıq Şəmşir də klassik aşıq sülaləsinin dəyərli davamçılarından olaraq yeri gəldikcə yumordan, xalq gülüşündən istifadə etməklə sözünün dadını-duzunu artırmışdır.

Aşıq Şəmşirin müxtəlif biçimli şeirlərində – gəraylı, qoşma, divani, hətta bayatılarında vurğuladığımız gülüşün izlərini görürük:

Mən aşıq, adam çalar,
Yarımçıq adamçalar.
Adını şahmar qoyub,
Soxulcan adam çalar. (1.482)

Bu bayatıda diqqəti çəkən istehza ustad sənətkarın başqa bir bayatısında da təkrarlanır:

Mən aşıq, yara salar,
Qəm cana yara salar.
Gecə deyər: - laçınam!
Güngörməz yarasalar. (1.482)

Əsl söz sənətkarı bəzən adi bir detaldan hekayət, rəvayət, yaxud "dastan" düzəldir. Kəlbəcərin el şənliklərində aşıqların repertuarından düşməyən şeirlərdən biri də Aşıq Şəmşir qələmindən çıxan "Xoruzun dastanı" olmuşdur. Əlbəttə, cəmi səksən misradan ibarət olan bu şeir həcminə, struktur özəlliyinə görə dastan ola bilməz. Buradakı "dastan" sözü oğurlanmış xoruzla bağlı baş verənlərə yumorlu bir işarətdir.

Qeyd edək ki, "Xoruzun dastanı" aşıq şeirində məxsusi yer alan müxəmməs qəlibinə biçilib. Lirizm ilə epizmin vəhdətindən "doğulduğu" üçün müxəmməs saz-söz sənətkarlarının repertuarında aparıcı formalar-

dan olmuşdur. "Aşıq Şəmşir müxəmməslərində, eləcə də çığalı müxəmməslərində müəyyən bir hadisənin geniş təsvirini, həmçinin lirik qəhrəmanın daxili hisslərini bütün dolğunluğu ilə təcəssüm etdirməyə müvəffəq olmuşdur". (6.197)

"Xoruzun dastanı" müxəmməsi belə başlayır:

Oğurlayıb bir it oğlu bizim bircə tək xoruzu,
Pipikləri qan-qırmızı, gözləri şimşək xoruzu,
Qanadları abı-yaşıl, quyruğu gödək xoruzu,
Bir minək, iki yaşar, lap yekə, nəhəng xoruzu,
Filmisal **bir nər** imiş kişinin gerçək xoruzu. (1.428)

Aşıq Şəmşir öncə xoruzun portretini cızır. "Bir minək, iki yaşar", "yekə", "nəhəng", "nər" kimi mübaliğəli epitetlərin xoruza müncər edilməsi gülməli bir əhval yaradır. Burada folklordan, xüsusən şifahi ədəbiyyatın qaravəlli, təkərləmə, lətifə qatından gələn ənənəvi gülüş modelinin izlərini görürük. Müxəmməsin məzmununa gülüş qatan məhz mübaliğəli ifadələr, qeyri-adi təşbehlərdir:

"Onu bizə nəvə payı göndərmişdi fağır nənəm,
Mənim üçün **at əvəzi,** elə bil ki, **böyük ənam".** (1.428)

Baxın, xoruzu ata bərabər tutmaq, onu "böyük ənam" hesab etmək inandırıcı olmadığına görə, gülüş doğurur. Oğurlanmış xoruzun üstündə kənd-kəsəyə, qohum-qonşuya, tanış-bilişə "nifrin yağdırmaq", el-obaya "qalmaqal salmaq" şifahi ənənədən gələn, dinləyici auditoriyasına hesablanmış bədii metoddur.

Aşıq Şəmşirin "Lənət sənə, şeytan" şeiri də ənənəvi xalq gülüşü kontekstində maraqlı nümunə kimi diqqəti çəkir:

"Başımı cin qaşıyır – gör necə, lənət sənə, şeytan!
Səni mən öldürəcəm indicə, lənət sənə, şeytan!
Ovqatımı təlx eləyir hər gecə, lənət sənə, şeytan!
Salmısan bədənimə vicvicə, lənət sənə, şeytan!" (1.433)

El dilində tez-tez işlənən daşlaşmış söz birləmələrindən biri "lənət şeytana" ifadəsidir. Bu söz birləşməsi şifahi örnəklərimizdə bəzən belə də işlənir: "Lənət sənə, kor şeyten!" Burada söhbət şeytanın fiziki korluğundan yox, həyatı, günəşi, insan arzularının hüdudsuzluğunu, bəşər

övladının sevgi və sevincini görə bilməyən (yaxud, görmək istəməyən – A.C.) mənəvi korluğundan gedir.

Məlum olduğu kimi, islami inanclar sistemində, ümümən müsəlman dünyaduyumunda şeytanın mənfi personaj kimi öz yeri var. Hətta müqəddəs Kəbə ziyarətgahında "şeytana daş atmaq" ritualının da mövcudluğu bu mənfi obraza yönəlmiş nifrin və nifrətin bariz ifadəsidir. Aşıq Şəmşirin lirik məni təkcə şeytanın özünə deyil, onun əb-əcdadına, övladına, hətta "siğə qardaşına" lənət yağdırmaqla yumorlu bir əhval yaradır:

"Ata-əcdadına lənət, **siğə qardaşına**, övladına lanət! –
Yenə almır vecə, lənət sənə, şeytan!" (1.434.)

Birinci misrada işlənən "siğə qardaşı" ifadəsi şeytanın kimliyini açmağa yardımçı olur və bu eyham gülüş doğurur. Bu məqamda görkəmli şairimiz Hüseyn Cavid yada düşür:

İblis nədir - cümlə xəyanətlərə bais,
Ya hər kəsə xain olan insan nədir - iblis.

Aşıq Şəmşirin yaradıcılığında məxsusi yer alan poetik nümunələrdən biri də onun müxtəlif saz, söz sənətkarları ilə deyişmələridir. Xalq şairi Səməd Vurğundan üzü bəri – Məmməd Aslan, Mikayıl Azaflı, Səmərqənd, Sandıq Süleyman, Şabər, Qəmkeş Allahverdi, Bəhmən Vətənoğlu, Məmməd Aslan, Əlqəmə Əmrahoğlu, Zəlimxan Yaqub kimi sənətkarlarla ustadın deyişmələri aşıq şeirinin bu formasında yaranmış mükəmməl örnəklərdir. Deyişmələrin hər birində Aşıq Şəmşirin özünəməxsus yumoru diqqəti cəlb edir. Gəncliyindən Dədə ilə ünsiyyət quran, onun şəxsiyyəti və yaradıcılığı haqqında saysız-hesabsız məqalələr və kitablar yazan Məmməd Aslan həmişə öz zarafatı və atmacası ilə ustadı tərpətmək, danışdırmaq, dilə gətirmək niyyətində olub. Nəhayətdə maraqlı deyişmələr, məktublaşmalar günümüzə gəlib. Məmməd Aslanın Aşıq Şəmşirlə deyişməsindən iki bəndi nəzərdən keçirək:

Məmməd Aslan:

Savaşın olurmu Güllü nənəynən?
Mən ölüm, necəsən naznan-hənəynən?
Get-gəlin qalıbmı köhnə binəynən,
İtirdinmi etibarı, görəydim?!

Dədə Şəmşir:

Güllünün altmış ili keçib yaşından,
Yenə əl götürmür naz-savaşından.
Öpəndə gözündən, qələm qaşından
Tutaşırıq gecəyarı, görəydin. (2.173)

Məmməd Aslan aşığın ömür-gün yoldaşı Güllü nənə ilə "savaşına", "köhnə binəyə" get-gəlinə işarə vurmaqla xəfif bir dodaqqaçdı yaradırsa, Dədə Şəmşir özünün tutarlı cavabında el-obadan qaynaqlanan məxsusi bir gülüş yaradır.

Aşıq Şəmşirin Sandıq Süleymanla deyişməsi də araşdırmamızın istiqaməti və leytmotivi baxımından maraqlıdır.

Deyişmələrin kökündə adətən bir əhvalat dayanır, yəni bu forma elə-belə yaranmır. Deyişənlər bir-birlərinə sözünü təbii ki, həmin əhvalatın ovqatına uyğun ünvanlayırlar. Sandıq Süleymanla Aşıq Şəmşirin deyişməsi də "sandıq 'əhvalatına" söykənir. Dədə Şəmşir Dəmirçi Süleymanın yanına gəlib qızı Çimnaz xanım üçün cehizlik sandıq sifariş edir. Lakin bir-iki günə düzəldiləsi sandığın başa gəlməsi bir neçə ay çəkir. Get-gəldən yorulan Dədə Şəmşir "Sandığın" rədifli qoşmasını yazıb Süleymana göndərir. Əslində Süleymanın da məqsədi elə aşığı dilləndirmək imiş. Beləliklə, sandıq maraqlı bir deyişməyə "səbəbkar" olur. Həmin deyişmədən iki bəndə diqqət yetirək:

Dədə Şəmşir:

Mən səni görmürəm, dostum, günahkar,
Bilirəm, evində iki ilan var –
Birisi can deyir, biri zəhrimar,
Olub işi ləngiməli sandığın.

Sandıq Süleyman:

Dədə Şəmşir, söhbətindən doymaram,
Çox həsrətdə qalmağına qıymaram.
Bu il keçdi, gələn ilə qoymaram,
Baxanlar zər-ziba sayar sandığı. (2.193)

On iki bənddən ibarət bu deyişmədə Aşıq Şəmşirin xalqa məxsus yumorlu ifadələri və deyimləri ilə qarşılaşırıq. Bu da maraqlıdır ki, həmin

deyişmədən sonra Dəmirçi Süleyman Sandıq ləqəbini daşımağa məhkum olur...

Beləliklə, professor Kamran İmranoğlunun təbirincə desək, gülüş, xalq gülüşü, gülüş mədəniyyəti kimi problemlər elmi düşüncəni müxtəlif cəhətlərdən özünə cəlb etmiş və ayrı-ayrı tədqiqatçılar öz səviyyələrində həmin problemlərin təhlilini vermişlər (5.3). Biz də Aşıq Şəmşir poeziyasında xalq gülüşünün izlərini araşdırıb elmi auditoriyanın diqqətinə çatdırmaq istədik.

QAYNAQLAR

1. Aşıq Şəmşir. O Kürün, Arazın Tərtəriyəm mən. Bakı, Orxan, 2004, 510 s.
2. Ünvanımız Dədə Şəmşir (toplayıb tərtib edəni, redaktoru və ön sözün müəllifi Adil Cəmil) Bakı, Adiloğlu, 2011, 224 s.
3. Qurbanov B. Musiqi-mətn-ifaçılıq baxımından aşıq sənəti. Bakı, Elm və təhsil, 2013. 320 s.
4. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı, Elm, 2006, 268 s.
5. Kazımoğlu M. Gülüşün arxaik kökləri. Bakı, Elm, 2005, 188 s.
6. İsayeva S. Aşıq Şəmşirin poetikası. Bakı, Elm və təhsil, 2012, 256 s.

Adil Jamil

THE SIGNS OF FOLK LAUGHTER IN ASHUG SHAMSIR'S POETRY

Summary: In the article the signs folk laughter in the poetry of the famous master Ashug Shamshir are investigated scientifically. In different poetic examples the gentle laughter belonging to the master are drawn and the way of the laughter is researched.

Key words: Ashug Shamshir, folk laughter, competition between ashugs (Caucasian folk poets and singers), poetry, poetical, saz (an Azerbaijani folk musical instrument like guitar).

Адиль Джамиль

ЗНАКИ НАРОДНЫХ СМЕХ В ПОЭЗИИ АШЫГА ШАМШИРА

Резюме: В статье рассматриваются образцы народного смеха в поэзии знаменитого мастером ашыгом Шамширом.

Ключевые слова: Ашыг Шамшир, народный смех, конкуренция между ашугов (кавказские народные поэты и певцы), поэзия, поэтика, саз.

Qumru ŞƏHRİYAR

AMEA Folklor İnstitutu,
Magistrant
nevayi-qum@rambler.ru

TÜRK AŞIĞI DADALOĞLU: HƏYATI VƏ YARADICILIĞI

Özət: Dadaloğlu XVIII əsrin sonu-XIX əsrin əvvəllərində yaşamış türk aşıq sənətinin görkəmli nümayəndələrindən biridir. Çox gənc yaşda yaradıcılığa başlamış Dadaloğlu haqqında türk mənbələrində ətraflı məlumata rast gəlinmir. Onun Əfşar tayfasından olduğu və qəhrəmanlıq şeirləri ilə məşhurlaşdığı məlumdur.

Mənsub olduğu tayfa və yaşadığı zaman etibarı ilə Osmanlı daxili savaş və qarşıdurmaların iştirakçısı olduğunu düşünürük. Əldə olunan şeirlərinin çoxunun qəhrəmanlıq mövzusunda olması da buradan irəli gəlir.

Bu məqalədə türk aşığı Dadaloğlunun həyat və yaradıcılığı, yaşadığı dövr və dövrün siyasi olayları haqqında bilgi veriləcək və bu məsələlər tədqiqata cəlb olunacaqdır.

Açar sözlər: Türk, aşıq, Dadaloğlu, Əfşar, şeir, aşıq sənəti

Giriş

Bir neçə yüz il əvvəldən sazı ilə, sözü ilə nəsildən-nəsilə keçərək bu günümüzə qədər gələn aşıq ənənəsi, aşıq mədəniyyəti mövcuddur. Bu aşıq mədəniyyətinin daşıyıcılarının yaradıcılığında dövrün müharibələri, münaqişələri özünü geniş şəkildə göstərir. Pir Sultan Abdal, Qaracaoğlan, Dadaloğlu kimi aşıqlar öz dövrlərində ictimai-siyasi vəziyyətlə yaxından maraqlanmış, hətta bu siyasi çaxnaşmaların iştirakçısı da olmuşlar.

Ümumiyyətlə, hər dövrdə ölkədə baş vermiş siyasi hadisələr aşıq ədəbiyyatına da sirayət etmişdir. Türk dünyasının məşhur aşıqlarının yaradıcılıqlarını incələdikcə bunun daha çox şahidi oluruq.

XVIII-XIX əsrlərdə Osmanlı İmperiyasının ictimai-siyasi vəziyyəti

Anadolunun fəthindən sonra başlayan böyük köç Səlcuq Dövlətinin yaranmasına səbəb oldu. Bu dövlətin parçalanmasından sonra isə bu köçdə iştirak edən əhali bəyliklər şəklində birləşdilər. Osmanlı İmperiyası

zamanında da köç əhalisi "yunan bölgəsində dövlətin nüfuzunu qorumuş və dövlət idarəçiliyinin əsasını təşkil etmişlər" (Halaçoğlu, 2).

Osmanlı İmperiyasının əhatə etdiyi ərazilərdə yaşayan xalqların əsas hissəsini təşkil edənlərdən biri də köçəri türk tayfaları idi. Onlar yaşadıqları həyat tərzinə görə mövsümdən asılı olaraq yaylağa və qışlağa köçürdülər. Bu ərazilər bəzən bir-birlərindən çox uzaqda olur. Heyvandarlıqla məşğul olan tayfalar otlaq ərazilər tapmaq üçün çox əziyyət çəkirdilər. Bu əziyyətlər və narahatlıqlar, təbii ki, "heyvanların qidalamnası ilə yanaşı, özlərinin normal həyat şəraitinin axtarışı ilə bağlıdır" (Orhunlu, 12).

Böyük köç hadisəsi Osmanlı İmperiyasında XVI əsrdən başlayan, XVII-XVIII əsrlərdə isə daha geniş vüsət alan bir hərəkat idi. Bunun səbəblərindən biri iqtisadi böhran, verginin artması, müxtəlif daxili çaxnaşmalar, üsyanlar idi. Bu köçün digər səbəbi isə "müharibə zamanı, xüsusilə cəbhə bölgəsindən ölkənin daxilinə doğru olan insan axını (mühacirət) idi. (Halaçoğlu, 29-41).

Əslində, bu məskunlaşma siyasətinin məqsədi fəth edilən yerlərin türkləşməsi idi. Bu siyasət həm fəthlərin sağlam və uzunmüddətli olması, həm də fəth edilən yerlərin hərbi, siyasi və sosial təhlükəsizliyini qorumaq məqsədi ilə həyata keçirilirdi.

Dövlətin köçəri tayfaların məskunlaşması ilə bağlı apardığı siyasət, əslində, vergilərin artması, dövlətin idarə edilməsində yaranan mürəkkəb vəziyyətin aradan qaldırılması sayəsində görülən bir təşəbbüs idi.

XV əsrdə Ağqoyunlu dövlətinin yaradıcısı Qara Yülük türklərə "əsla oturaq həyata keçməyin, çünki bəylik və hakimiyyət yörüklük və türkmənlik həyatı yaşamaqla olur" sözlərini tez-tez söylədiyi məlumdur. Burada yörüklük və türkmənlik sözləri vasitəsilə köçəri həyat tərzi nəzərdə tutulmuşdur (Sümer, 21).

Bu köç, bu münaqişələr və çaxnaşmalar, təbii ki, digər türk tayfaları kimi, əfşarlardan da yan keçməmişdir. Əfşarlar XI əsrdən etibarən tarix səhnəsində silinməz izlər buraxan Oğuz boyudur. F.Rəşidəddin bu tayfanı "hökmdar çıxaran Oğuz boylarından biri" (Sümer, 260) olaraq qeyd edir. Türk adət-ənənəsini özündə qoruyub-saxlayan əfşar tayfası Osmanlı İmperiyasında uzun zaman "sərhədlərin qorunması missiyasını uğurla həyata keçirmişdir" (Kutsi, 23).

Dövlətdə baş verən ictimai-siyasi vəziyyət, təbii ki, ədəbiyyatdan da yan keçməyib. Bu dövrdə yaranmış istər yazılı, istərsə də şifahi ədəbiyyat bu və ya digər şəkildə bu hadisələrdən təsirlənmiş, zaman-zaman öz əsas mahiyyətini itirmişdir. Bu baxımdan şifahi xalq ədəbiyyatının aşıq yaradıcılığı qolu daha sərbəstdir. Onlarla aşıq, ozan adı sadalamaq olar ki, o,

dövrün ictimai-siyasi vəziyyətinə etiraz edib və rejimi tənqid atəşinə tutub. Bu gün tədqiqata cəlb etdiyimiz aşıq Dadaloğlu da belələrindəndir.

Dadaloğlu XVIII əsrin sonu-XIX əsrin əvvəllərində yaşamış türk aşıq sənətinin görkəmli nümayəndələrindən biridir. Çox gənc yaşda yaradıcılığa başlamış Dadaloğlu haqqında türk mənbələrində ətraflı məlumata rast gəlinmir, lakin onun əfşar tayfasından olduğu və qəhrəmanlıq şeirləri ilə məşhurlaşdığı məlumdur.

Mənsub olduğu tayfa və yaşadığı zaman etibarı ilə Osmanlıda daxili münaqişə və qarşıdurmaların iştirakçısı olduğu bilinir. Əldə olunan şeirlərinin çoxunun qəhrəmanlıq mövzusunda olması da buradan irəli gəlir.

Dadaloğlunun həyatı

Dadaloğlunun doğum və ölüm tarixi ilə bağlı mənbələrdə dəqiq məlumata rast gəlinməsə də, bəzi tədqiqatçılar onun təxminən 1785-1868 illər arasında yaşadığını bildirir. Qayserinin Tomarza əyalətində dünyaya gələn Dadaloğlu əslən əfşar tayfasındandır. Çoxşaxəli yaradıcılığa sahib olan Dadaloğlunun şeirlərində onun əfşar tayfasından olması açıq-aşkar görünür. Çox gənc yaşlarında yaradıcılığa başlayan Dadaloğlu haqqında türk mənbələrində ətraflı məlumata rast gəlinmir. Yalnız o məlumdur ki, Dadaloğlu igid, sərt, döyüşkən bir təbiətə sahib idi.

Osmanlı İmperiyasının köçəri türk tayfalarını oturaq həyata keçirmək siyasəti bir çox tayfalar arasında etiraza səbəb olmuşdur. Dadaloğlunun da şeirləri oturaq həyata keçmək istəməyən türk tayfalarının şifahi tarixi hesab oluna bilər.

Qalxdı köç eylədi əfşar elləri,
Ağır-ağır gedən ellər bizimdir.
Ərəb atı yaxın edər irağı,
Uca dağdan aşan yollar bizimdir.

Dadaloğlunun köçəri tayfalara məxsus olması onun Erzin, Payas, Adana, Kozan əyalətlərinin, Gavurdağlarının, Binboğanın, Aladağın, Qoçdağın, Bakırdağın, Axırdağın bir tərəfdən ilham qaynağı, digər tərəfdən məskəni olmuşdur. Mənbələr göstərir ki, Dadaloğlu, demək olar ki, bütün Orta Anadolunu səyahət etmişdir.

Onun əsil adı Vəlidir. Aşıq Musa adlı bir aşığın oğludur. Mənbələr onun Adana, Kozan, Erzin və Payasda yaşayan əfşarlardan olduğunu, əfşar bəylərindən Əlioğlu Dədə Bəy, Mistik Bəy və Kozanoğlu Əhməd bəyin yanında katiblik etdiyini bildirir. Əfşar tayfasının 1865-ci ildə

Osmanlı dövlətinə etiraz etməsi nəticəsində bu tayfa Sivasda məskunlaşmağa məcbur edildi. Rəvayətə görə, ömrünün sonlarında Dadaloğlu Çukurovaya gəlir, bir müddət orada yaşadıqdan sonra dağlara çəkilərək ölür. Həyatının bu mərhələləri onun şeirlərindən də açıq-aşkar görünür.

Dadaloğlunun yaradıcılığı

Dadaloğlunun yaşadığı dövrdə, qeyd etdiyimiz kimi, türkmən boyları öz varlıqlarını qorumaq üçün mücadilə verirdilər. Onların içində əfşar boyu da var idi. Əfşar boyunun apardığı mücadilə təbii olaraq Dadaloğlundan da yan keçmir. Baş vermiş hadisələr içərisində Dadaloğluna təşir edən ən mühüm məsələ Torosdakı türkmən boylarının vaxtaşırı gah öz aralarında, gah da birləşərək dövrün idarə sisteminə etiraz etmələridir.

O dövrün idarə sistemi bu problemi həll etmək üçün 1865-ci ildə Cövdət Paşa və Dərviş Paşa idarəçiliyində bir "Fıkra-i İslahiyye" cəmiyyəti qurur və münaqişə gedən bölgələrə göndərir. Onların vəzifəsi köçəri həyat sürən Türkmən boylarını oturaq həyata alışdırmaq, torpağa bağlamaq və bu yolla üsyan təhlükəsini aradan qaldırmaq idi. Bu siyasət təbii ki, əfşarlara da sirayət edirdi. Bununla da Dadaloğlunun igid, gur bir səslə, çoşqu ilə söylədiyi şeirlərdə yaşadığı çağın ictimai-tarixi hadisələrinə, xüsusilə də Osmanlı İmperiyasına qarşı mübarizə aparmaq həvəsi sönür. Bu, onun şeirlərində də müşahidə olunur.

Dadaloğlu yaradıcılığının ən gözəl xüsusiyyətlərindən biri onun şeir dilidir. XIX əsr xalq ozanlarının, aşıqlarının dilində, Osmanlı İmperiyası ilə bağlı bir qarışıqlıq müşahidə olunur. Dadaloğlunun dilində isə bu qarışıqlıq, ağırlıq nəzərə çarpmır. O, bütün həyatı boyu yaşadığı qarışıqlığın şeirlərinin dilinə sirayət etməsinə izn verməmiş, təmiz türkcədə gözəl şeir nümunələri yaratmışdır.

Dadaloğlu qəhrəmanlıq şeirləri ilə Koroğlunu, təbiəti vəsf edən şeirləri ilə də Qaracaoğlanı xatırladır. Təəssüf ki, Dadaloğlunun şeirlərinin çox az bir qismi bizə gəlib çatmışdır. Ancaq bununla belə, Dadaloğlu dövrünün kifayət qədər güclü ustadı olduğu əldə olan şeirlərindən bəllidir.

Dadaloğlunun yaşadığı dövrdə Osmanlının hər tərəfində aşıq birlikləri yaranmış, onların yaradıcılığının əsas hissəsini parçalanmaqda olan imperiyanın siyasəti və sosyal mövzuları təşkil etmişdir. Dadaloğlu həyatı boyu çəkdiyi əziyyətləri, apardığı mübarizəni şeirlərində belə dilə gətirir:

Əslimi sorarsan əfşar soyundan,
Ayrı düşdüm aşirətdən, bəyimdən,

Pınarbaşından da beş yüz evinən,
Çıxıb da cana qıyanlardanam.

Çəkərəm çiləni, belə olsun bu gün,
Alarammı sandın şol Kozan Dağın,
Biz bir qurd idik də, Bozoklu köyün,
Ürküdüb sürüsün yeyənlərdənəm.

Dadaloğlum der də böylə olmazdım,
Gördüyüm günlərin birin görməzdim,
Qovğa qızışınca geri durmazdım,
Meydanda qardaşa qıyanlardanım.

Dadaloğlunun, nümunədən göründüyü kimi, qəhrəmanlıq mövzusunda yazdığı şeirlər yüksək sənətkarlıqla yazılmışdır. Şeirin dili ahəngdar və səlistdir. Dadaloğlunun bütün yaradıcılığı çəkdiyi iztirabları dilə gətirmir. Onun yaradıcılığında təbiətin vəsfi, məhəbbət mövzusu da geniş yer tutur:

Can evimdən vurdu fələk, neyləyim,
Bən ağlarım, çelik tellər inliyər.
Bən almadım, torpaq aldı qoynuna,
Yarım deyən bülbül dillər inliyər.

Doya-doya mah cəmalin görmədim,
Saçlarını çözüb-çözüb hörmədim,
Bir gecəcik səfasını sürmədim,
Sarmadığım incə bellər inliyər.

Qara olur oxçuların yoncası,
Görülməmiş bu dünyada buncası,
Açılmadan qopub düşdü qonçası,
Bahar ağlar, açan güllər inliyər.

Gedər oldum əfşar eli yoluna,
Baxmam qayrı bu diyarın gülünə,
Qaraları taxsın çapar qoluna,
Yağız atlı neçə qullar inliyər.

Görəmədim baharını, yazını,
Çalamadım curasını, sazını.

Özgə, yarım, necə çəkim nazını?
Gözlərimdən axan sellər inliyər.

Varayım da, məzarına varayım,
Başucunda əl qavuşub durayım,
Bıkdınmıydı bəndən deyib sorayım,
Məzarına gedən yollar inliyər.

Yürü birə, Dadaloğlum, yürü get,
Dərdli-dərdli Çukurova yolun tut,
Bunda suçum varsa, Haqqa tövbə et,
De ki, qayrı bizim ellər inliyər.

Dadaloğlunun yaradıcılığını təbiət, eşq, qəhrəmanlıq şeirləri olaraq üç mərhələyə ayırmaq mümkündür. Sadə, səmimi bir xalq dili ilə qoşma, türkü, cəngi, varsağı və səmavi şeirlər söyləyən Dadaloğlu müasirləri arasında sıx-sıx rast gəlinən divan şeirinin təsirindən bütün yaradıcılığı boyu uzaq durmuşdur.

Dadaloğlunun mübarizə xarakterli şeirlərində köçəri Türkmən tayfalarının həyat tərzi müşahidə olunur. Köçəri tayfalara mənsub olan şairlərdə təbiətin təsviri daha güclü olur. Bu tayfalara mənsub aşıqların şeirləri, dilləri, dillərindəki məcazlar, gündəlik həyatda yaşanan hadisələrini dilə gətirməkdə başqa aşıqlardan fərqlənir. Köçəri tayfalara mənsub olan aşıqların şeirlərində təbiətin təsvirinə çox yer verilir.

Dadaloğlunun yaradıcılığına nəzər salanda onun iki hissədən ibarət olduğunu görürük: 1. Münaqişə zamanı yazdığı şeirlər; 2. Münaqişədən sonrakı şeirləri.

Onun münaqişə zamanı yazdığı şeirlərindəki döyüş ruhu münaqişədən sonra yazılmış şeirlərində artıq yerini lirizmə verdi. O, yaşadığı yaylağı belə vəsf edir:

Bizim yaylamız meşəli,
Dibində güllər döşəli.
Altı top-top mənəkşəli,
Kızlar gəlir yaylamıza.

Dadaloğlunun qürbət şeirləri də diqqəti çəkir. Türk ədəbiyyatında qürbət mövzusu hər zaman diqqət mərkəzində olub. Məsələn:

Bir yiğit gürbətə getsə,
Gör başına nələr gələr?!

Və ya:

Ayrılığı ölüm ilə tartarlar,
Əlli dirhəm fazla gəlir ayrılıq (Şəxsi arxiv).

Ölümdən çətin olan ayrılığı Dadaloğlu belə dilə gətirir:

Könüldən-könülə yol gedər derlər,
Onu sürməyə bir xoşca can gərək (Şəxsi arxiv).

Dadaloğlunun yaradıcılığı zəngin və çoxşaxəlidir. Amma təəssüf ki, onun şeirlərinin az bir qismi bizə gəlib çatmışdır.

Nəticə

Dadaloğlu yaradıcılğına nəzər salanda ilk başda ona qəhrəman ruhlu, döyüşkən, əzmkar şair deyə bilərik. Onu bəzən Koroğlu ilə qarşılaşdırırlar. O, köçəri tayfalar arasında ən güclü qəhrəmanlıq şeirləri yazan şairdi desək, yanılmarıq. Onun şeirləri insanları döyüşə, mübarizəyə səsləyir.

Yaradıcılığının ikinci mərhələsi isə Dadaloğlunun daha kövrək, daha həssas olduğunu göstərir. O, Osmanlı İmperiyasının köçəri tayfaları oturaq həyata keçirmə siyasəti ilə ömrünün sonuna qədər barışa bilmədi. Bu da onun yaradıcılığında daha kövrək, daha həzin bir səhifənin açılmasına səbəb oldu.

Dadaloğlu türk ədəbiyyat tarixində özünəməxsus bir iz buraxıb. Amma təəssüf ki, ədəbiyyatın məhz Dadaloğlu mərhələsi hələ də araşdırılmayıb. Dadaloğlunun bu qədər diqqətdən kənarda qalması, düşünürük ki, böyük bir ədəbi cərəyanın - köçəri türk ədəbiyyatının gözardı edilməsinə gətirib çıxarır.

QAYNAQLAR:

1. Halaçoğlu Yusuf. 18. yüzyılda Osmanlı İmparotorluğu'nun İskan Siyaseti ve Aşiretlerinin Yerleştirilmesi. Türk Tarih Kurumu Yayınları, Ankara, 1988
2. Kutsi Tahir. Dadaloğlu. Toker yayınları, İstanbul, 1975.
3. Orhunlu Cengiz. Osmanlı İmparatorluğun'da Aşiretlerin İskanı. Eren Yayıncılık, İstanbul, 1987
4. Özdemir Ahmet Z. Avşarlar ve Dadaloğlu. Ürün Yayınları, Ankara
5. Sümer Faruk. Eski Türkler'de Şehircilik. Türk Dünyası Araştırmaları Vakfı Yayını, İstanbul, 1984.
6. Sümer Faruk. Oğuzlar. Ana Yayınları, İstanbul, 1980.
7. Şəxsi arxiv. Söyləyən: Gazi Universiteti, folklor bölməsinin rəhbəri f.e.d. Fatma Ahsen Turan.
8. https://www.dadaloğlu+şiirleri&oq=dadloğlu&aqs=chrome.l.69i57j013.6808j0j8&sourceid=chrome&espv=210&es_sm=93&ie=UTF-8

Gumru Shehriyar

Turkic ashug Dadaloglu: his life and activity

Summary: Dadaloglu is one of the well-known Turkic ashugs who lived during the end of the 17th century-the beginning of the 19th century. Though he began his activity in his youth there is no enough information about Dadaloglu in Turkic sources. But it is known that he was from Afshar family and was famous for his poems.

According to the family and time he lived one can think that he was the paticipant of the Ottoman inner fights and confrontations. The got poems also prove their heroic subject.

In the article the information about the Turkic ashug Dadaloglu's life and activity, his living period and the political events of that period will be given and these problems will be investigated.

Key words: Turkic, ashug, Dadaloglu, Afshar, poem, ashug art

Гумру Шахрияр

Тюркский ащыг Дадалоглу: жизнь и творчество

Резюме: Дадалоглу один из выдающихся представителей тюркской деятельности ашыгов в конце XVIII начале XIX веков. Сведения об Дадалоглу, начавшего творчество в ранней молодости в турецких источниках не очень обширны. Известно его происхождение из рода Афшаров и то, что он прославился героическими поэмами.

Их род и время проживания дают повод для предположения о том, что он являлся участником Османских внутриеусобных войн и конфликтов. Большинство стихов написанных на тему героизма происходят отсюда.

В этой статье даются сведения о жизни и творчестве тюркского ашига Дадалоглу и исследуются вопросы, связанные с ним.

Ключевые слова: турецкий, ашыг, Дадалоглу, Афшар, поэзия, искусство, ашыги.

Savalan FƏRƏCOV

AŞIQ BƏSTİ: "HƏYANIM YOLLARDI, BİR DƏ Kİ, SAZIM"

XIX-XX əsr ozan-aşıq sənətimizin xeyli görkəmli qadın nümayəndələri olub. Taleyi nağıllara, dastanlara çevrilən, ömrünün ağ günləri barmaqla sayılan, nakam taleli sənətkarlarımızdan bi də Aşıq Bəstidir.

O, XIX əsrin 30-cu illərində Kəlbəcər rayonunun Löh kəndində yoxsul ailədə dünyaya göz açır. Erkən yaşlarından bir çox fərdi keyfiyyətləri ilə tay-tuşlarından fərqlənir. Ancaq dövrün məlum qadağaları elə ilk addımda bu gənc qızın yolunda maneəyə çevrilir. Atası Kərbəlayi Bayramalı ona təhsil almağı qadağan edir. Lakin o, savadsız qalsa da, ağıllı-dərrakəli bir gənc kimi, saz-söz sənətkarlarının məclislərində yaxından iştirak edir. El ədəbiyyatını dərindən mənimsəyir. Bədahətən şeirlər deyir. Saz çalmağı öyrənir. 17-18 yaşında ikən bir çobanı sevir. Ancaq ilk məhəbbəti faciəyə dönür. Sevdiyi oğlan gözləri qarşısında bir bəy tərəfindən vəhşicəsinə qətlə yetirilir. Bəsti qarşılaşdığı mənzərədən sarsılır. Ancaq əli heç bir yerə çatmır. Şeirlərində Xançoban adlandırdığı nakam sevgilisinin intiqamını onu qətlə yetirən bəyləri ifşa edən, lənətləyən şeirləri ilə alır:

A bəy, nə gəzirsən hallı-havalı,
Süleyman mülkünün yiyəsi kimi?
Nədəndir, yaxşının başın kəsməyə
Hazırsan xəncərin tiyəsi kimi?!

O, dərdini təkcə bayatılarında, qoşma və gəraylılarında deyil, həm də telli sazın havacatlarında dilə gətirib. Aşıq Bəstinin əlinə saz götürüb aşıqlıq etməsi o dövr üçün sanki ədəbi hadisə və inqilab olub. Doğrudan da, feodal-patriarxal adət-ənənələrin və dini qadağaların hökm sürdüyü bir cəmiyyətdə qadının aşıqlıq etməsi o zaman cəsarət tələb edib. Aşıq Bəstinin şeirləri onun azad cəmiyyət arzularının ifadəsi, Azərbaycan qadınının öz hüquqları uğrunda mübarizliyinin, mövcud qadağalara etirazının bədii təcəssümü idi.

O, mükəmməl təhsil və savad ala bilməsə də, fitri istedad sahibi olub. Məhz buna görə də fikrini kamil sənətkar və saz-söz xiridarı kimi ifadə edə bilib.

Aşıq Bəsti dövrün məşhur "Qurban bulağı" ədəbi məclisinin fəal üzvü kimi tanınıb. Məhz buna görə də Ağdabanlı Qurbanın diqqətini çəkib. O, qoşmalarının birində Aşıq Bəstinin el-obada tanınmasını dilə gətirib:

Bağça bülbülüsən güllər eşqinə,
Nəğməlisən – şirin dillər eşqinə.
Sənətkar olubsan ellər eşqinə,
Şöhrətin yayılıb hər yana, Bəsti.

Aşıq Bəsti, o dövrün bəy-xanlarının əmək adamlarına verdiyi əzab-əziyyəti kəskin tənqid etməkdən çəkinmir və mübarizəsini cəsarətlə davam etdirirdi. Təsadüfi deyil ki, ozan-aşıq sənətimizin korifeyi Aşıq Ələsgər Bəstini "nəğməkar bülbül" adlandırıb, onun sənətinə yüksək qiymət verib. Bəlkə də Aşıq Ələsgər və Ağdabanlı Qurbanın bu şairə xanıma olan hörmətləri onun düşmənlərini başqa fitnə-fəsadlara əl atmaqdan çəkindirib.

Zavallı aşıq-şairə el arasında həm də "Kor Bəsti" kimi də tanınıb. Bu, onun yaradıcılığında da öz əksini tapıb. Nakam məhəbbətini sözlə ifadə edə bilməyən Bəsti doğma kəndindən ayrılır. Göyçə ellərini və obalarını oymaq-oymaq gəzir, aşıqlıq edir. Qəlbini didib-parçalayan nakam məhəbbəti qəmli nəğmə kimi dillərə düşür. Sevgilisinin nakam taleyinə əbədi yas saxlayır. Ağlamaqdan gözlərinin nurunu itirir. Vaxtsız qocalır. Ancaq qəlbinin, duyğularının işığında uzun bir ömür yaşayır.

Aşıq Bəsti şeirlərini oxuyarkən inana bilmirsən ki, onun heç bir təhsili olmayıb. Ancaq ilhamının və fəhminin gücü ilə bu səviyyəyə yüksələ bilib:

Bəsti deyər, gözdə qaldı murazım,
Həyanım yollardı, bir də ki, sazım.
Hələ ki, ellərdən gəlir avazım,
Deyirlər, yaşayır, sağ, yavaş-yavaş.

Şairə hələ sağ ikən onun yaşadığı faciəli sevgi hekayətini əks etdirən "Bəsti və Xançoban" dastanı yaranır. Tez bir zamanda dastanın qəlb göynədən qoşmaları qəmli nəğmə kimi dillərə düşür:

Bu dağlarda neçə Leyli ağlamış,
Bəsti kimi dağı, daşı dağlamış.
Yaradan bizə nə nişanə saxlamış,
Nə taparam torpağından, Ərgünəş?

Onun yaradıcılığı ötən əsrin 50-60-cı illərindən ədəbi tədqiqatın obyektinə çevrilir. Aşığın ədəbi irsinin ilk araşdırıcılarından biri filologiya elmləri doktoru, folklorşünas alim Sədnik Paşa Pirsultanlı olub. 1964-cü ildə akademik Həmid Araslının nəşr etdirdiyi "Azərbaycan aşıq yaradıcılığı"nda, yazıçı Əzizə Cəfərzadənin "Azərbaycanın aşıq və şair qadınları" kitabında, "Kəlbəcər dünyası: yüz şairin bir kitabı"nda (tərtib edənlər A.Cəmil, M.Nərimanoğlu) və filologiya elmləri üzrə fəlsəfə doktoru İlham Məmmədlinin "XX əsr Kəlbəcər ədəbi mühiti" monoqrafiyasında bu barədə geniş məlumatlar verilib. Bütün bunlara baxmayaraq, Aşıq Bəsti yaradıcılığı hələ tam tədqiq olunmayıb. Əldə edilən ədəbi nümunələr isə xalqın yaddaşında, hafizəsində qalanlardır.

Aşıq Bəsti Kəlbəcərdən gedəndən sonra Göyçə mahalının Basarkeçər rayonunda məskunlaşır. Bir müddət orada yaşayır. Yaşlaşdıqca qəlbi doğma yerlər üçün darıxır. Məhz o, buna görə də yenidən Kəlbəcərə dönür. Daşkəsən, Gədəbəy və Samux rayonlarına səfərlər edir. El məclislərinə, şənliklərinə dəvət olunur. Dastan danışır, məclislər yola verir...

Ömrünün ixtiyar çağlarında bir daha ata yurdunda bardaş qurub oturur. 1936-cı ildə, təxminən 100 yaşında dünyasını dəyişir.

* * *

Redaksiyadan: ***Aşıq Bəstinin professor Sədnik Paşa Pirsultanlının toplayıb tərtib etdiyi "Lalə" şeirlər (2013) kitabındn bir neçə şeiri oxucularımıza təqdim edirik..***

Aşıq BƏSTİ

Gəldi

Göz dikmişdim ağ buluda,
Yağa-yağa qara gəldi.
Səhər burdan qalxan duman
Qayıtdı, dağlara gəldi.

Ey xudaya, nə gərdişdi,
Uzaqlara şimşək düşdü.
Can üşüdü, tük ürpəşdi,
Könül ahu-zara gəldi.

Ağçınqıldan endi sürü,
Boş qaldı dağların səri,
Bəsti deyir: bir bax bəri,
Xançobanım hara gəldi?

Düşdü

Başım üstdən bulud keçdi,
Göz yaşı çəmənə düşdü.
Xəbər aldı Xançobanı,
Şivən qurmaq mənə düşdü.

Acı deyib çox ağladım,
Göydə buludu saxladım,
Daş-torpağı qucaqladım,
Ah-naləm vətənə düşdü.

Bəsti neylər daha Löyü,
Bay olmasın bəylər bəyi.
Ünüm tutdu yeri-göyü,
Dağ, dumana, çənə düşdü.

Daşa dəydi

Məhəbbətim daşa dəydi,
Könlümün çırağı söndü.
Kəşt edirdi ərş-ələda,
Tərlan quşum yerə endi.

Mənim işim ahu-zardı,
Can verən yaralı yardı.
A dağlar, cəlalım vardı,
Bu dünyam tərsinə döndü.

Məni şahmar ilan çaldı,
Dərdsiz canım dərdə saldı.
Desələr Bəsti necoldu,
Deyin atəşlərə yandı.

Lalə

Yarın qanlı köynəyitək
Qızarır yol üstə lalə!
Xançobanı gətir dilə,
Bir şirin can istə, lalə!

Dərdim dönüb hekayətə,
Canmı dözər bu zillətə?
Yar məzarın ziyarətə
Gəlib dəstə-dəstə lalə!

Hara getsəm gələrəm mən,
Ahu kimi mələrəm mən,
Bəsti deyər, ölərəm mən,
Bu dağlardan getsə lalə.

Düşsün

Müxənnətə can deyənin
Dili düşsün, dili düşsün.
Vədəsiz göy zəmisinə
Dolu düşsün, dolu düşsün.

Dil dedim, ağladı cahan,
Bir sirrim qalmadı pünhan,
Yurdu olsun yerlə-yeksan,
Üstdən elin yolu düşsün.

Düşmənlə kim peyman bağlar?
Sinəmdən getməyib dağlar.
Bu Bəstini qoyub ağlar –
Zalım bəyin qolu düşsün!

Oldum

Gecə-gündüz ağlamaqdan
Qəm evində dustaq oldum.
Bu dünyanın dərdi-qəmin
Yarı böldüm, ortaq oldum.

Bağ saldım, barın dərmədim,
Dolandım, bağa girmədim.
Ləl idim, sərraf görmədim,
Can çürüdü, torpaq oldum.

Bəsti, dünya olmayaydı,
Səni dərdə salmayaydı,
Bina tutub qalmayaydı,
Xoş günümdən iraq oldum.

Ağladaram

Qara bağrım şan-şan olub,
Fərz elə ki, arı şanı.
Ağlamaqdan bu Bəstinin
Qalmayıbdı yarı canı.

Ağlamaq da bir peşədi,
Bir gün deyil, həmişədi.
Çal-çarpazdı, dördguşədi,
Sinəmdə dağları tanı.

Leysan kimi yaş tökərəm,
Könül sarayın sökərəm,
Canı-dildən ah çəkərəm,
Ağladaram, bu dünyanı.

Oyan, dağlar

Bəstinin ah-naləsindən
Oyan, dağlar, oyan, dağlar.
Qan damır dağ laləsindən,
Sən də qana boyan, dağlar.

Kəkliklərin qaqqıldaşdı,
Ayağı qan eylər daşı,
Sel-sel oldu gözüm yaşı,
Hünərin var, dayan, dağlar.

Bəylər bizi gətdi cana,
İgidləri saldı qana,
Ayrım eli zülmətxana,
Bəs necədir o yan, dağlar?

Sənin

Dağlar, səndən xəbər alım,
Hanı o büsatın sənin?
Söylə, hanı etibasız,
Əziz mehmanatın sənin?

Simavar niyə qaynamır,
Ulduz stəkan oynamır.
Çoban qonağı taylamır,
Çıxıb qiyamətin sənin.

Bəsti bir gülmədi haşa,
Sinəndə gəzmədi qoşa.
Nəsib olmadın sirdaşa,
Hanı etiqadın sənin?

Ayrı

Əlbət, yarım yada düşüb,
Ölürəm dağlardan ayrı.
Bu el mənim, o el sənin,
Ölürəm dağlardan ayrı.

Məzarına gül bağlayan,
Dumanı-çəni ağlayan,
Xançobana yas saxlayan,
Ölürəm dağlardan ayrı.

Ağçınqıldı mənim dağım,
Bəsti, hanı öz oylağım?!
Dil deyir, getmir ayağım,
Ölürəm dağlardan ayrı.

FOLKLOR ARAŞDIRICILARIMIZ

Sahibə SƏDNİK QIZI
AMEA Folklor İnstitutunun böyük elmi işçisi

SAZ-SÖZ ÜSTÜNDƏ KÖKLƏNƏN ALİM

Folklor söz yaradıcılığının əsasını təşkil edir və sözün tarixi qədər qədimdir. Folklor nümunələrini araşdırmaq, axtarıb tapmaq, öyrənmək və təbliğ etmək çox çətin və məsuliyyətli bir məsələdir. Xalq ədəbiyyatı məhsulunun dəyərli toplular kimi nəşr etdirilib üzə çıxarılmasında isə bir sıra tədqiqatçılar, toplayıcılar mühüm rol oynamışlar. Bunlardan biri də folklorşünas alim Elxan Məmmədlidir.

Elxan Məmmədli tanınmış tədqiqatçı, istedadlı pedaqoq Hüseynqulu Məmmədlinin ailəsində dünyaya göz açıb. O, istedadı, xalq yaradıcılığına məhəbbəti bir vergi kimi atası Hüseynqulu müəllimdən almışdır.

Tədqiqatçı qədim Borçalı elinin Faxralı kəndində doğulsa da, Bakıda orta məktəbi bitirmiş, ali təhsil almışdır. O, 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. Universitetdə təhsil alarkən musiqi təmayüllü internat məktəbində tərbiyəçi müəllim, 1976-cı ildən Elmi Tədqiqat Pedaqogika İnstitutunda "Estetik tərbiyə" şöbəsində elmi işçi kimi fəaliyyət göstərmişdir. 1979-1994-cü illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsində çalışmışdır. 1994-cü ildə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində yaradılmış Folklor Elmi-Mədəni Mərkəzində işini davam etdirən Elxan müəllim hazırda da bu Mərkəzdə çalışır. Həmin Mərkəz 2003-cü ildən AMEA Folklor İnstitutuna çevrilmişdir. Tədqiqatçı-alim 2008-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq

görülmüşdür. O, Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Elxan müəllim elm aləmində öz sözünü demiş alimdir. O, 1988-ci ildə "Aşıq poeziyasında təcnis" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Yazıb başa çatdırdığı "Aşıq şeirinin poetikası" adlı kitabı uzun illərdən bəri əmək sərf etdiyi mükəmməl nəzəri əsər kimi çox qiymətlidir. 1998-ci ildə nəşr etdirdiyi "Təcnis sənətkarlığı" adlı monoqrafiyası da xalq yaradıcılığı ilə maraqlanan insanların ixtiyarına verilmişdir. Aşıq Kamandar Əfəndiyevin "Bənövşə" adlı şeirlər toplusunun uğurlu nəşri də Elxan Məmmədlinin adı ilə bağlıdır. 30-dan çox kitabın redaktoru, toplayıcısı və rəyçisi olmuşdur. Uzun illər Azərbaycan dastanlarının tarixinə, el aşıqlarının yaradıcılığına dair tədqiqlər aparmış folklorşünas alim bu monoqrafiyaları ilə bir çox mühüm və hələ də gizli qalan mətləblərə toxunmuşdur.

Elxan Məmmədlinin yaradıcılığında dastanlarımız da xüsusi yer tutur. Məhz onun təşəbbüsü ilə bir neçə xalq dastanımız bərpa edilmişdir. O, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsi tərəfindən "Azərbaycan bayatıları" (Bakı, Elm, 1984) kitabının hazırlanmasında yaxından iştirak etmiş, həmin tərtibə özü topladığı 1000-ə qədər bayatını əlavə etmişdir. O, dövrü mətbuatda indiyəcən dərc edilən onlarca müxtəlif məqalələrin müəllifidir. Onun "Aşıq Kamandar", "Borçalı şair Nəbi", "Azərbaycan poeziyasında cinaslar", Aşıq Alının anadan olmasının 180 illiyi (1981-ci il) ilə bağlı yazdığı silsilə məqalələri, "Borçalı folkloru örnəkləri", "Azərbaycan bayatıları", "Cinaslar", "Azərbaycan ədəbiyyatı inciləri" kitabları və onlarca portret-oçerkləri bu gün də öz elmi və təcrübi əhəmiyyətini itirməmişdir.

Elxan müəllim elmi yaradıcılığında Borçalı aşıq məktəbinə, bu məktəbin ən tanınmış nümayəndələri olan Aşıq Hüseyn Saraçlı, Aşıq Kamandar, Aşıq Əmrah Gülməmmədov, Aşıq Alxan Qarayazılı, Aslan Kosalı, Əhməd Sadaxlı, Aşıq Nurəddin kimi saz-söz ustalarına geniş yer versə də, onun fəaliyyəti yalnız Borçalı aşıqları ilə məhdudlaşmır. Tədqiqatçı Azərbaycanın qədim elləri olan Kəlbəcərin, Gəncənin, Qarabağın, Qazaxın, Tovuzun, Gədəbəyin, Təbrizin aşıqları haqqında söhbət açır. Bu sənət ocaqlarının özünəməxsusluğunu, fərqli, eyni və oxşar cəhətlərini alim fəhmi ilə təhlil edir.

Xalq yaradıcılığına məhəbbəti Elxan Məmmədlini "Bulaq" verilişinə gətirib çıxarmış və onun müəlliflərindən birinə çevirmişdir (1969-1979-cu illər). O, təxminən 10 il bu verilişin müəlliflərindən biri olmuşdur. Mövlud Süleymanlı, İntiqam Qasımzadə kimi istedadlı qələm sahibləri ilə çiyin-çiyinə addımlayan tədqiqatçı folklorumuz, adət-ənənələrimiz,

məişətimiz haqqında nümunələri damla-damla toplayaraq "Bulaq" verilişinə təqdim etmişdir. Elxan Məmmədlinin aşıq sənətinin efir vasitəsilə xalqa ardıcıl və yüksək səviyyədə çatdırılmasında misilsiz xidmətləri vardır.

Onun uzun illər Azərbaycan Radiosunda hazırladığı "Sarıtel" və "Gözəlləmə" musiqili verilişlərinin müəllifi və aparıcısı olmaqla yanaşı, Azərbaycan Televiziyasında apardığı "Ustadnamə", "Sazın-sözün sehri" kimi maraqlı proqramları 1992-ci ildən 2009-cu ilə qədər saz-söz aşiqlərinə, böyük dinləyici və tamaşaçı kütləsinə unudulmayacaq estetik zövq və bilgi vermişdir.

Elxan müəllimi yaxından tanıyanlar onu həzin şeirlər müəllifi, duyğulu bir şair kimi də sevirlər. O, yeniyetməlik illərindən şeirlər yazmağa başlasa da, onları çap etdirməyə tələsməmiş, bəlkə də maraq göstərməmişdir. Böyük qəlb çırpıntısı ilə yazdığı lirik parçaların müəyyən hissəsi toplanaraq kitab halında 2006-ci ildə işıq üzü görmüşdür. Bu poetik nümunələrdə də sazın, sözün rayihəsi duyulmaqdadır.

Elxan müəllim bu gün də elmi-bədii yaradıcılığını eyni həvəslə davam etdirməkdədir. Onun elmdə və sənətdə qazandığı uğurlar bir-birini tam şəkildə tamamlayır. O, həm də bir müəllim kimi gənc tədqiqatçıların, sanki əllərindən tutur, pillə-pillə yüksəlmələrinə köməklik edir.

İradə SARIYEVA

"QARABAĞ DASTANI"NDA QARABAĞIN BAŞINA GƏLƏN BƏLALALARI YAZAN AŞIQ İMRAN HƏSƏNOV...

"...Daşnak ermənilərin Qarabağa iddiası, torpaqlarımıza təcavüz etməsi aşıq İmranı əməlli-başlı sarsıtmışdı"

Bütün yolların son ucunda, axırında ayrılıq var... Qəribədir ki, insanlar təbiətin sərt soyuğuna, ayazına öyrəşib onunla barışa bilmir, yorulmadan ona qarşı mübarizə aparır, ancaq ayrılığa əbədi öyrəşirlər, sanki belə də olmalıymış kimi, hicrana dözürlər.

Biz türklərin ulu babası, ozanlar sərvəri Dədə Qorqudun sözü ilə desək, gəlimli gedimli, son ucu ölümlü dünyada hələ heç kəs ölümdən, əbədi hicran atəşinə yaxılmaqdan can qurtara bilməyib... Lakin yer üzünün bütün haqq aşiqləri, bütün dili sözlü, döşü sazlı, bülbül avazlı aşıqları, ozanları, Yaradanın seçdiyi insanlar ölümlə qeyri-bərabər mübarizədən qalib çıxıblar... Ölümlərilə ölümsüzlük zirvəsinə ucalan bu insanlar Tanrının lütfi sayəsində mənəvi əbədilik qazanıblar.

O haqq aşiqlərindən, həqiqət carçılarından biri də iyirminci yüzilliyin qüdrətli aşıqlarından olan aşıq İmran Həsənovdur. Aşıq İmran Həsənovun adı aşıq sənəti tarixinə əbədi həkk olunub... Əslində, aşıq İmran Həsənov kimi ustad sənətkarlar tarixdə yaşamasaydılar aşıq sənəti kasıb və miskin görünərdi. Çünki aşıqlar sultanı İmran Həsənov misallı sənətkar-

ların mövcudluğu aşıq sənətinə çox böyük dividetnlər gətirib, onlar bir növ sənətin üzağlığına çeviriliblər. Bu gün çağdaş aşıq sənətinin bir qədər zəif düşməsi İmran Həsənovların işıqlı dünyada olmaması ilə bağlıdır. Bu sənətkarın fiziki yoxluğu sənətin axsamasına səbəb olub...

Ancaq bununla belə, Azərbaycan aşıq sənətinin daşıyıcısı olan aşıqlar ustad aşıqların yol-izini tutub irəli getməyə çalışır.

Aşıqlıq sənətinin keşikçisi...

Aşıq sənəti, aşıqlıq, ozanlıq böyük məsuliyyətdir, bu ağırlığı, bu şərəfli yükü dərk edənlər hər zaman xalqın yaddaşında qalıblar...

Aşıq İmran Həsənov bu yerdə görək nə deyib:

Qoy izin getməsin Vətən mülkündən,
Sözlərin düşməsin xalqın dilindən,
Aşıq İmran, ilham alıb elindən,
Sənət meydanında şərafətli ol...

Əlinə saz götürüb bu sənətə ömür-gün vermək istəyən gənclər bu deyimi qulağına sırğa etməlidirlər. Çünki aşıq ağzını açanda həqiqətdən, təriqətdən, dünyanın gizlin sirlərindən xəbər verməlidir. Yoxsa aşıq da hamı kimi danışdısa, hamı kimi oldusa, dinləyicini, tamaşaçını heyrətləndirmədisə, ondan aşıq olmaz... Aşıq dinləyicinin qəlbinə, ruhuna hakim kəsilməli, nüfuz etməlidir. Aşıq İmran Həsənov tamaşaçının, dinləyicinin qəlbinə nüfuz etməyi bacaran qüdrət sahibi idi... Ustad ozanın məclislərini izləyən ağsaqqallar deyirlər ki, aşıq İmranın qeyri-adi, heyrətamiz dərəcədə məclis idarə etmək bacarığı, istedadı olub. O, istənilən səs-küylü məclisi öz danışığına, öz ifasına ram edə bilib... Təbii, hər aşığa nəsib olmayan keyfiyyətdir bu... Aşıq İmran Həsənov sağlığında heç vədə imkan verməyib ki, kim isə aşıq sənətinə hörmətsizlik gətirsin. O, ulu ozanların gözünün işığı, ürəyinin təpəri, eşqi olan aşıq sənətinin hər zaman vicdanla, şərəflə keşiyində durub...

1999-cu ildə sevimli həyat yoldaşının vəfatına tab gətirə bilməyən ustad bu fani dünyaya "əlvida" deyib... Aşıq İmran Həsənovun fiziki ömrünün başa çatması sözsüz ki, onun mənəvi ömrünün başlanması deməkdir. Ancaq aşıq İmran kimi adıbəlli, ustad görmüş, özü onlarla aşıq yetişdirən bir aşığın dünyadan köçü aşıq sənəti meydanında uzun və dərin bir boşluq yaratdı... Ürək üzən, könül dağlayan bu boşluq sənətə böyük zərbə vurdu.

Aşığın halını sazından soruş

Ustad ozanlar aşıq Məhərrəm Hacıyev, aşıq Hüseyn Quliyev kimi sənətkarların sənət bulağından içən İmran Həsənov gəncliyinin əzəmətli sənətkarları olan aşıq Mirzə Bayramov və aşıq Əsəd Rzayevdən də bəhrələnib. Aşıq sənəti qayim-qədim, dünaynın özü kimi ağır, ləngərli, dağları yerindən oynadan bir sənətdir. İmran Həsənov da o sənətin dağ vüqarlı, qartal əzəmətli sənətkarıdır... Qeyri-adi səsə, ifaçılıq manerasına malik aşıq İmranın səsi perspektivli, daim formada olan, qaynayan bir səs olub, o səs heç vaxt gücdən düşməyib, çağlayan çeşmə kimi susmayıb.

Əslində, aşıq İmran Həsənovun səsinə heyran olmamaq, ifasının ardınca getməmək, onu dinləmək üçün həsrət çəkməmək mümkün deyil. O səs bu gün də çox doğma səs kimi insanların, aşıqsevərlərin qəlbində, yaddaşlarında yaşayır...

Bütün varlığı ilə saza hopan İmran şəxsiyyəti sazı bir qədər də yüksəyə qaldırıb. Ümumiyyətlə, aşıqlıq sənətində hansı aşığın şəxsiyyəti ucadırsa, bu, istər-istəməz özünü onun sənətində ehtiva edir. Şəxsiyyətin sənətə təsiri hər zaman olub, var da.

Sənət Koroğlusu aşıq İmran...

At ayağı yeyin, aşıq dili yüyrək olar... Aşıqlıq sənətində günü-gündən şöhrətlənən aşıq İmran tezliklə Azərbaycana səs saldı, radioda, konsert salonlarında aşıq İmranın səsi gəlməyə başladı... Yeni uğurlar və yeni müsabiqələr, yeni qələbələr İmranın yolunu gözləyirdi. İmran Həsənov 1956-cı ildə Azərbaycanda keçirilən xalq yaradıcılığı festivalında yüksək səviyyəli çıxışlarına görə rəhbərlik etdiyi Tovuz aşıqlar ansamblı ilə birlikdə qızıl medala və birinci dərəcəli diploma layiq görülüb. Bu səsin əks-sədası Moskvada da duyulmağa başlayıb. Azərbaycanda özünə böyük tamaşaçı auditoriyası qazanan aşıq İmran Moskvada keçirilən festivallarda uğurla iştirak edib. 1957-ci ildə Moskvada keçirilən tələbə və gənclərin 6-cı Ümumdünya Festivalının birinci dərəcəli qızıl medalına və laureat adına layiq görülüb, 1959-cu ildə isə Azərbaycan ədəbiyyatında və mədəniyyətindəki xidmətlərinə görə "Şərəf nişanı" ordeni ilə təltif edilib. 1963-cü ildə isə ustad sənətkar "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb, Azərbaycan aşıqlarının III və IV qurultaylarının iştirakçısı olub.

Aşıq İmran Həsənov aşıq sənətinin Koroğlusu, daha doğrusu, "Koroğlu aşığı" kimi şan-şöhrət tapıb. Onun ifasında Koroğlu hava-

ları özünün daha yüksək ifaçılıq zirvəsinə ucalıb. O, sənətdə olduğu kimi, həyatada da Koroğlu ərdəmli, Koroğlu hünərli kişi olub.

Aşıq İmran Həsənov haqqında məqalələr müəllifi, ustadın "Sənətimin sultanıyam" kitabına ön söz yazan aşıq Məhərrəm Hüseynli ustada həsr etdiyi şeirdə deyir:

Dərya təlatümlü, salsal ləngərli,
Ozanlar gövhəri-kanı İmrandır.
Koroğlu nərəli, Davud bənzərli
Sənətin şahənşah xanı İmrandır.

Aşıq İmran Göyçə mahalında doğulub. Bu yurdun qədim ozanlar diyarı, saz-söz sənət ümmanı olduğu bəllidir... İmranın pərvazlandığı ata ocağında da hər zaman saz dinib. Atası Mehralı kişi də saz çalıb. Əmisi aşıq Dünyamalı və atası Mehralı kişi İmrana saz tutmağı öyrədib. Sonra taleyi sənətkarı Tovuza gətirib, o, ustad aşıq kimi sənətə buradan başlayıb...

Professor Bülbül onu Operaya gətirmək istəyib...

Aşığın oğlanları Cümşüd Həsənov və Firdovsi İmranoğlu bizimlə söhbətdə dedilər ki, 1957-ci ildə Moskvada keçirilən tələbə və gənclərin 6-cı Ümumdünya Festivalında iştirak edən gənc İmranın istedadı, qaltanlı, gur, oynağan, tükənməz səs imkanları professor Bülbülün diqqətindən yayınmır... Qızıldan qiymətli səslər xiridarı olan Bülbül gənc aşıq İmranın səsinə valeh olur və elə o festivaldaca aşıq İmrana təklif edir ki, gəlib Opera və Balet Teatrında (Azərbaycan Respublikası Akademik Opera və Balet Teatrı) işləsin...

Firdovsi müəllim deyir ki, Bülbülün məqsədi aşıq İmranı teatra gətirmək və ona burada Üzeyir Hacıbəyovun "Koroğlu" operasında Koroğlu rolunu həvalə etmək olub: "Bülbül çox istəyirmiş ki, atamı Opera Teatrına gətirsin... Atamın səs imkanları, aktyorluq bacarığı, səhnə mədəniyyəti Bülbülün diqqətini cəlb edib. Bülbül ona deyib ki, aşıq İmran, səndən yaxşı Koroğlu çıxar, gəlin sizi Opera Teatrında işə götürək, burada Koroğlunu oynayın. Atam isə, bu təklifi qəbul etməyib, deyib ki, mənim Tovuzda yaşlı valideynlərim, ailəm, uşağım var, gələ bilmərəm. Bülbül ona Operaya gəlib işləməsi üçün evlə, yüksək şəraitlə təmin olunacağını vəd edib, lakin atam gəlməyib".

Cümşüd müəllimin bildirdiyinə görə isə, aşıq İmran Həsənovun səsi sırf vokal səs olub və o, bu səsi opera sahəsində ifadə edə bilsəydi, dün-

ya şöhrətli opera müğənnisi ola bilərdi: "Bülbülün atamın sənətinə, səsinə yüksək qiymət verməsi təsadüfi deyildi. Doğurudan da o, güclü səsə malik idi. Aşıq İmran Həsənovun səsi üç oktava idi. Bariton səsli İmran Həsənovun bu səs imkanı ona daha böyük səhnələr vəd edirdi. Ancaq atam aşıqlığı, el-oba arasında olmağı, toylarda-məclislərdə dövran sürməyi üstün tutub və Operaya getməyib. Atam Opera Teatrına getsəydi və burada obrazlar yaratsaydı bəlkə də indi dünya şöhrətli bir bariton idi. Amma o, bundan imtina etdi. O, bununla heç nə itirmədi... O, onsuz da öz sənətinin Koroğlusudur. Xalqımız onu aşıq sənətinin əzəmətli Koroğlusu kimi qəbul edib. Bu, böyük xoşbəxtlikdir".

İmran sazının Avropanı fəth etdiyi tarix...

Aşıq İmran sazının səsi nəinki keçmiş İttifaq Respublikalarında, hətta Avropanın mərkəzində, uzaq Almaniyada da eşidilib. Aşıq İmran sənətinin qüdrəti, aşığın ustadlığı, sənətinin böyüklüyü, şəxsiyyətinin bütövlüyü onun qarşısına hər zaman işıqlı yollar, aydın səhərlər açıb. Deyək ki, Sovet dövründə aşıq İmran Həsənov yeganə aşıq olub ki, o, Avropaya səfər edib. İmran sazının əzəməti 1972-ci ildə Almaniya Demokratik Respublikasında özünü göstərib. Ustad aşıq Almaniyanın Drezden, Berlin və Leypsik şəhərlərində xalqımızı, sazımızı yüksək səviyyədə təmsil edib. Drezden bizim üçün təbii, əzizdir. Bəlkə də ustada məlum imiş ki, aşıq sənətinin ulu daşıyıcısı, dünyanın ən ünlü ozanı Dədə Qorquddan, oğuz ellərindən, qədim türk mədəniyyətindən bəhs edən "Kitabi Dədə Qorqud" kitabəsinin əlyazmasının bir nüsxəsi Drezdendə saxlanılır...

Aşıq İmran sənət meydanında çox dövran sürüb, hər zaman bəxt atı yüyrək olub, səhnələrdə sözü ötkəm, təsirli görünüb...

Qarabağa qara dastan yazdı getdi...

1999-cu il dekabrın 15-də dünyadan köç edən aşıq İmran Həsənovun ailəsinə, xalqına, elinə, dövlətinə, dövlətçiliyə bağlı bir el ağsaqqalı, ozanı, dədəsi olduğu bəllidir. Bunu əli saz, dili söz tutan hər bir insan bilir, dilə gətirir...

Aşıq İmranın vətəndaşlığı, onun vətənpərvərliyi yaradıcılığında öz əksini tapır. Başdan qeyd etmişdik ki, aşıq əslən Göyçədəndir. 1988-ci ildə Qərbi Azərbaycandan (indiki Ermənisan) soydaşlarımızın erməni vandalları tərəfindən deportasiya edilməsi, ulu Göyçənin, onunla bərabər digər yurdlarımızın, ellərimizin dağılması, yurddaşlarımızın pərən-pərən düşməsi, üstəlik də daşnak ermənilərin Qarabağ torpağına iddialı olması,

torpaqlarımıza təcavüz etməsi aşıq İmranı əməlli-başlı sarsıtmışdı. O, bir el ağsaqqalı kimi, bu statusa malik şəxsiyyət kimi narahatlıq keçirir və bunu öz yaradıcılığında ifadə edirdi.

Aşıq İmran Həsənovun "Sənətimin sultanıyam" kitabında dərc olunan "Qarabağ dastanı" dediyimizə əyani misaldır.

Onu da deyək ki, aşıq İmran yaradıcı aşıqdır, bir neçə dastanın, saz havasının və yüzlərlə şeirin müəllifidir. Aşığın yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutur. Məhərrəm Hüseynli və Firdovsi İmranoğlunun (Həsənov) toplayıb tərtib etdikləri "Sənətimin sultanıyam" kitabında "Qarabağ dastanı" çap olunub.

"Aşıq xalqın görən gözü, danışan dilidir"

Dastanda qeyd olunur ki, aşıq İmran Həsənov da ağlı kəsəndən doğulub göz açdığı Qərbi Azərbaycanımızın Göyçə mahalında qəddar və qaniçən ermənilərin bütün müsibətlərinin şahidlərindən birinə çevirilib: "1988-ci ildə bir daha hücuma keçən və "Böyük Ermənistan" yaratmaq xülyası ilə Göyçə və Qarabağdan insanları tərki-vətən edən mənfur erməni düşmənlərimizin azərbaycanlılara qarşı elansız müharibəsi el aşığı İmran Həsənovu hamıdan çox sarsıdır. Buna dözə bilmir. Ermənilərin xəyanətkarlığını görcək belə deyir:

Sultan bəyin dərsi yaman dərs oldu,
Şapalağı avand oldu, tərs oldu...
Andranikin qulağına qəsd oldu,
Namərdliyin ad-sanıdır erməni.

Aşıq İmran uzun müddət Göyçə və Qarabağ toylarında çalıb-çağırmış aşıqlardan biri olub. Doğma Qarabağın hər bir elində, obasında ağır toylar etdiyindən hər kəs onu sevib hörmət bəsləyib. Xalqın bu günündə kim sussa da o, susmadı. Olduqca kəskin və tələbkar çıxışları ilə könüllü əsgərlərimizə – mərd oğullarımıza ruh verdi. Göyçə və Qarabağ onun yaralı yeri idi. Ata-babaların məzarını, ev-eşiyini, ulu və müqəddəs torpaqlarını əlindən alan qarı düşmənlərimiz onlara havadarlıq edənlərin səyi və köməkliyilə Xocalıda və bütün Qarabağda dəhşətli qırğınlar törədərək, torpaqlarımızın 20 faizini işğal edərək özlərini "qalib" saydılar... Soydaşlarının kütləvi köçü və qətlə yetirilməsi hamı kimi, ustadı da qəhərləndirir:

Dədə Qurbanidir dözümlü, tablı,
Əlçatmaz ozandı Valeh Gülablı,

Qalıbdır mərdanə sual cavablı,
Səcdəsinə hörmətimdir Qarabağ...

Koroğlu misallı aşıq İmran Həsənov döyüş illərində tez-tez cəbhə bölgələrinə gedir, sazını qələbə, zəfər havasına, "Cəngi"yə, "Misri"yə kökləyib, igidləri düşmən halayını pozmağa ruhlandırırdı. O, bir haqq aşığı kimi haqq-ədaləti əlində bayraq tutaraq xalqın ağrı-acısını, ermənilər tərəfindən pozulan haqqlarını öz sazı ilə aləmə car çəkirdi... Hətta "Qarabağ dastanı"nda belə bir məqam var ki, aşıq İmran Qubadlının işğalından bir ay avvəl cəbhədə əsgərlərimizin yanında olub, sazı-sözü ilə onlara ürək-dirək verib, mənəvi dayaq olub, həm də igidlərimizi qələbə havasına kökləyib. Burdan da açıq görürük ki, İmran Həsənov həm qüdrətli bir ozan, həm də bir el ağsaqqalı, çox ləyaqətli bir vətəndaş olub...

Təəssüf ki, hələ Vətən torpağının ərazi bütövlüyü bərpa edilməyib. Əfsuslar olsun ki, hələ erməni tapdağında Qarabağımız, Göyçəmiz, başqa dədə-baba yurdlarımız sancı çəkir, dərd-məlal içindədir... Hələ də işğal altında olan yurdlarımızın ah-naləsi dünyanın qulağına çatmır... Hələ də ustad aşığın – aşıq sənətinin sultanı İmran Həsənovun Qarabağ sarıdan ruhu nigarandır...

Sağlıq olsun, gün gələr, yurdlar yağı əsarətindən xilas olar, ellərimiz öz evinə qayıdar, ocağını yandırar. Onda aşıq İmranın ruhu şad olar və dağlara onun – Koroğlu aşığının şaqraq avazı, qartallara qanad saxladan sazının səsi yayılar...

Ümidliyik ki, bu gün gələcək, çünki qələbə sorağını ellikcə hamımız gözləyirik!!!

Zərəngiz DƏMİRÇİ QAYALI

AŞIQ MİRZƏ SƏMƏD

Aşıq Mirzə Səməd Həsənov 1874-cü ildə Qazax mahalının Daş Salahlı kəndində anadan olub. 8 yaşında ikən həmin kənddə yaşayan və bütün mahalda ad qazanmış Molla Əhməd Əfəndinin məktəbinə daxil olub.

Molla Əhməd Əfəndi Cumhuriyyət dövründə Türkiyədə təhsil almış gənclərdən olub. (Həmin dövrdə Daş Salahlıdan ondan başqa Şəfi Əfəndi və Vəli Əfəndi Nəbi oğlu da Türkiyədə təhsil alaraq "Əfəndi" adını qazanmışdılar. Sonralar hər üç Əfəndinin törəmələri içərisində dövrünün ziyalıları, elm adamları yetişmişdir).

Mirzə Səməd on beş yaşına qədər Molla Əhməd Əfəndinin yanında oxuyub. Lap uşaq yaşlarından şeir yazmağa başlayıb.

O, hələ məktəbdə oxuyarkən həmkəndlisi, kəndin bəyi olan dövlətli Qaya oğlu Mansurun qızı Cəvahir xanımı sevib. Cəvahir xanıma da, çox güman ki, Molla Əhməd Əfəndi dərs demişdi. Bəlkə də o, ev təhsili almışdı. Ancaq o məlumdur ki, Cəvahir mükəmməl yazıb-oxuya bilmişdi. Bunu Aşıq Mirzənin Cəvahirə yazdığı "Boylana-boylana" şeirində və digər şeirlərində "qızıl qələmli!", "əli zər qələmli" və yaxud "oxur" sözlərindən də görmək olar:

Altın sinəbənd döşündə,
Qızıl tanalar guşunda,
Adı üzüynün qaşında,
Taxır boylana-boylana.

Aynabəndli, cah-calallı,
Durna telli, ləbi ballı,
Zər kitab, qızıl qələmli,
Oxur boylana-boylana.

Burada "Adı üzüynün qaşında" misrası lap yəqinlik verir ki, bu, Cəvahirə yazılmışdır. Qiymətli üzüyün qaşı cəvahir olar. Lakin Cəvahirin adını açıq yazmaqdan ehtiyat edən aşiq "adı üzüynün qaşında", – deyə nişan verir. Aşıq "Yavaş get" gəraylısını da Cəvahirə həsr edib:

Mirzə gördü, şeirin yazdı,
Ətrafın ördəkdi, qazdı,
Ay qabaqlı, şəhla gözlü,
Adın dildə car, yavaş get.

Bu şeirdə də gözəlin adı çəkilmir. Amma aşığın dilində car olan bir ad var idi, o da gözəllərdən "ən əla"sı olan Cəvahir idi. Bu şeirin Füzulinin "Məni candan usandırdı, Cəfadən yar usanmazmı?" mətləli qəzəlinin birinci beytinə nəzirə kimi yazılması özü də sevgilisinin dərdindən Məcnun olan aşığın dərdinə bir işarədir.

Aşığın yazdığı "Gözlərin" qoşmasının da Cəvahirə həsr edildiyini zənn etmək olar. Orada belə bənd var:

Əyri daraq tel üstündə,
Tirmə şallar qol üstündə,
Qızıl qələm əl üstündə,
Baxır İrana gözlərin.

Aşığın yaşadığı kəndin köhnə kişiləri yaxşı bilirlər ki, Cəvahirin atası Mansur bəyin İran əsilzadələri ilə dostluğu olmuşdur. Təsadüfi deyil ki, İran şəhzadəsi Teti xanımı Mansur bəy böyük oğlu Ələs bəyə nişanlamış və gəlin gətirmişdir (rəvayət edirlər ki, Teti xanımın atası ona qiymətli əntiq əşyalarla dolu 40 at və qatır yükü cehiz vermişdi).

Şeirdə M.Səməd yenə də Cəvahirin əlindəki "qızıl qələm" sözünü işlətmişdir. Qızıl düyməsi, qızıl sinəbəndi, qızıl baş bəzəyi olan əsilzadənin, yəqin ki, qələminin də qızıldn olması təbii idi. "Aşıq gördüyün çağırar!" – deyib atalar.

Mirzə Səməd Cəvahirə yazdığı şeirlərində lirik qəhrəmanı olaraq qızın öz adını yox, ona "Sarıtel" deyə müraciət etmiş və onu bu adla öymüşdür. Çünki qızın saçları sarı, qızılı rəngə çalırmış. Qəlbi sevda ilə dolu olan Aşıq Səməd şeirlərin ələ keçməsindən, sirlərinin aşkar olmasından ehtiyat edərmiş. Mirzə Səməd Cəvahirə həsr etdiyi "Sarıtel" qoşmasında özünü həqiqi Məcnuna, sevgilisini isə Leyliyə bənzədib:

Məcnunam, gözlərəm Leyli yolunu,
Səhər çıxar buralara Sarıtel.
Təbibimsən, yaralarım qövr elər,
Əl gəzdirsən yaralara, Sarıtel.

Tanıyanlar bilirlər ki, Mansur bəyin evində hələ o dövrdə alman markalı

"Zinger" tikiş maşını olmuşdu, Cəvahirdən sonra onu qardaşı Yoluq bəy işlədirmiş. Həm də gözəl əl qabiliyyəti olan Yoluq bəyin gözəl xalça çeşniləri (eskizləri) Qazax mahalında ad qazanmışdır. Hətta Göyçədən, Borçalıdan da onun çeşnilərini aparıb xalça toxuyurdular. Deyilənə görə hələ sonralar da, müflisləşmiş Yoluq bəyin taxtının üstündə həmişə 7 xalça olarmış.

Şeirdən görünür ki, uzaqdan-yaxından sevgilisindən xəbər tutan, ruhu və eşqi olan Mirzə Səmədə Cəvahir deyəsən rəğbət bəsləmişdir. Lakin onlar bunu gizli saxlamaq istəsələr də, nə yazıq ki, çox gizli saxlaya bilməmişdilər.

Qorxduqları başlarına gəlmiş, söz böyümüş, qızın bəy qardaşları və bəy atası bu işdən xəbərdar olmuşlar. Cəvahiri məktəbdən çıxarıb, bağlı qapı arxasında saxlamışlar.

Bu həsrət Mirzəyə çox yer eləmiş, həm həsrətdən, həm qəmdən ciyəri yanan aşiq o illərdə "Vaxtı", "Necoldu", "Ceyran", "Gəzirəm" kimi şeirlərini yazır.

Bu şeirlərdə sevgi və həsrətdən yanıb-qovrulan aşıq yuxarıdakı sətirlərdə Cəvahirin şirin "kəlməli", söz-söhbətli olmasına, özünün oxuyub, yazmaq bildiyinə işarə edir. M.P.Vaqifin "Durnalar" qoşmasına nəzirə kimi yazdığı "Durnalar" qoşmasında isə sevgilisinin otağında bəzəkli qalmasını, özünün isə bülbül kimi yarının həsrətindən yanıb-qovrulmasını, yana-yana qalmasını tərənnüm edir. Yarının telinə çiçək taxa bilməyən aşıq durnalardan xahiş edir ki, yarı bəzəndiyi otağa öz tellərindən töksünlər.

Hətta segilisinə namə yazıb göndərə bilməyən, ondan da namə ala bilməyən şairin "Bildinmi" şeirində Cəvahirin özünün gözəl xəttə malik olduğu göstərilir:

Yazdığı namədə xub xəttar idi,
Cənnətdə huridən o betər idi...

Mirzə Səməd "Necoldu?" şeirində yazır:

Mirzə çəkdi harayları,
Keçdi payız, qış ayları,
Boş qalıbdı sarayları,
O sarı tellər necoldu?

Mirzə Səməd bir çox insanları Mansur ağanın qapısına elçiliyə göndərsə də, məlum səbəblərə görə qızı ona vermirlər. Cəvahirin kimi isə

sevməsinə mənim bəy babam (Mansur bəy bu sətirlərin müəllifinin ulu babasıdır) pis baxır və onu zorla kənddə özünün dostlarından birinin oğlu olan, (hətta deyirlər ki, sözlüsü olub) ad-sanına uyğun, dövlətli-hörmətli bəy oğluna – Cəbi oğlu Aslana nişanlayır. Oğlanlarına da tapşırır ki, qızı gözaltına alsınlar ki, bir də "səhv" etməsin.

Əli Cəvahirdən üzülən Mirzə Səmədin yaraları qövr eləyir, dostlarından kömək istəyir və iki hissədən ibarət "Sara verməyin" şeirini yazır:

Başına döndüyüm vəfalı dostlar,
Amandır, tərlanı sara verməyin.
Dörd yanına seyraqıblar düzülüb,
Eyləyib baxtını qara, verməyin.

Qoymayın qapıya, tutmayın sözü,
Minnətə satmayın o şəhla gözü.
Mənə ilqar verib cananın özü,
Çəkməyə əğyara dara verməyin.

Yaxud:

Novbahardır güllər təzə, növrəstə,
Güldən, bənövşədən sarı zülfünə.
Həsrətin çəkməkdən cana yetişdim,
Son dəfə baxsaydım sarı zülfünə.

Pərvanələr yanır şamdan içində,
Ləblərin noğuldur qənddan içində,
Züleyxa tək qaldın zindan içində,
Çəkdirirlər ahu-zarı zülfünə.

Bu hadisədən bir müddət sonra dağ-bağ köçündə Cəvahirin əri evinin köçü ilə rastlaşan Aşıq Mirzənin sevdalı könlü qövr edir. Bir yol ilə ondan əhvalını söruşmağa adam göndərir. Cəvahirin dediyi cavabı yazdığı "Gülə-gülə" qoşmasında belə təsvir edir:

Çəmənli çöllərə getdiyim yerdə,
Mənimlə görüşdü yar gülə-gülə.
Soruşdum, əhvalın necədir, gülüm,
Dedi, yanımda var sar, gülə-gülə.

Döydülər, söydülər, sara verdilər,
Saldılar yerimi dara, verdilər,
Bəxtimi eyləyib qara, verdilər,
Səbəbkarı vursun mar gülə-gülə.

İsmi Sarıteldi, Mansurzadəli,
Bilin, mənəm ya divanə, ya dəli,
Şirin söhbətliydi, şirin kəlməli,
Mirzə çəkər ahu-zar gülə-gülə.

Adı Sarıtel olan qızın atasının Mansur olduğu sonuncu bəndin 1-ci sətrində göstərilir. "Şirin söhbətli, şirin kəlməli" yarından ayrı düşən şair özünü divanə və dəli adlandırır.

Lakin ahu-zar çəkməkdən başqa çarəsi olmayan, heç nə ilə ürəyi soyumayan, yaraları səngiməyən, yerə-göyə sığmayan Mirzə Səməd "Dağlar" və "Vaxtı" şeirlərində dərdini dağlara danışır və üsyankarcasına qızın atası, kəndin varlı-dövlətli bəyi, yaylağı, bulağı, adı-sanı, şöhrəti olan Mansur ağanı qarğış hədəfinə götürür:

Yazıq Mirzə dərdə necə dayansın?
Atanın bulağı qana boyansın!
Od tutub Salahlı yaylağı yansın,
Cüda saldı məndən maralı, dağlar!

* * *

Atan ölsün, anan üstə ağlasın,
Sinəsini çalın-çarpaz dağlasın,
Təbib gəlsin, yaraların bağlasın,
Zülmükar Əzrayıl can alan vaxtı!

"Dağlar" şeirində adı çəkilən həmin bulaq hal-hazırda Daş Salahlı kəndindədir, ona "Qara bulaq" deyirlər, babam da belə deyirmiş. Bu, tarixi bir məkandır. Burada Mansur ağa Qazağın məşhur bəylərindən olan Dilboz ağanı qəbul etmişdir. Lakin bulağın sonralar, sovet dövründə gözü tutulmuş, məscidlərimiz kimi, bulaqlarımız, kəhrizlərimiz də soyqırıma məruz qalmışdır. Bundan istifadə edən bəzi işbazlar ucuz şöhrət dalınca qaçaraq, tarixi təhrif etməyə çalışır, hərə öz əcayib babasının adını bu bulağa yapışdırmağa çalışırlar. Əslinə qalsa, bulaq elə yenə də "Qara bulaq"dır. Xalq heç kəsin diqtəsini xoşlamaz və öz həqiqi mirasına həmişə özü sahib çıxar!..

Sən demə Cəvarir də, Aşıq Mirzə də haqq aşiqləri imişlər! Ahı-nalələri varıymış, bunların! Tanrı yanında xətri əziz imiş bu aşiqlərin. Mənim bəy babalarım bunu görə bilməmişlər. Bəlkə də, elin qınağı, bəylik qüruru onları günah iş görməyə vadar etmişdir? Bir gücsüz, zəif, pak, Tanrıdan başqa heç kimi olmayan, ömürlüyündə qazancı təkcə sevgi payı olan bu aşiqlərin qarğışı böyük bir xanimanı, azman, topdağıtmaz Qayalılar nəslini külə döndərir. Çar Nikolayın xüsusi fərmanı ilə yeddi para kəndin bəyi, igid-igid qardaşların, igid-igid oğulların başbiləni, ağıllısı olan Mansur bəy də yanılır, həyatının ən böyük səhvini edir. Mülkü-xanimanı, sarayı, xəzinəsi, zəmiləri, tarlaları, atı-ixısı, naxırı, sürüsü, dükanları, bazarı, dərzixanaları, neçə-neçə ünvanlara işləyən faytonları, yaylaqları, bostanları, otlaqları, dostları (Xanlıqlar kəndindən məşhur Dilboz ağa babamın dostu olub. Bunu Xalq şairi Mirvarid Dilbazi özü mənə demişdi. Türkiyədən bir sultan babamın evinə qonaq gəlibmiş. Öz əli ilə babam İran şahzadəsi Teti xanımı oğluna gəlin gətiribmiş.) olan qocaman bir nəsli bolşevizm bəlası yerlə-yeksan etdi. Hər şey məhv oldu. Xəyala döndü! Elə bil heç yoxmuş bunlar.

Cəvahir də çox yaşamadı, onun vaxtsız ölümü təzədən bir də Aşıq Mirzəyə zərbə kimi dəydi. Cəvahir ölüm yatağına düşəndə bütün qadağalara məhəl qoymayaraq üstünə molla yox, Aşıq Mirzənin gəlməsini istəyir.

Bu, həqiqətdir, bunu hamı danışır. Heç kəs dana bilməz!

O, əsilzadə idi. Sevgisinə də əsilzadə kimi sadiq qaldı. Mirzəsiz yaşamadı. Öldü!

Cəvahirin ölümü Mirzə Səmədə çox ağır zərbə, ölümcül yara kimi dəydi. O, bunu Qazağın Kəsəmən kəndində yaşayan dostu Qəhrəmana belə yazıb:

Başına döndüyüm, Qəhrəman qardaş,
Sinəmə çəkilən dağı bildinmi?
Fələyin tədbiri təğayir olsun,
Viran etdi bağça-bağı, bildinmi?

Yaşılbaş sonaydı göllərdə, hanı?
Pərişan otağı, pozulub xonu,
Xəkə bülənd oldu gülbədən canı,
Zəhr olubdu şirin saqi, bildinmi?

Görünmür gözümə sonalı göllər,
Açmasın növbahar, bitməsin güllər,

Qəfəsdə lal olub şeyda bülbüllər,
Seyraqıb gətirdi ağı, bildinmi?

Dünya birdən-birə döndü, dəyişdi. Cəvahirin özü də söndü, xanimanı da çökdü. Böyük bir axın kimi gələn bolşevizm taunu hər yeri olduğu kimi, Azərbaycanı da çulğadı. Bəylik, zadəganlıq, mərdlik, ağalıq, ucalıq ləğv edildi. Hamısının malı-mülkü əlindən alındı, varlı-kasıb hökumət maskası altında "bərabərlik" boyunduruğuna qoşuldu.

Mirzə Səməd yoxsul idi. Amma ruhu var idi, yaxşı dostları var idi. O, böyük Atatürkü, Məmməd Əmin Rəsulzadəni, N.Nərimanovu, Nəsib bəy Yusifbəylini və digər bir çox siyasi xadimlətri şəxsən görmüş və çoxları ilə dostluq etmişdir. Cumhuriyyət illərində dairə icraiyyə komitəsinin sədri olmuşdur. Sonralar sovet dövründə isə Əksipara, Şıxlı, Düzqışlaq kəndlərində kolxoz sədri və kənd sovet sədri vəzifələrində çalışmışdır.

Lakin o tale ki, Mirzə Səməddə var idi, o həmişə bir tərəfdən açanda, bir tərəfdən bağlamışdır. Mirzə Səmədə öz həmkəndlisi, Məmməd koxaya yazdığı bir şeirin üstündə 10 il Sibir cəzası (elə yazıq Məmməd koxaya da) kəsilmişdi. Çünki bu şeirdə Mirzə Səməd Türkiyə Respublikasının banisi Qazi Mustafa Kamal Paşa Atatürkün adını çəkmişdir:

Agah olsun sənə, ay Məmməd koxa,
Onu bil ki, ol Alosman gələcək!
İnqilab sərkəri, əldə şəmşiri,
Kamal kimi o pəhləvan gələcək!

Söz verəcək yoldaşımız Nərimana,
Ay-ulduzum sancılacaq hər yana,
Onda qurulacaq adil divana,
Millət üçün haqqı-divan gələcək!

Ay Mirzə, yolların çox oldu çətin,
Həyata gəlmisən, yetimsən, yetim,
"Fil çəkməz dərdləri mən necə çəkim",
Hər yanda üstünə ürfan gələcək!

Bu misralardan görünür ki, Mirzə Səməd heç də şuranın tərəfdarı olmayıb, onların "fəhlə-kəndli" hökumətinə heç də inanmayıb. "Fəhlə-kəndli" maskası ilə donlanmış bu yırtıcı qurdun yavaş-yavaş öz siyasətini, "parçala və hökm sür" tezisini yeritdiyini Mirzə duymuşdu. Lakin neyləyə bilərdi? Quruluş qurulmuşdu, bu axının qarşısını kəsmək mümkün

deyildi. Bu şura deyilən zəhrimar quruluş belə idi ki, hamı bir-birindən danos yazır, hamı bir-birinə qəbir qazırdı. Dünən Mirzə Səməddən "danos" yazıb, onu tutduranın bu gün kimsə özündən "danos" yazıb, qəbrini qazır, yaxud, ən yaxşı halda onu tutdururdu. Kim əlinə kətmən-bel alıb şuraya "ləbbey" deyirdi, o irəli çəkilirdi.

Mirzə də o zülmləri ki, gözü ilə görmüşdü, daha sovetlərə, şuraya, inqilaba heç bir şey yazmadı. Əksinə, firqə sıralarına keçdi və yavaş-yavaş irəli çəkilməyə başladı. Ağlı, dərrakəsi, savadı, şüuru, zövqü, təbi olan bir insan idi Mirzə Səməd.

Mirzə Səmdin yaradıcılığına Xalq şairi Səməd Vurğun çox böyük əhəmiyyət vermişdir, onların dostluğu olmuşdur. Səməd Vurğun Mirzə Səmədə "A dağlar oğlu", – deyə müraciət edərmiş (Ş.Nəzirli). Hətta Səməd Vurğun Xalq artistləri Adil İsgəndərov, Nəcibə Məlikova və Azərbaycan Dövlət Akademik Dram Teatrının bir qrup aktyoru ilə Qazağa gələrkən Mirzə Səmədin qonağı olmuş, onların Avey dağının önündə, Damçılıda çəkilmiş xatirə şəkilləri də bu günədək durur. Hətta qocalar söhbət edirlər ki, böyük şairimiz Səməd Vurğunla Mirzə Səmədin deyişməsi də olmuşdur.

Mirzə Səmədin tanınmış aşıqlardan Hüseyn Bozalqanlı, Qazaxlı İsmayıl Katib, Əsəd Rzayev və Xəyyat Mirzə ilə, Aşıq Zərnişanla, kəsəmənli şair Qəhrəmanla yazışmaları, deyişmələri, görüşləri olmuşdur.

Aşığın əsərlərinin ilk tədqiqatçısı istedadlı folklorşünas, tədqiqatçı alim Hümmət Əlizadə olmuşdur. Çox gənc yaşında dünyasını dəyişən, cəmi 34 il ömür sürmüş (o da 37-ci illərin qurbanlarındandır), bu illərdə folklorumuza, aşıq ədəbiyyatına, dastanalarımıza aid 13 kitab toplayıb çap etdirmiş alim, o dövrdə böyük qayğıkeşliklə Mirzə Səmədin şeirlərini "Ədəbiyyat" qəzetində, "Azərbaycan aşıqları" almanaxında, "Kommunist" qəzetində nəşr etdirmişdir.

Sonralar görkəmli alimlər – ədəbiyyatşünas professorlar Məmməd Hüseyn Təhmasib və Məmməd Məmmədovun da diqqətini şair Mirzə Səmədin yaradıcılığı cəlb etmişdir.

Bu gün də Daş Salahlı kəndində şair Mirzə Səmədin həyatı, sevgisi, yaradıcılığı haqqında dastana bənzər rəvayətlər söyləyirlər.

Tanınmış jurnalist, tədqiqatçı Şəmistan Nəzirli "Aşıq Mirzə Səməd" adlı kitab nəşr etdirmişdir.

İLLƏRİN İZİ VAR XATİRƏLƏRDƏ...

Vəliyəddin MİSİROĞLU
Azərbaycan Jurnalistlər Birliyinin
üzvü,
"Qızıl Qələm" mükafatı laureatı.

SAZ DA, BİR BEŞİKDİR

ÇAL, AŞIQ, ÇAL...

Gənclik illərində "Azərbaycan Ədəbiyyatı tarixi" kitabından əzbərlədiyim "Əsli və Kərəm" dastanına aid bir bənd şeir həmişə məni kövrəldərdi. Ana öz analıq dünyasından çox, məhz Kərəmin anası olduğu ilə fəxr edir və özünü yana-yana tarixə belə təqdim edirdi:

Oğul gedə-gedə bizi yad etdi,
Ünlədim, ünlədim, ünümdən ötdü.
Öldü Ziyad xanım, Mahmudum itdi,
O itgin Mahmudun anasıyam mən.

Mahmudun (Kərəmin) anası Qəmərbani dünyaya bir oğul gətirməklə tarixə bir məhəbbət dastanı bəxş etmiş oldu. Bu dastan ona görə tarixidir ki, məhəbbət kimi onun da vətəni yoxdur, məkanı var. O məkan da insan ürəyidir. Bu dastan ürəklərdə yaşayır. Hər bir sevən ürəkdə alışan-yanan, məhəbbətinə namuraz qalan bir aşiq – bir Kərəm yaşayır.

Dünyaya gələn Kərəmlər içərisində yalnız Ziyad xan oğlu Kərəmin adıyla bağlı bayatılar qoşulub, saz havaları yaranmışdır:

Əzizinəm, dərdə Kərəm,
Düşübdü dərdə Kərəm.
Qoşaram qəm kotanın,
Sağalmaz dərd əkərəm.

Kərəm bu dərdi əkib getdi. Əsrlər keçdi, yerində yanan aşiqin görünməz tüstüsünü korun-korun bu dağdan o dağa ötürən "Yanıq Kərəmi" bitdi.

XX əsrin ortalarında isə Kərəmin halına yanan, onun harayına çıxan ikinci bir həmdəm doğuldu. Bu həmdəm Kərəmin püskürən od-alovunu öz "Yanıq Kərəmi"si ilə şərq dünyasına çatdıran Aşıq Ədalət Nəsibov oldu.

Qara sinəli saz, qılınc təpərli mizrab sahibi... qızıl barmaqlı Aşıq Ədalət... O Ədalət ki, qara sazıyla birlikdə ozan dünyasına yeni bir nəfəs, yeni bir güc gətirdi.

Bir zamanlar sazı unudun deyib, onu tonqallarda taxta kimi yandıranların ruhunu indi Aşıq Ədalət barmaqları ilə, "Yanıq Kərəmi"si ilə çırtha-çırt yandırır, sanki indi "siz cəhənnəmə vasil olun" deyir.

Şair Məmməd Aslanın dediyi kimi: "İndi Aşıq Ədalət sazın tacidarıdır. Aşiqlərin dərdinə dərman olan saz havalarının yeniləşmiş mahir ustasıdır. O, sazı başının üstünə aldı, göylərə qaldırdı. Hamı saza boylanıb, Ədalət kimi çalmağa çalışdı".

Necə ki, sevilə-sevilə əzbərlənən şair Bəhmən Vətənoğlu demişdi:

Bir havası yüz Bəhmənin dərdinə
Dərman eylər Ədalətin sazında.

Onun sazına qulaq asanda nəfəs almaqdan qorxursan. Qorxursan ki, nəfəs onun vurduğu güllərin səsinə xələl gətirə. Sazın iniltisi o qədər həssasdır ki, yad həniri götürmür.

Ədalətin saçının pəjmürdə düzümü, alnının genişliyi, qaşının üstündəki xalı onun aşıq görkəminə xüsusi yaraşıq verir. Sifətinin hər qırışında oynayan təbəssümün içərisindən boylanan musiqi çaları onun təkrarolunmaz Ədalət olduğunu deyir. Üzünü sazın sinəsinə söykəyəndə elə bil Əsli ilə Kərəmi qovuşdurur. Kişi bərbudalığının simvolu olan yaraşıqlı bığlarının hər tükündən Koroğlu cəngisinin zəhmi tökülür. Bu qiyafənin də içərisindən istedad bulaq kimi qaynayır.

Qara sazın simlərindən çıxan ecazkar səs sazın not dünyasını yaratdı. Bunu hər bir sənət sahibi, hər bir musiqişünas səmimi etiraf etməlidir.

Xalq "Əsli və Kərəm" dastanı yaratdı. Aşıq Ədalət Nəsibov da dastanda yanan Kərəmin əsil "Yanıq Kərəmi"sini yaratdı, çaldı və sənət köhləninin də üstündə çala-çala gedəcəkdir. Qayıdıb arxaya baxanda arxasınca boylanan bir karvan görəcəkdir. Bu karvan Ədalətin

barmaqlarının izi ilə gedir, Ədalətin hənirini axtara-axtara sazın cənnət dünyasına qovuşmaq üçün gedir.

Cənnətin mübarək, Ədalət...

Tale elə gətirmişdi ki, mən də dəfələrlə Aşıq Ədalətlə görüşmüşəm, bir məclisdə olmuşuq. Onun bariton səsinə, şirin ləhcəli danışığına qulaq asmışam. Bamə̇zə söhbətlərindən feyziyab olmuşam. Çaldığı saz havalarını nəfəs dərmədən dinləmişəm.



***Bir neçə xatirə*:** 1975-ci ildə Ali Partiya Məktəbində oxuduğum illərdə Qazax rayonundan olan tələbə yoldaşım Bayram Bayramova dedim ki, mən Ədalət Nəsibovla şəxsən görüşməmişəm. Amma onun pərəstişkarıyam. Xahiş edirəm, ona salamlarımı yetir və Bakıya gələndə bizi görüşdür.

Yay istirahətindən sonra rayondan qayıdan Bayram müəllim dedi ki, sənin salamlarını Aşıq Ədalətə yetirdim və ona dedim ki, bu kəlbəcərli qardaşımız sənə vurğundur, özü də saz çalandır. Cavabında dedi ki: "Onun ağrısın alem, kəlbəcərli olasan, sazı sevməyəsən, bu həncəri olar? Bakıya gələndə görüşərik...”

Bayram cibindən qorda (közlə külün qarışığı) bişirilmiş əsl gilas qabığından olan bir mizrab çıxartdı və dedi:

– Bu mizrabı Ədalət sənə göndərdi.

QEYD: Ta qədimdən gilasın soyulmuş qabığını ocağın qorunda basdırıb bişirərdilər. Belə mizrablar səsi udmurdu və simin üzərində asan oynayırdı.

... Mən həmin mizrabı işlətmirdim, yadigar saxlayırdım. Heyf ki, bir çox antikvar, qiymətli əşyalarımla birlikdə o mizrab da Kəlbəcərdə girov qaldı. Kaş ki, o çürüyəydi, murdar əl ona dəyməyəydi.

* * *

1994-cü ildə dostum Rəhman Verdiyevlə birlikdə nazirliyin xətti ilə Qazax rayonuna ezamiyyətə getmişdik. Daş Salahlı kəndində hər ikimizin dostu olan Muxtar Səttarovun qonağıydıq. Axşam Muxtar dedi ki, mən sizi səhər buraxmayacam. Səhər-səhər bir qurutlu Qazax xəngəli yeməyincə burdan getməyəcəksiniz. Mən xüsusi xəngəl yayıb-bişirən dəvət eləmişəm və ayrı qonağımız da olacaq.

Sulu qar yağırdı.... Xəngəl qazanından çıxan buğ yerə düşən qar dənəsini göydə əridirdi. Bu an tələbə yoldaşım, çox gözəl insan, o vaxt sovxoz direktoru işləyən rəhmətlik Mahmud İbrahimov, ət kombinatının direktoru Əsəd və Aşıq Ədalət maşından düşdülər, ərkyana, zarafatla, – bıy, sizin "xəngəlli savaxınız" xeyir olsun, – deyərək, bizlə qucaqlaşıb görüşdülər...

Mərəkə qızışdı... Muxtar müəllim çox dostpərəst, qonaqpərvər və çörəkli olduğu üçün çox əldən-ayaqdan gedirdi. Tez-tez, – ayə, ağrınız alem, sən mənim canım, ürəklə – canıma yatan tərzdə yeyin dana, yaxşı-yaxşı da vurun, – deyirdi.

Aşıq Ədalət özündəydi, öz aləmində bir dünya qurmuşdu. Üzünü qara saza söykəmişdi. Alnından axan puçur-puçur tərin izi sazın üstündə Avey dağının xəritəsini andırırdı.

Muxtar dedi:

– A Ədalət, a sənin "dvijeniyanın" ağrısını alem, ə, bir başını yuxarı qaldırsan, görək nə var, nə yox?

Ədalət əlini saxlayıb, bir xatirə danışdı:

– A Muxtar, o qanlı-qadalı, kasıblığın meydan suladığı, çörəyin qıt vaxtları yadıma düşdü. Görərdin, yazıq anam məni çox istədiyindən bir parça sac əpbəyini hamıdan gizlin qoynunda saxlayıb məni gözdüyür. Çöldən, dərsdən öyə gələn kimi böyrünə qısa-qısa mənə verərdi. Mən də çörək quruduğundan xarta-xart, yavan-yavan ağzımın suyunda isladıb yeyirdim. Bax, onçün indi üzümü sazın sinəsinə söykəmişdim, anamın qoynunun istisini, bir də həmin əpbəyin iyini axtarırdım. Sənin xəngəlinin qurut qarışıqlı soğandağlı iyi məni ayıltdı. Ayə, tərimi görmürsən? "El havası" gör məni haralara apardı... İçimdən od çıxırdı...

* * *

Aşıq Ədalət Dəlidağlının qızının toy məclisiydi. Dədə Ədalət qonaq kimi dəvət edilmişdi. Məclis təzə başlamışdı, bala Ədalət mənə yaxınlaşdı və dedi:

- Vəliyəddin əmi, qadan alım, qurban olum, siz Allah, kömək edin, ustad Ədalət yaman əsəbləşib, məclisdən yarımçıq gedir. Bəlkə sizi eşidə, o məclisdən yarımçıq getsə, mən əlimə saz ala bilmərəm. Saz da çalmasam, qonaqlarımın sözünü yerə salmış olaram.

Həyətdə Dədə Ədalətin qoluna girdim, telini əlimlə sığalladım:

- Ay ustad, qartal zirvədən şığıyan kimi hara belə şığıyırsan? Yoxsa şikar görmüsən, nədi? Hara gedirsən? Niyə belə əsəbiləşmisən?

Dəlidağlı da o biri qoluna girib, – ay başımın tacı, saz dünyasının şahı, ay qadan alım, hər şeyi mənə bağışla, əsəbiləşmə, sən Allah, qayıt...

Şəyirdin ustad qarşısında bu qədər təzimi – Aşıq Ədalət Dəlidağlının böyüklüyü və sənətkara verdiyi qiymət, qonağına hörmət idi.

Hər ikimizin təvəqqəsi deyəsən aşığın səbbini almışdı. Soruşdum, – axı, nə olub belə? Əsəbiləşməyin səbəbi nədi?

Dedi:

– A dağlar oğlu, ay ağrın alem, görmürsən, bu toydakı musiqiçilər "Cin bayatısı" çalerlər, səs beynimizin içini silkələyir.

Könlünü ala bilmişdim. Dedim:

– Aşıq Ədalət, heç sən Qazaxda Muxtargildə belə döyüldün, yadına düşürmü?

Dedi:

– A sağ olmuş, huşum dağılıf-gedif, hər şey yadımda ha qalmır.

Dedim:

– Gəl, bir şəkil çəkdirək, yadigar qalsın.

Dedi:

– Şəkildən qabaq kefimizi duruldaq, sonra...

Durultduq da...

Qara sazdakı "Ədalət ruhanisi" toya ikinci bir toy qatdı. Məclis iştirakçıları ayaq üstə gurultulu alqışlarla Dədə Ədaləti yola saldılar...

İÇİNDƏ RUH OLMASA, BARMAQ ÇÖLDƏ OYNAMAZ

Yenə də Kəlbəcərli, bəxtəvər günlərimiz idi. Rayon Xalq Nəzarət Komitəsinin sədri işləyirdim. Səhər-səhər işə gəlirdim, yolumuz rayonun çox mötəbər ağsaqqalı, sözünü deməyi, çörəyini yedirtməyi, yeri gəlsə namərdin dizini yerə qoymağı bacaran, həm atamın, həm də mənim yaxın dostum (bu, hamıya nəsib olmur: həm atasıynan, həm də oğluynan dost olasan) Əli Səfərovun evinin arxasından keçirdi. Gördüm Əli dayı (mən

həmişə ona belə müraciət edirdim) yanında bir qonaq darvazanın ağzında dayanıb. Maşını saxlayıb salam verdim.

Əli dayı çox hökmlü və ərkyana dedi:

– Maşından aşağı düş… qonağım var…

Baxdım ki, bu, çox böyük hörmətim olan, saz-söz xiridarı, azman sənətkar, şirmayı barmaq Kamandar Əfəndiyevdir.

Əli dayı əl çəkmədi, səhər süfrəsinə dəvət etdi. Aşıq Kamandarla söhbətləşdik. Kişi danışdıqca gözəl sifətindən nur, ağzından dürr tökülürdü. Kəlmələri o qədər səlis tələffüz edirdi ki, adamın ağzı açıq qalırdı.

Dedim:

– Kamandar əmi, axı sizin barmaqlarınız çox da uzun deyil… Necə edirsiniz ki, bu şirmayı barmaqlar pərdə üzərində bu qədər xırdalıqlar eləyir, güllər vurur, hər yarım pərdədən bir sanki simfoniya səsi çıxır.

Güldü, dedi:

– Bacıoğlu, məni sınağa çəkirsən? Sən özün deyəsən saz çalırsan, simdən və səsdən başın çıxır…

Dedim:

– Yox, vallah, heyranlığımı bildirirəm və bu sirri öyrənmək istəyirəm.

Dedi:

– Bala, mənim barmaqlarım içimdədir, hökm içəridən gəlir. İnsanın içərisində duyum olmasa, barmaqlar nə karədir ki, çöldə oynasın.

Əlim üzümdə qalmışdı. Gör, musiqi təhsili almayan bu el sənətkarının nə qədər güclü musiqi fəlsəfəsi var. Fikir çox aydın, sadə dildə, başa düşülən, şərhə ehtiyacsız oldu.

Əl çəkmədim, səhər-səhər şirmayı sazda bir "Borçalı ruhanisi" dinləyib, xudahafizləşdim.

Axşamkı seldən sonra səbbi alınan Tərtər çayının səsi səhər-səhər təmiz dağ havasında aydın eşidilirdi. Həm də dağ çayının şırranından tökülən suyun səsi aşıq Kamandarın səsi kimi çox hökmlü və gur gəlirdi.

SAZ VƏFASI - GÖYÇƏDƏN GƏDƏBƏYƏ GÖRÜŞƏ GƏLİB

Aşıq dünyasının qaynaq bulağı olan Göyçə həmişə haylı-haraylı olub. El şənliklərindən, toy məclislərindən Aşıq Alının, Aşıq Ələsgərin, Növrəs İmanın, Aşıq Müseyibin və digər böyük ustadların, onların yetişdirmələrinin sazından gələn səs, xoş avaz, Koroğlu nərəsi bu camaatı

heç vaxt bədbin olmağa qoymayıb. Amma iyirminci əsrin dördüncü tələtümü artıq Göyçənin pərənini pozmuşdu. Hər kəs ümid bildiyi bir yerə, üzü gələn bir obaya, evə yön çevirirdi. Belə bir vaxtda dəfələrlə məclisində olduğum, aşıq sənətini və xalq dastanlarını kamil bilən 80 yaşlı Göyçə mahalının Basarkeçər rayonunun Qaraqoyunlu kəndindən olan Aşıq Cahad Kəlbəcərdə qonağım oldu. Çox yüksək mədəniyyətli, sənətinə hörmət qoyan, səliqəli geyim-keçim sevən adam idi. Aşıq forması bədəninə kip oturardı. Xrom çəkməsi həmişə parıldayardı. Çox gur səsi və yaxşı dastan dili vardı.

Gecədən çox keçməsinə baxmayaraq, dedi:

– A bala, sazı köynəkdən çıxarıb bir-iki hava oxuyacağam. Qoy bu axşamdan yadigar qalsın. Ya qismət... bir də... – səsi titrədi, köks ötürdü. Göyçənin 1905-1918, 1936-1937, 1948-1950-ci illərindəki faciəsindən danışdı. Dedi, – a bala, bu dördüncüsüdür. Axırıncı görənəyimizdir.

Səhər saat 5. 00-a qədər həmin sazla yanıqlı-yanıqlı çalıb oxudu. Rəhmətlik Hüseyn Arifin "Göyçəlilər, dağılmayın Göyçədən" şeirini dəfələrlə "Ağır Şərili" havası üstündə oxudu, kövrəldi və ailəlikcən bizi də kövrəltdi. Hər dəfə də əlin saxlayıb müraciətlə öz-özünə deyirdi: "Ay Hüseyn qağa, görmürsənmi, Göyçəli Aşıq Nəcəfin kürəyinə qaynar samavar bağlayıb pörtdədif yandıran kafər ermənilər yenə də niyyətlərindən əl çəkmirlər. "Arxalı köpək qurd basar" deyib atalar. Görmürsənmi, onların dalında kim dayanıf?! Onlar öyrənib nə verib, nə almağa. Darıxmayaq, yenə də haqq bizim olar. Qədim xalq mahnılarında deyildiyi kimi:

Gedib yenə gələrəm,
Tökmə gözün yaşını.

Ağlama, Göyçə, ömür vəfa versə, bir də görüşərik".

Məqsəddən uzaqlaşmayaq. Aşıq Cahad səhər duranda dedi:

– A bala, bu sazı gedəndə aparmayacam. Bu gecə mən bu sazla Göyçə harayını bax bu Kəlbəcər dağlarına yaydım. Qoy bu saz bu harayın şahidi, bu axşamdan da yadigar qalsın. Bu sazı sənə bağışladım.

Dedim:

– Cahad kişi, mənim sazım var, Usta Xudu mənə bağışlayıb.

Dedi:

– Bala, bu mənim nıxtıma dolub, məni istəyimə şülüzümmə eləmə, Misir qağamın canı üçün, sazı burdan aparmayacağam.

Sazı üç dəfə öpüb, üzünü sinəsinə söykədi. Həsrətdən tövşüyürdü. Saza hovxuran nəfəsi sazın üstündə qarlı, çovğunlu bir Göyçə şəkli çəkdi. Sazın üstünə düşən bir damla göz yaşı sanki Göyçə gölündən gözünə yığdığı axırıncı damla idi, o da boşaldı. Sazı masanın üstünə qoyub evdən çıxdı.

****

Aradan düz on beş il keçmuşdi. Müvəqqəti də olsa Kəlbəcəri də itirmişdik.

Ailəlikcən Gədəbəyin Narzan bulağına getmişdik. Aşıq səsi gəlirdi. Yetişmiş səs idi. Sazda şit barmaq vurulmurdu. Hiss edirdin ki, bilək çiy dedyil, havanın ahənginə uyğun oynayır. Aşıq "Göyçəgülü" havası oxuyurdu.

Yaxınlaşdım, oxuyan Aşıq Cahad idi. Vallahi-billahi, heç səsi dəyişməmişdi. Amma namərd qocalıq yaxasından bərk yapışmışdı. Yaş 95 idi. Məni tanımadı.

– Ay qonaqlar, hansı bölgədənsiniz, – dedi.

Dedim:

– Ay aşıq, yəqin bilirsən, "Əsli və Kərəm" dastanında ömrünün sitəmli günlərini yaşayan Kərəmin anası Qəmərbanudan soruşanda ki, ay ana, sən kimsən, cavab verir ki:

Dağıldı dövlətim, tamam bad oldu,
Viranə Gəncənin yiyəsiyəm mən.

Biz də uzaqdanıq.

Aşığın diqqəti məndə idi, heç gözünü məndən çəkmirdi. Cavabım onu bərk tutmuşdu. Təkrar heç nə soruşmadı.

Süfrədə çörək kəsdik. Dedim:

– Aşıq Cahad, xahiş edirəm, ömür-gün yoldaşın Həyat xanımın xatirəsinə yazdığın qoşmanı oxu.

Bərk tutuldu. Üzümə bir də diqqətlə baxdı.

– A bala, niyə demirsən ki, axı sən kimsən?

Dedim:

– Cahad əmi, maşında saz var, qoy onu gətirim, köklə, deyəcəyəm mən kiməm.

– A bala, sən dəmi aşıqsan?

Dedim:

– Yox.

Sazı kökləyə-kökləyə o üzünə bu üzünə baxırdı:

– A bala, bu da Xudunun sazlarındandı. – Sazın qolunun ucuna baxdı. Ora zərlə bəzədilmiş lent yapışdırılmışdı. Əlini zərə sürtdü: – Ay Allah, bu nə möcüzədir, bu mənim Göyçədəki sazım döyülmü?! – Sazı bağrına basdı. Öpdü və cansız taxtanı iylədi. Cibindən dəsmal çıxarıb sazı sildi, bir də öpdü...

Həsrətlər qovuşmuşdu. Sehirli saz Göyçədən Gədəbəyə görüşə gəlmişdi.

– Oxqay... bax Göyçənin ətrini indi bu sazda duydum. – Üzünü bir də saza söykədi. – Ay Vəliyəddin müəllim, ağrın alım, bax, səni indi tanıdım. Heyf Göyçədən, heyf Kəlbəcərdən, heyf o günlərdən... Atan Qabiloğlu Misirə min rəhmət. Əhsən sənin etibarına. Ay Sona müəllimə (mənim həyat yoldaşım), a bala, zəhmətimi çəkmisən, qarşıma çörək qoymusan, zəhmətini halal eylə... – dedi və bərk kövrəldi... Bir damla göz yaşı sazın üstünə düşdü.

İndi düşən bu bir damla göz yaşı sevinc yaşı idi.

Dedim:

– Aşıq Cahad, bu saz Göyçədən didərgin düşdüyü kimi, Kəlbəcərdən də didərgin düşüb, Qarabağı dolanıb gəlib Xəzərə qısılıb. Amma yenə də Göyçə gölünə boylanır, gözlə, gələcəm deyir. Axı, saz ömrü tükənməzdir...

Yaşı yüzü haqlamış Aşıq Cahad Koroğlu cəngisi oxuya-oxuya bizimlə xudahafizləşdi.

OZAN DÜNYASINDAN SORAQLAR

SƏRDAR MƏMMƏDOVUN YARADICILIQ GECƏSİ KEÇİRİLMİŞDİR

2014-cü il yanvarın 22-də R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Əməkdar Mədəniyyət işçisi, tanınmış balaban ustası **Sərdar Məmmədovun** yaradıcılıq gecəsi keçirilmişdir. Gecəni Xalq şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri **Zəlimxan Yaqub** açmış, şair **Musa Ələkbərli,** iş adamı **Knyaz Səmədoğlu,** Əməkdar müəllim **Rəşid Mahmudov**, şair **Tofiq Abbasov** və digərləri çıxış edərək Sərdar Məmmədovun sənətindən söz açmışlar.

Sərdar Məmmədovun pərəstişkarları qarşısında bir hesabatı olan gecədə onunla yanaşı sənət dostlarından **Qələndər Zeynalov, Altay Məmmədli, Aşıq Söhbət, Elxan Məmmədov, Əli Tapdıqoğlu, Bəhmən Göyçəli, Nəbi Şınıxlı, Firudin Göyçəli, Nazim Şınıxlı, Dəmir Vəliyev** və digərlərinin çıxışları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

"DƏRDİMİN DƏRMANI SAZIM"

Dövlət Mahnı Teatrında Fəzail Miskinlinin yaradıcılıq gecəsi keçirilib.

2014-cü il martın 5-də Azərbaycan Aşıqlar Birliyinin təşkilati dəstəyi ilə R.Behbudov adına Dövlət Mahnı Teatrında aşıq Fəzail Miskinlinin "Dərdimin dərmanı sazım" adlı yaradıcılıq gecəsi keçirilib.

Tədbirin aparıcısı professor **Məhərrəm Qasımlı** Fəzail Miskinlinin yaradıcılığından geniş bəhs edib. O qeyd edib ki, Fəzail Miskinli eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktorudur.

Aparıcının giriş niqtindən **sonra Fəzail Miskinli** alqışlarla səhnəyə dəvət edilib. O, "Dilqəmi" havası ilə geniş tamaşaçı kütləsini salamlayıb. Sonra Azərbaycan Aşıqlar Birliyinin katibi **Musa Nəbioğlu** çıxış edərək bu tədbirin keçirilməsində məqsədin gənclərə geniş meydan verilməsi olduğunu deyib, Fəzail Miskinlinin təkcə saz ifaçısı yox, həm də alim-aşıq olduğunu, bu sənətinin tədqiqi və təbliğində, tədrisində xidmətlərini vurğulayıb, Xalq şairi Zəlimxan Yaqubun təbrikini və tədbir iştirakçılarına salamını çatdırıb.

Gecədə həmçinin Fəzail Miskinlinin sənət dostları – Əməkdar Mədəniyyət işçisləri **Əhliman Rəhimov** və **Ədalət Dəlidağlı**, aşıqlardan **Altay Məmmədli, Avdı Musayev, Ramin Qarayev, Dəmir Gədəbəyli, Qələndər Zeynalov, Əli Tapdıqoğlu, Nazim Şınıxlı, Familə Göyçəli, Gülarə Azaflının** rəhbərlik etdiyi "**Çeşmə**" qrupu çıxış ediblər. Amerkalı **Laura Martanın Məhsəti Cabbarova** ilə birlikdə "Bəhri divani" aşıq havasını ifa etməsi isə gurultulu alqışlarla qarşılanıb.

Gecədə həmçinin AMEA Folklor İnstitutunun direktoru, professor **Muxtar İmanov** və ADMİU-nun prorektoru **Rafiq Sadıqov** Fəzail Miskinlini təbrik edərək ona uğurlar arzulayıblar.

Sonda Fəzail Miskinli tədbir iştirakçılarına və təşkilatçılara minnətdarlığını bildirib, gecəni "Baş sarıtel" havası ilə başa vurub.

XATİRƏ GECƏSİ



Fevralın 14-də R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Aşıqlar Birliyinin (AAB) təşkilatçılığı ilə tanınmış aşıqlar - **aşıq Rza Qobustanlının** 70 illik yubileyi və onun vaxtsız dünyasını dəyişmiş oğlu **aşıq İslam Qobustanlının** xatirə gecəsi keçirilib.

Tədbirdə çıxış edən professor **Məhərrəm Qasımlı** bildirib ki, gözəl səsə, məharətli ifa tərzinə, yüksək insani keyfiyyətə malik Rza Qobustanlı və oğlu Azərbaycan aşıq sənətinin, ifaçılıq məktəbinin tanınmış nümayəndələrindən olublar.

Qobustanlılar ailəsinin sənət yolunun gənc davamçısı **Rza İslamoğlu,** Əməkdar mədəniyyət işçisi aşıq **Əhliman Rəhimov**, Xalq artisti **Canəli Əkbərov** və başqaları özünəməxsus ifa tərzi, xüsusi dəst-xətti ilə seçilmiş ata-oğuldan söhbət açıblar. Aşıqların ifasında onların vaxtilə ifa etdikləri el havaları səsləndirilib.

Tədbir çərçivəsində həyatdan vaxtsız getmiş İslam Qobustanlıya həsr edilmiş "Aşıq İslam dünyası" kitabının təqdimatı olub.

Xəbərləri hazırladı:
Elşad Çobanlı

MÜNDƏRİCAT

Z.Yaqub. Səfər davam edir. 3
B.Qurbanov. tarixi-estetik baxımdan aşıq musiqisi..... 12
F.Bayat. Aşıqlıq sənətinin ötürülməsində
usta-şagird ənənəsinin funksional rolu. 26
X.Bəşirli. Sazım şirinləşir sözümə qarşı..... 36
D.Məhəmməd. Şeirlər!..... 43
A.Cəmil. Aşıq Şəmşir poeziyasında xalq gülüşünün izləri. 45
Q.Şəhriyar. Türk aşığı Dadaloğlu: həyatı və yaradıcılığı. 52
S.Fərəcov. Aşıq Bəsti: "Həyanım yollardı, bir də ki, sazım"..... 60
Aşıq Bəsti. Şeirlər. 62
S.Sədnik qızı. Saz üstündə köklənən alim. 65
İ.Sarıyeva. "Qarabağ dastani"nda Qarabağin başına
gələn bəlalaları yazan aşıq İmran Həsənov... 68
Z.D.Qayalı. Aşıq Mirzə Səməd. 75
V.Misiroğlu. Saz da bir beşikdir... 83
Ozan dünyasından soraqlar

Yığılmağa verilmiş 20.02.2014
apa imzalanmış 06.03.2014
Şərti çap vərəqi 6. Sifariş № 382.
*Kağız formatı **70x100** 1/16. Tiraj 1000*

*Jurnal **«Nurlan»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*